# QARABAĞ AZƏRBAYCANDIR!



RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 221 (8537) BAZAR, 25 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




## Azərbaycan Vətən savaşında iradəsini və hökmünü göstərir

## Ali Baş Komandan İlham Əliyevin qətiyyəti ilə işğal altında qalan torpaqlarımız düşməndən təmizlənir

**Otuz ildən bəridir ki, işğal altında qalan torpaqlarımız bu gün ordumuzun gücü, dövlət rəhbərimiz, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti ilə düşməndən təmizlənir, nisgilli yurdlarımız azadlığına qovuşur. Bu qüruru bütün ruhumuzla duyub hiss edirik.**

Tarixi zəfər günü üçün hər kəs əlindən gələni etməyə çalışır. İnsanlarımızda çox böyük sevinc, fəxarət, milli vəhdət var. Bu, bizim həmrəyliyimizin gücü, qüvvəsidir. Milli vəhdətimizin yaratdığı ruh yüksəkliyidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qətiyyəti, xalqa, Vətənə sevgisi ətrafında əldə edilmiş bu həmrəyliyi heç nə sarsıda bilməz.

Kifayət qədər güclənmiş Azərbaycan hazırda öz iradəsini və hökmünü göstərir, müstəqillik qazandığı ilk gündən qarşısına qoyduğu hədəfə doğru irəliləyir, öz kökünə layiqli, yüksək inkişaf etmiş, ərazidə tərəqqinin və sülhün nümunəsi olan bir dövlət qurur. Erməni cəlladlarının işğalda saxladıqları bütün dini, mədəni, qədim abidələrimizi dağıtdıqları, barına-bərəkətinə xələl gətirdikləri yurdlarımızda tarixi yaddaşımızı bərpa edir. Həm də ədalətin, insan hüquq və azadlıqlarının, regionda daimi sülhün təmin edilməsi uğrunda vuruşur.

### Dağlıq Qarabağda heç bir referendum olmayacaq: *məqsəd Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır*

Prezident İlham Əliyev bütün yerli və xarici ölkə rəsmiləri ilə görüşlərində, müsahibə və çıxışlarında bir məsələni daim vurğulayır: Azərbaycan müstəqil ölkədir və müstəqilliyini qoruya biləcək gücə və iradəyə malikdir. "Dağlıq Qarabağ məsələsinin həlli bizim tarixi vəzifəmizdir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, biz bu məsələni elə həll etməliyik ki, Azərbaycan xalqı bundan razı olsun. Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bunu elə etməliyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun", - deyən dövlət başçısı Təhlükəsizlik Şurasının son iclasında bu məqamı kifayət qədər dəqiq və birmənalı şəkildə bəyan etmişdir. Bir dövlətin müstəqillik rəmzlərindən birincisi onun ərazi bütövlüyü və öz sərhədləri daxilində olan torpaqlarının həm əmin-amanlığının, həm də tərəqqisinin təminidir. Bu gün Azərbaycan yüksək iqtisadi, mədəni, siyasi inkişaf yolundadır.

*Ardı 4-cü səh.*

## "Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin bir hissəsini azad etdik və azad etməyə davam edirik"

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın "Figaro" qəzetinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.*



***- Cənab Prezident, birinci sualım belədir, nəyə görə Siz sentyabrın 27-də Dağlıq Qarabağa qarşı hücuma keçmisiniz və bu hərbi hücumun siyasi məqsədləri nədir?***

- Biz sentyabrın 27-də Dağlıq Qarabağa qarşı hərbi hücuma keçməmişik, Ermənistan Azərbaycana qarşı hərbi hücuma keçmişdir.

*Ardı 2-ci səh.*

## Rəcəb Tayyib ƏRDOĞAN: "Türkiyə bu günədək azərbaycanlı qardaşlarının yanında yer alıb və yer almağa davam edəcək"

"Türkiyə bu günə kimi azərbaycanlı qardaşlarının yanında yer alıb və bundan sonra da yer almağa davam edəcək". AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ədalət və İnkişaf Partiyasının Kayseridə keçirilən konqresində söyləyib.



Ermənilərin Azərbaycan torpaqlarına hücumu ilə başlayan toqquşmaların azərbaycanlıların işğal altındakı ərazilərini azad etmək mübarizəsi olduğunu vurğulayan Ərdoğan deyib: "Evlərinə bomba düşmüş Nigar qızımızı dünən axşam televizorda izlədim. Nigar qızımız gözüyaşlı dərdlərini söyləyirdi. Biz inşallah onları gözüyaşlı qoymayacağıq. İnanıram ki, azərbaycanlı qardaşlarımız bu mübarizədən zəfərlə çıxacaqlar".

Türkiyə Prezidenti xatırladıb ki, Azərbaycan torpaqları işğal edilərkən, azərbaycanlı qardaşlarımız qətlə yetirilərkən gözləri və dilləri bağlı, qulaqları kar şəkildə gözləyənlər vardı. "Həmin kəslərin bu gün etdikləri "Döyüşlər dayansın" açıqlaması riyakarlığın zirvəsidir. İki dövlət, bir millət olduğumuz Azərbaycanın işğal altındakı torpaqlarını azad etmək uğrunda mübarizəsində hər cür dəstəyi verməyə davam edəcəyik", - deyə Rəcəb Tayyib Ərdoğan bildirib.

## İlham Əliyevin növbəti siyasi-diplomatik zəfəri

### BMT Təhlükəsizlik Şurasında Azərbaycanın maraqlarına cavab verməyən bəyanatın layihəsi geri götürülüb

Qədim yurd yerimiz olan Dağlıq Qarabağın azad edilməsi üçün başlanan Vətən müharibəsi davam edir. Cəmi bir neçə həftə ərzində ordumuz cəbhənin bütün istiqamətlərində uğurlu əks-hücum əməliyyatları keçirərək işğal olunmuş ərazilərimizin bir qismindən düşməni qovub, Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsinə nəzarətimizi təmin edib.

### Danışıqlar Azərbaycanın şərtlərinin yerinə yetiriləcəyi təqdirdə mümkündür

Azərbaycan-Ermənistan münaqişəsinin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə 1994-cü ildən bəri aparılan danışıqlar məhz işğalçıya təsir göstərilməməsi səbəbindən nəticəsiz idi. O cümlədən BMT Təhlükəsizlik Şurasının 1993-cü il ərzində qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələr yerinə yetirilməmiş qalıb. Ötən dövrdə nə BMT, nə də digər təşkilatlar Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğaldan azad edilməsinə maraq göstəriblər.

Maraqlıdır ki, Ermənistanın işğalçı siyasətinə göz yuman və öz laqeydlikləri ilə bu işğala rəvac verən ayrı-ayrı beynəlxalq təşkilatlar, bəzi dövlətlər Azərbaycanın uğurlu hərbi əməliyyatları başlayandan bəri atəşin dayandırılması, problemin danışıqlar masası ətrafında həlli üçün canfəşanlıq edirlər.

*Ardı 2-ci səh.*

## Epidemiya vəziyyəti məhdudlaşdırıcı tədbirlər görməyi zəruri edir

### Virusu nəzarətolunan həddə salmaq vətəndaşların nizam-intizamı və məsuliyyətindən asılıdır




Koronavirus pandemiyası dünyanın bir nömrəli problemi olmaqda davam edir. Təhlükəli virus payız-qış mövsümünün başlaması ilə insanların yoluxma riskini daha da artırıb. Son statistikaya əsasən, hazırda dünyada COVID-19-a yoluxanların sayı 42 milyonu ötüb, 1 milyondan çox insan bu virus səbəbindən dünyasını dəyişib.

*Ardı 8-ci səh.*

## Müharibə və koronavirus Paşinyanın sonunu gətirir

### Ermənistanda xaotik vəziyyət hökm sürür

Müharibədə uğursuzluğa düçar olan Ermənistanda həm də koronavirusun yayılması sürətlənib. Son statistik rəqəmlərə əsasən, virusa yoluxanların sayı gündəlik 2,5 min nəfər civarındadır.

Ümumilikdə isə indiyədək Ermənistanda virusa yoluxanların sayı 73 mini ötüb. İnfeksiyadan ölənlərin sayı isə 1145 nəfəri keçib. Səhiyyə Nazirliyinin Xəstəliklərə Nəzarət və Profilaktika Milli Mərkəzinin Yoluxmayan xəstəliklərin qarşısının alınması şöbəsinin müdiri Romella Abovyan bildirib ki, koronavirusun yayılmasının rekord artım tempi dayanmasa, Ermənistanı "İtalyan modeli" təhlükəsi gözləyir.

*Ardı 6-cı səh.*

## İlham Əliyev danışıqlar masasına qayıtmağın yeganə yolunu göstərdi

### Azərbaycan Prezidenti Dağlıq Qarabağın gələcəyi ilə bağlı planlarını da açıqladı

Xalqımızın qəhrəmanlıq salnaməsinə şərəfli səhifələr yazılır. Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi uğurlu əməliyyatlar hər kəsdə böyük ruh yüksəkliyi yaradıb. İllərdir sülh danışıqlarından imtina edən, cəzasızlıq mühitindən yararlanaraq status-kvonun saxlanmasına çalışan bu ölkənin hərbi-siyasi rəhbərliyi indi savaşın dayandırılması üçün yalvarmadığı dövlət başçısı qalmayıb. Ancaq Ermənistan rəhbərliyinin əməlləri danışıqları mənasız edib.

### İlham Əliyevin müsahibələri Azərbaycanın haqlı mövqeyini dünyaya çatdırır

Prezident İlham Əliyev KİV-ə verdiyi müsahibələrində bu məsələyə toxunaraq bəyan edir ki, artıq vəziyyət dəyişib, satus-kvo və təmas xətti mövcud deyil. İndi Ermənistan rəhbərliyi məntiqli davranmalı və işğal edilmiş əraziləri boşaltmalıdır. Tərəflər arasında aparılan müzakirələrdə isə Azərbaycanın əsas məqsədi Ermənistan rəhbərliyinin ərazilərimizin boşaldılmasına hazır olub-olmamasını və hazır olduğu təqdirdə bunun nə vaxt baş verəcəyini müəyyən etməkdir. Yəni Azərbaycan Prezidentinin irəli sürdüyü şərtlərə əməl edilməyincə, haqq savaşımız davam edəcək.

Dünyanın ən nüfuzlu KİV-indən olan Fransanın "Figaro" və Yaponiyanın "Nikkei" qəzetlərinə müsahibəsində də Prezident İlham Əliyev bir daha dəyişməz, prinsipial mövqeyini açıq şəkildə ortaya qoydu.

Qeyd edək ki, dövlət başçısının tanınmış xarici mətbuat orqanlarına və televiziyalara verdiyi müsahibələr informasiya müharibəsi sahəsində də Azərbaycanın mövqeyini kifayət qədər gücləndirir.

*Ardı 6-cı səh.*

**Düşmənin ümumilikdə 283 tankı, 50 piyadaların döyüş maşını, özüyeriyən 20 artilleriya qurğusu, 53 tank əleyhinə vasitə, 70 "Qrad" qurğusu, 2 "Uraqan", 2 "Yars", 1 TOS, 4 "S-300" zenit-raket kompleksi, 1 döyüş təyyarəsi, 198 top, 58 minaatan, 3 "Tor" zenit-raket kompleksi, 40-a yaxın "Osa" zenit-raket kompleksi, 5 "Kub" və "Kruq" zenit-raket kompleksi, 15 pilotsuz uçuş aparatı, 2 əməliyyat-taktiki raket kompleksi - "Elbrus", 1 ballistik raket, 1 "Toçka-U" raketi, 8 radioelektron mübarizə vasitəsi, 1 komanda məntəqəsi, 2 sığınacaq, 4 dayaq məntəqəsi, 198 yük avtomobili məhv edilib. 12 minaatan, 25 qumbaraatan, piyadaların 24 döyüş maşını, 105 yük avtomaşını hərbi qənimət kimi götürülüb.**

## İlham Əliyev beynəlxalq informasiya məkanında erməni faşizmini ifşa edir

# “Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin bir hissəsini azad etdik və azad etməyə davam edirik”

*Əvvəli 1-ci səh.*

Bu hərbi hücumun ilk saatlarında bizim mülki şəxslər və hərbi qulluqçularımız arasında qurbanlarımız olmuşdur. Bu, üç ay müddətində Ermənistan tərəfindən Azərbaycana qarşı üçüncü hərbi təxribat idi. Onlar birinci dəfə bizə Qarabağ bölgəsindən uzaqda olan Ermənistan-Azərbaycan dövlət sərhədində hücum etdilər. Beynəlxalq müşahidəçilərin yekdil rəyi ondan ibarət idi ki, Ermənistan bizə qarşı hücum etmişdir. Onlar yeni əraziləri işğal etmək istəyirdilər.

Onlar bizim Ermənistanla dövlət sərhədindən bir neçə kilometr məsafədə yerləşən strateji enerji infrastrukturu üzərində nəzarəti ələ keçirmək istəyirdilər. Yəqin, sizin də bildiyiniz kimi, Trans-Adriatik boru kəməri demək olar ki, tamamlanıb. “Cənub qaz dəhlizi” təkcə Azərbaycanın deyil, həm də Avropanın enerji təhlükəsizliyi layihəsidir. Hesab edirik ki, Ermənistanın məqsədlərindən biri bu boru kəməri üzərində nəzarəti ələ keçirmək və bizi, ola bilsin Avropa istehlakçılarını şantaj etmək idi. Onlara ciddi cavab verildi. Biz onların geriyə çəkilməsinə nail olduq. Lakin əfsuslar olsun ki, növbəti ay - avqust ayında onlar azərbaycanlılara qarşı terror aktları törətməyi planlaşdıran diversiya qrupunu göndərdilər. Bu sabotaj qrupunun başçısı bizim hərbi qulluqçular tərəfindən saxlanılmışdır və o, ifadə verir. Beləliklə, bu, danışıqları pozmaq və Azərbaycana hücum etmək üçün qəsdən edilən bir cəhddir. Bu hücumu etməklə Ermənistanın güddüyü siyasi məqsədlərə gəlincə, bunlar status-kvonun dəyişməz olaraq qalmasından, bu eskalasiyaya görə günahı bizim üstümüzə atmaqdan, danışıqların tamamilə pozulmasından, üçüncü ölkələri münaqişəyə cəlb etməkdən və münaqişəni beynəlmiləlləşdirməkdən ibarət idi. Biz onlara yalnız adekvat cavab verdik. Bunun nəticəsində biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin bir hissəsini azad etdik və azad etməyə davam edirik.

***- Azərbaycanın nəinki təkcə boru kəmərlərinin habı, eyni zamanda, internet fiberoptik xətlərinin habı olmaq missiyası var. Eşitmişəm adı Neqsol olan Azərbaycan şirkəti Avropa və Mərkəzi Asiya arasında internet üzrə bağlantı rolunu oynamaq istəyir. Siz Azərbaycan üzərindən Avropadan Mərkəzi Asiyaya birbaşa bağlantını nəzərdə tutan bu layihənin hələ də mümkün olduğunu və ya qeyri-mümkün olduğunu düşünürsünüz?***

- Biz sizin də doğru qeyd etdiyiniz kimi, nəinki enerji üzrə, eyni zamanda daşımalar üzrə artıq regional haba çevrilmişik. Hazırda biz Xəzər dənizinin digər tərəfində - şərq hissəsindəki və Avropadakı tərəfdaşlarımıza mühüm nəqliyyat şəbəkəsini təmin edirik. Bizim infrastrukturaya yatırdığımız sərmayələr nəqliyyat üzrə çox geniş beynəlxalq əməkdaşlıq formatının yaradılması ilə nəticələnmişdir. Əlbəttə ki, hər şey enerji infrastrukturu ilə başladı, Azərbaycandan keçən neft və qaz kəmərləri artıq çox mühüm enerji təhlükəsizliyi mənbəyinə çevrilib. Neft kəmərlərinə gəlincə, biz artıq Mərkəzi Asiyadan nefti Azərbaycan ərazisindən Avropaya nəql edirik.

İnternet bağlantısına gəldikdə isə biz İT sektoruna böyük sərmayələr yatırırıq. Azərbaycanda internetdən istifadə təqribən 80 faizdir, yəni əhalinin 80 faizi internet istifadəçisidir. Bizim bu sahədə çox inkişaf etmiş şirkətlərimiz, özəl şirkətlərimiz var. Odur ki, sizin qeyd etdiyiniz şirkət, mənim bildiyimə görə, öz planı olan və regiona investisiya yatıran özəl şirkətdir. Düşünürəm ki, onların hədəfi kommersiya cəhətdən gəlirli layihələri həyata keçirməkdir. Əlbəttə ki, coğrafi və infrastruktur nöqteyi-nəzərdən Azərbaycan bu gün çox vacib regional tərəfdir.

***- Növbəti sualım belədir. Bir aydan çox davam edən toqquşmalardan sonra cəbhədə hazırda həyata keçirilən hərbi əməliyyatların necə olduğunu bizə təsvir edə bilərsinizmi?***

- Toqquşmalar bir aydan azdır ki, davam edir və uğurlu əks-hücum nəticəsində Azərbaycan işğal olunmuş əraziləri, şəhər və kəndlərin bir hissəsini azad edə bilmişdir. Biz hər gün azad edilmiş yeni şəhər və kəndlər haqqında məlumat veririk. Bu, asan deyil, çünki otuzillik işğal müddətində Ermənistan işğal edilmiş ərazilərdə çox möhkəm istehkamlar qurmuşdur. Odur ki, təmas xəttini keçmək asan deyildi. Lakin biz bunu etdik, müxtəlif istiqamətlərdə - şimalda, cənubda. Bu, Azərbaycan Ordusunun yüksək səviyyəli bacarığını və potensialını nümayiş etdirir. Biz Ermənistanı döyüş meydanında məğlub edirik və onlar bizdən qaçmaq məcburiyyətindədirlər. Beləliklə, biz artıq İranla beynəlxalq sərhədimizi bərpa etmişik. Bu sərhədin 130 kilometrdən çox hissəsi işğal altında idi. Beləliklə, biz döyüş meydanında çoxlu işlər görmüşük və bu, davam edir. Ermənistan atəşkəsi iki dəfə pozmuşdur. Əgər onlar atəşkəsi pozmasaydılar, - onlar birinci dəfə oktyabrın 10-da atəşkəsi kobud şəkildə pozaraq gecə vaxtı Gəncə şəhərinə ballistik raket atıblar və ikinci dəfə bunu oktyabrın 17-də ediblər, - bu gün toqquşmalar dayanardı, siyasi həllə üstünlük verilmiş olardı. Bu, bizim mövqeyimizdir. Onlar dayanmasa, biz torpaqlarımızı azad etməyə davam edəcəyik.



***- Onlar Gəncəni ona görə bombardman ediblər ki, Gəncədə Türkiyənin bir neçə F-16 qırıcı təyyarəsi var idi və bu F-16 qırıcı təyyarələrdən biri erməni təyyarəsini vurmuşdur. Onlar buna görə Gəncəni bombardman etdiyini deyirlər.***

- Bu, feyk xəbərdir. Hesab edirəm ki, indi hər kəs bunun Ermənistan tərəfindən feyk xəbər olduğunu başa düşür. Türkiyənin F-16 qırıcı təyyarələri ona görə buradadırlar ki, toqquşmalar başlamadan öncə onlar birgə hərbi təlimdə iştirak edirdilər və onlar yerdədirlər, onlar səmada deyillər. Ermənistanın Su-25 təyyarəsi dağa çırpılmışdır və onlar bunu guya Türkiyə F-16 qırıcı təyyarəsi tərəfindən vurulduğu kimi qələmə verməyə çalışırdılar. Lakin bu, münaqişənin ilk günlərində, sentyabrda baş vermişdir. Lakin onlar oktyabrın 10-da ballistik raketlərlə Gəncəyə hücum ediblər. Bu, birincisi. İkincisi, ballistik raket Ermənistanın ərazisindən buraxılmışdır və böyük ölkələr buna asanlıqla nəzarət edə bilərlər. Onlar raketin haradan buraxıldığını və raketin hədəfinin nədən ibarət olduğunu bilirlər. Raketin hədəfi mülki şəxslərə zərbə endirmək idi. Onlar Gəncə şəhərində insanların yaşadığı ərazini vurublar. Beləliklə, bu, beynəlxalq terror əməli idi, bu, Ermənistanın hərbi cinayət siyasətinin daha bir təzahürü idi. Gəncəyə edilən bu hücumlara haqq qazandırmaq olmaz və onlar buna görə məsuliyyət daşıyacaqlar.

***- Türkiyənin müdaxiləsini və Türkiyədən müxalif Suriya döyüşçülərini qəbul etməklə Siz yerli bir münaqişənin regional bir müharibəyə çevrilməsindən qorxmursunuz?***

- Əvvəla, Türkiyə əsla münaqişəyə cəlb edilməyib. Türkiyənin iştirakına dair heç bir dənə də sübut yoxdur. Ermənistanın Azərbaycana qarşı hücum həyata keçirdiyi ilk saatlardan Türkiyə, Türkiyənin Prezidenti və digər yüksək səviyyəli rəsmilər Azərbaycana güclü siyasi dəstəyi, beynəlxalq hüququn norma və prinsiplərinə dəstəyi, BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinin icrasına dəstəyi ifadə ediblər və ifadə etməyə davam edirlər. Deməli, bu, birincisi. İkincisi, Azərbaycan tərəfində heç bir əcnəbi döyüşçü yoxdur. Bu, başqa bir feyk xəbərdir. Bu, bəzi ölkələrin bəzi rəsmiləri tərəfindən yayılmışdır. Lakin bu vaxtadək, toqquşmalar başlayandan sonra iyirmi gündən çox bir müddətdə bizə nə Fransadan, nə də Rusiyadan heç bir dəlil təqdim olunmamışdır. Çünki bu bəyanatı Fransa və Rusiya rəsmiləri vermişdir və biz onlardan sübut tələb etmişdik. Biz dəlilləri tələb etmişdik. Yalnız sözlər. Heç bir sübut yoxdur, heç bir dəlil yoxdur. Digər bir məsələ ondan ibarətdir ki, bizə birgə vuruşacaq əcnəbilər lazım deyil, çünki bizim 100 min nəfərdən ibarət nizami ordumuz var. Bizim müasir avadanlığımız var, bizim 30 ildir ki, işğaldan əziyyət çəkən motivasiyalı insanlarımız var. Biz hətta tam səfərbərlik belə elan etməmişik. Bizə döyüşdə əlavə insan lazım olsa, biz daha çoxlarını çağırarıq. Odur ki, bu, Azərbaycanı təcavüzkar kimi təqdim etmək üçün daha bir cəhddir və həmçinin onlara döyüş meydanında qalib gələn Azərbaycan Ordusunun potensialını azaltmaq üçün Ermənistanın cəhdidir.

***- Cənab Prezident, deməli ki, Sizin çox müasir avadanlığınız var, bu, doğrudur. Sizin bütün növ dronlarınız var, bəziləri Türkiyədən gəlir, həmçinin effektiv kamikadze dronları İsraildən, ərəb ölkələrindən gəlir. Beləliklə, İsrailin hərbi avadanlığının yardımı Sizin üçün çox önəmlidirmi və onlar Sizə hərbi irəliləyişi əldə etməyə imkan verirlərmi?***

- Biz hərbi avadanlığı bir çox ölkələrdən alırıq. Bizə hərbi avadanlığı ən çox təchiz edən Türkiyə və İsrail deyil. Bu, Rusiyadır. Lakin Ermənistandan fərqli olaraq, biz Rusiyadan aldığımız silahlara görə pul ödəyirik. Ermənistan Rusiyadan silahları pulsuz əldə edir. Biz, həmçinin İrandan, Ukraynadan, Belarusdan silah alırıq. Əlbəttə ki, bizim bu gün ordumuza ərazi bütövlüyümüzü bərpa etməyə kömək edən müasir silahları almaq imkanımız var. Bizim ərazi bütövlüyümüz öz tərəfimizdən bərpa olunur. Təbii ki, bizim regionda istənilən ölkə silah alır. Dünyada heç də bütün ölkələr özlərini 100 faiz hərbi avadanlıqla təchiz edə bilmir. Beləliklə, burada qəribə olan bir şey yoxdur. Əlbəttə ki, biz silahlara görə ödəniş edirik, biz yaxşı silahları alırıq və onlar bizə yerində kömək edir. Lakin ərazilər dronlar vasitəsilə işğaldan azad edilmir. Ərazilər əsgərlər, orada öz vəzifəsini yerinə yetirən insanlar tərəfindən azad edilir.

***- İran hərbi əməliyyatlar zamanı döyüşlərin sərhəddə keçirilməsi ilə bağlı şikayət etmişdir. Bu mübahisəni İranla həll etmisinizmi, İran rəhbərləri ilə danışmısınızmı?***

- Bəli, biz bunu etmişik. Mənim bildiyimə görə İranın rəhbərləri, həm də Ermənistan tərəfi ilə danışmışlar. Çünki toqquşmalar İranla sərhəd olan Araz çayının yaxınlığında gedirdi və təsadüfən silahların bəziləri sərhədi keçmişdir. Lakin bu gün biz Azərbaycan-İran sərhədini erməni işğalçılarından tamamilə təmizlədiyimizi elan etdik. Buna görə orada artıq heç bir toqquşmalar baş vermir və Araz çayının o biri tərəfində - İranda olan qardaşlarımız üçün artıq heç bir narahatlıq olmayacaq.

***- Bu müharibəni durdurmaq üçün mümkün ən yaxşı vasitəçi kimdir? Bu, Rusiyadırmı? Mümkün ən yaxşı vasitəçi Rusiyadırmı?***

- Bizim üç vasitəçimiz var. ATƏT onlara mandat verib. Rusiya, Fransa, Amerika Birləşmiş Ştatları. Onlar 28 ildir ki, heç bir nəticə olmadan vasitəçilik etməyə və tərəflərə həll yolunu tapmağa kömək etməyə çalışırlar. Bu üç ölkə, eyni zamanda BMT Təhlükəsizlik Şurasının üzvləridir, daimi üzvləridir. Bu üç ölkə mənim istinad etdiyim və erməni qoşunlarının çıxarılmasını tələb edən həmin qətnamələri qəbul etmişdir. Lakin əfsuslar olsun ki, onlar işğal olunmuş əraziləri boşaltmaq və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl etmək üçün Ermənistana kifayət qədər beynəlxalq təzyiq göstərməyiblər. Buna görə Ermənistanın hərbi hücumundan sonra biz özümüzü müdafiə etməli idik və ədaləti güc yolu ilə bərpa etməli idik. Biz bunu da uğurla edirik.

Bu 3 vasitəçinin hər biri mühümdür. Mən müşahidə edirəm, görürəm və bilirəm ki, Dağlıq Qarabağ məsələsində onların çox nadir yekdil yanaşmaları olur. Bu, bəlkə də onların maraqlarının üst-üstə düşdüyü yeganə məsələdir.

***- Cənab Prezident, Siz hansı torpağı geri almaq istəyirsiniz ki, ondan sonra bu müharibəyə son qoymağa hazır olasınız?***

- Biz bu gün dayanmağa hazırıq. Mən bunu oktyabrın 10-dan - Moskvada hər iki tərəf atəşkəslə bağlı razılığa gələndən bəri deyirdim. Mən demişdim ki, problemin həllinin hərbi hissəsi nə qədər tez qurtarsa, bir o qədər yaxşıdır. Biz danışıqlar masasına keçmək istəyirik. Lakin əfsuslar olsun ki, Ermənistan atəşkəsi kobud şəkildə pozdu və Gəncəyə hücum etdi. Oktyabrın 17-də onlar növbəti atəşkəs qüvvəyə minəndən 2 dəqiqə sonra onu pozdular. Ona görə də əgər onlar bu gün dayansalar, biz dayanarıq və qalan işlər diplomatlar tərəfindən görülər. Əgər onlar dayanmasalar, biz işğal edilmiş bütün əraziləri azad etmək üçün sona qədər gedəcəyik.

***- Beləliklə, bu, münaqişədən çıxmaq üçün Sizin planınızdır, Azərbaycanın planıdır.***

- Bəli. Əgər onlar indi dayansalar və konstruktiv davransalar, əgər onlar Fransa, Rusiya və ABŞ tərəfindən işlənib hazırlanmış və Azərbaycanın sadiq olduğu əsas prinsiplərə açıq şəkildə sadiq olsalar, onda əlbəttə, hər şey dayanar və biz danışıqlar masasına geri qayıdarıq. Yeri gəlmişkən, mən 17 ildir ki, bu prosesin içindəyəm. Mən Ermənistanın iki əvvəlki prezidenti ilə işləmişəm və biz böyük olmasa da, irəliləyiş əldə etmişdik. Biz mütəmadi olaraq görüşürdük. Moskvada, Parisdə, Vaşinqtonda mütəmadi görüşlər olurdu. Lakin Paşinyan hakimiyyətə gələndən sonra o, təkcə bəyanatları ilə deyil, həm də hərbi təxribatları ilə danışıqlar prosesini pozmaq üçün faktiki olaraq hər şeyi etdi. Artıq hakimiyyətə gələndən 2 il və daha artıq müddətdə proses yoxdur. Əlbəttə, mən düşünürəm ki, siyasi həll mümkündür. Lakin Ermənistan hökuməti başa düşməlidir ki, indi onlar diktə etmək vəziyyətində deyillər. Çünki status-kvo artıq mövcud deyil, təmas xətti artıq mövcud deyil. Biz yerində yeni reallıq yaratdıq və onlar bunu nəzərə almalıdırlar.

***- Sizin Qarabağın gələcəyi ilə bağlı baxışınız necədir?***

- Mən bunu dəfələrlə açıq şəkildə ifadə etmişəm və indi sizə deyə bilərəm, həmçinin mən vasitəçilər, Minsk qrupunun həmsədrləri vasitəsilə əvvəlki Ermənistan hökumətinə bizim gələcəyi necə görməyimizlə bağlı müəyyən mesajlar vermişəm. Biz Qarabağı insanların ləyaqət və sülh içində, azərbaycanlı və erməni icmalarının yanaşı yaşadığı Azərbaycanın çiçəklənən, təhlükəsiz ərazisi kimi, bizim Azərbaycanın bütün digər yerlərində etdiyimiz kimi, inkişaf etdirməyi planlaşdırdığımız ərazi kimi görürük. Sizə deyə bilərəm ki, bizim çox əhəmiyyətli iqtisadi nailiyyətlərimiz var. Bizdə yoxsulluq səviyyəsi çox aşağıdır, təxminən 5 faizdir. Ermənistanda bu, 50 faizə yaxındır. Həmçinin bizdə işsizlik səviyyəsi çox aşağıdır. Pandemiyadan əvvəl bu, 5 faizə yaxın idi, indi 7 faizdir. Lakin bu amilin geniş vüsət aldığı Dağlıq Qarabağla müqayisədə fərq gecə ilə gündüz qədərdir. Beləliklə, biz orada yaşayan ermənilər və oraya qayıdacaq azərbaycanlılar üçün daha yaxşı həyat təmin edə bilərik. Mən əminəm ki, iki millət, iki xalq barışacaq. Çünki XXI əsrdə özünü təcrid etmək, etnik təmizləmə aparmaq və de-fakto vəziyyəti ayrılmağa çevirməyə çalışmaq mümkün deyil. Bu, mümkün deyil. Ermənistan da daxil olmaqla indiyədək heç kim “Dağlıq Qarabağ respublikası”nı tanımayıb. Əminəm ki, heç kim onu tanımayacaq. Ona görə də Qarabağın gələcəyi üçün, təkcə Dağlıq Qarabağ üçün deyil, bütün Qarabağ üçün, - bu, Azərbaycanın böyük regionudur, - ən yaxşı yol sülh şəraitində, harmoniyada yaşamaq və yenidən yaxşı qonşu olmağa çalışmaqdır - ermənilər və azərbaycanlılar. Mənim planım bundan ibarətdir.

***- Mən xatırlayıram ki, 1990-cı illərin əvvəllərində Bakıda antierməni poqromları var idi. Ona görə də ermənilər inanmırlar, deyirlər ki, yaşaya bilməzlər, Azərbaycan ərazisində yaşamaq üçün, həyatları üçün qorxurlar.***

- Münaqişə Ermənistandakı millətçilər tərəfindən maliyyələşdirilən Dağlıq Qarabağdakı separatçılar Azərbaycandan ayrılmaq üçün plana start verəndən sonra başladı. Sovet İttifaqı vaxtında onlar bunu qanuni baxımdan edə bilmirdilər. Ona görə də onlar Dağlıq Qarabağ ərazisində və Ermənistan ərazisində poqromlara başladılar. Müharibə və toqquşmaların ilk qurbanları Dağlıq Qarabağdakı azərbaycanlılar oldu. Dağlıq Qarabağda, əsasən Şuşada, eləcə də paytaxt Xankəndidə yaşayan 40 min azərbaycanlı tamamilə etnik təmizləməyə məruz qaldı. Sonra Ermənistanda yaşayan 250 min azərbaycanlı, - onların çoxu qətlə yetirildi, - hamısı etnik təmizləməyə məruz qaldı, qovuldu. Həmin toqquşmalar hər yerdə - İrəvanda, Ermənistanın başqa şəhərlərində, Dağlıq Qarabağda baş verirdi. Ona görə də bu, insanların barışa bilməməsi üçün bir növ səbəb olmamalıdır. Avropada Fransa və Almaniya arasında neçə dəfə müharibə baş verib? Neçə dəfə digər ölkələr müharibə edib? 30 və ya 40 milyon adamın ölümünə səbəb olmuş İkinci Dünya müharibəsi var idi. Lakin 20 ildən sonra Qərbi Almaniya və Sovet İttifaqı arasında yaxşı münasibətlər quruldu və indi heç kim bunu xatırlamır. Sivil dünyada bu, belə olmalıdır. Problem ondadır ki, Ermənistanda nifrət aşılanır. Onlar Türkiyəyə və Azərbaycana qarşı tarixi nifrət aşılayırlar. Ermənistanın sabiq prezidenti Köçəryan açıq şəkildə bəyan etdi ki, azərbaycanlılar və ermənilər birlikdə yaşaya bilməzlər. Lakin baxın, onlar məsələn, Gürcüstanda necə birlikdə yaşayırlar. Gürcüstanın bəzi kəndlərində azərbaycanlılar və ermənilər yanaşı yaşayırlar. Rusiyada da eyni şəkildə. Azərbaycanda minlərlə erməni yaşayır. Niyə bu, Dağlıq Qarabağda mümkün deyil? Düşünürəm ki, müharibənin vurduğu yaraları siyasi müdriklik, siyasi iradə ilə sağaltmaq lazımdır. Münaqişənin bu aktiv, qaynar fazası dayanandan sonra hər iki tərəfin bu yaraları sağaltmaq məqsədilə hər şeyi etmək üçün böyük töhfə verməsinə ehtiyac var.

***- Bu, mənim sonuncu sualımdır. Cənab Prezident, Siz qorxmursunuz ki, bir müddətdən sonra Türkiyə Prezidenti Ərdoğan Şimali Kipr məsələsinə diqqətini cəmləmək üçün öz dəstəyini və Qafqazdakı siyasətini dayandırar?***

-Türkiyə və Azərbaycan qardaş ölkələrdir və bizim qardaşlığımız bir çox vəziyyətlərdə sınaqdan keçib. Bu konkret məsələdə Türkiyə Prezidenti Azərbaycana güclü dəstəyini açıq şəkildə ifadə etdi. O dedi ki, Azərbaycan tək deyil, Türkiyə onun yanındadır. Beləliklə, bu, çox güclü siyasi dəstəkdir və biz buna görə çox minnətdarıq. Bu, birincisi. İkincisi, demək istəyirəm ki, biz döyüş meydanında nə ediriksə özümüz edirik. Bəli, müasir silahlarla, müasir avadanlıqla, lakin Vətənimizi azad edən Azərbaycan əsgərləri və zabitləridir. Bizim Türkiyə ilə münasibətimizin böyük tarixi və daha da parlaq gələcəyi var. Zənnimcə, Türkiyənin Cənubi Qafqazın hər üç ölkəsi - Azərbaycan, Gürcüstan və Ermənistanla sərhədi olan dünyada yeganə ölkə kimi bu prosesə cəlb edilmək üçün legitim hüququ var. Çünki qonşu olaraq, region üçün sabitliyi, təhlükəsizliyi təmin edə bilən və təmin edən, gündəliyi çox aydın ölkə olaraq o, beynəlxalq hüququ müdafiə edir. Beynəlxalq hüquq deyir ki, bizim ərazilərimiz işğal altındadır. Beləliklə, o, nəyi səhv edir? O, sadəcə olaraq beynəlxalq hüququn təmin olunmasını tələb edir. Ermənistan bunu etmək istəmir. Ermənistan Livandan erməniləri qanunsuz köçürməklə, azərbaycanlılara qarşı hərbi əməliyyatlarla, bizim tarixi və dini irsimizi dağıtmaqla 30 ildən çoxdur ki, torpaqlarımızı işğal altında saxlamaq istəyir. Türkiyənin rolu çox müsbətdir. Ermənistanla müharibə dayanandan və siyasi nizamlama həyata keçiriləndən sonra əminəm ki, Türkiyənin rolu çox mühüm və müsbət olacaq.

***-Beləliklə, Siz düşünmürsünüz ki, Türkiyənin Mərkəzi Asiyanın türk xalqları ilə birbaşa əlaqəyə sahib olmaq üçün Ermənistanı silmək planı var?***

- Xeyr, bu, yenə də erməni fobiyaları və erməni təxribatlarıdır. Mənim Paşinyan hakimiyyətə gəlməzdən əvvəl Ermənistan liderləri ilə müzakirə etdiyim sülhməramlı planda kommunikasiyalara açıq-aydın istinad var idi. Sülh sazişi imzalanandan sonra bütün kommunikasiyalar açılır, o cümlədən Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında. Beləliklə, Türkiyənin, Azərbaycanın və Mərkəzi Asiyanın quru əlaqəsi olacaq. Bu gün bizdə bu, yoxdur. Lakin Türkiyənin həmin regionla Azərbaycan vasitəsilə əlaqəsi var. Biz bir neçə il bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunu tikdik. Beləliklə, Türkiyə malları Gürcüstan, Azərbaycan və Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyaya və əks istiqamətdə daşınır. Lakin Türkiyədən Naxçıvana, Ermənistana, Azərbaycana yol daha qısadır. Ona görə də məsələ onda deyil ki, Türkiyənin belə əlaqəsi yoxdur və dediyiniz kimi, kimsə fikirləşir ki, onlar buna sahib olmaq üçün Ermənistanı silmək istəyirlər. Onlar buna sahibdirlər, biz buna sahibik. Biz daha birinə sahib olacağıq. Lakin bu, yenə də sülh planının bir hissəsidir, bütün kommunikasiyalar açılacaq. Düşünürəm ki, Ermənistan hökuməti əhalini Türkiyə ilə qorxutmağa çalışmamalı, türk və Azərbaycan xalqlarına qarşı nifrəti dayandırmalıdır.

***- Qafqaz regionunda digər xristian ölkəsi olan Gürcüstanla münasibətləriniz necədir?***

- Bəli, bizim Gürcüstanla münasibətlərimiz mükəmməldir. Biz bir-birimizi strateji tərəfdaş adlandırırıq. Azərbaycan Gürcüstanda birinci və ya ikinci ən böyük investor, yaxud birinci və ya ikinci ən böyük vergi ödəyicisidir. Mən birinci və ikinci deyirəm, çünki bir il Türkiyə olur, bir il Azərbaycan. Bizim Türkiyə, Gürcüstan və Azərbaycan arasında üçtərəfli əməkdaşlıq formatımız var. Bizim prezidentlər səviyyəsində sammitlərimiz, nazirlər səviyyəsində, o cümlədən müdafiə, xarici işlər və iqtisadiyyat nazirləri səviyyəsində görüşlərimiz olub. Bizim bütün əsas nəqliyyat və enerji kommunikasiyamız Gürcüstan ərazisindən keçir. Gürcüstanda böyük azərbaycanlı icmamız var, 300 minə yaxın adam. Ona görə də münasibətlər mükəmməldir və düşünürəm ki, Türkiyə ilə münasibətlərimiz kimi, Gürcüstanla münasibətlərimiz də mehriban qonşuluğun yaxşı nümunəsi ola bilər. Yeri gəlmişkən, Gürcüstanın xristian, Azərbaycanın müsəlman ölkəsi olması faktının heç bir fərqi yoxdur. Biz bu regiona bu nöqteyi-nəzərdən baxmırıq.

***- Layihələri icra edərkən Siz dini nəzərə almırsınız?***

- Xeyr, bizim Konstitusiyamıza əsasən din dövlətdən ayrıdır. Azərbaycan dünyəvi ölkədir. Biz öz dinimizə hörmət edirik. Biz Azərbaycanda yaşayan bütün digər millətlərin dinlərinə hörmət edirik. Düşünürəm ki, Azərbaycanda dini harmoniyanın ən yaxşı göstəricisi Roma Katolik Kilsəsinin başçısı, Zati-müqəddəsləri Papa Fransiskin sözləri ola bilər. Bir neçə il bundan əvvəl Bakıda olanda o, ictimaiyyətə bəyanatla çıxış edərək Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqdakı rolunu yüksək qiymətləndirdi. Azərbaycanda müxtəlif dinlərin bütün nümayəndələri, o cümlədən ermənilər sülh və harmoniya şəraitində yaşayırlar. Bakının mərkəzində bizim tərəfimizdən bərpa olunmuş və hökumətimiz tərəfindən qorunan erməni kilsəsi var. Bizim işğal olunmuş torpaqlardakı məscidlərimiz isə dağıdılıb. Ermənilər bizim məscidlərimizdə donuz saxlayırlar. Bu yaxınlarda internetdə videolar var idi. İnternetdə Zəngilan rayonunda bir kəndin azad edilməsindən sonra donuzların məscidimizdə necə gəzdiyini göstərən görüntülər var idi. Azərbaycan tolerant, dünyəvi ölkədir və gələcəkdə də belə olmağa davam edəcək.

***- Təşəkkür edirəm, çox yaxşı müsahibə idi, cənab Prezident.***

- Təşəkkür edirəm.

# İlham Əliyevin növbəti siyasi-diplomatik zəfəri

*Əvvəli 1-ci səh.*

Lakin Azərbaycanın şərtləri və tələbləri var və bunu Prezident İlham Əliyev xalqa müraciətlərində və müsahibələrində bəyan edib. Bildirilib ki, danışıqlar Azərbaycanın şərtlərinin yerinə yetiriləcəyi təqdirdə mümkündür. Bəli, bu gün döyüş meydanında olduğu kimi, danışıqların keçirilməsinə dair şərtləri də Azərbaycan diktə edir.

## Ermənistana daha bir zərbə BMT-də vuruldu

Bu günlərdə BMT Təhlükəsizlik Şurasının (TŞ) Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar keçirilmiş qapalı iclasından sonra ATƏT-in Minsk qrupunun həmsədr ölkələri olan Rusiya, ABŞ və Fransa tərəfindən TŞ prezidentinin bəyanatının layihəsi hazırlanmış və razılaşdırılması üçün üzv ölkələr arasında yayılmışdı. Lakin bəyanatın layihəsində TŞ-nin 1993-cü ildə qəbul etdiyi və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını tələb edən 822, 853, 874 və 884 saylı qətnamələrə istinad yer almamışdı.

Buna görə də TŞ-də təmsil olunan Qoşulmama Hərəkatına (QH) üzv olan 7 ölkə - İndoneziya, Niger, Vyetnam, Tunis, Cənubi Afrika, Dominikan Respublikası, Sent Vinsent və Qrenadin - layihəyə TŞ qətnamələrinə istinadın daxil edilməsini təklif edib. Lakin həmsədr ölkələr bunun qəbuledilməz olduğunu bildiriblər. Həmsədr ölkələr tərəfindən bəyanatın iki dəfə sükut proseduru vasitəsilə qəbuluna cəhd göstərilməsinə baxmayaraq, QH ölkələri prinsipial mövqe nümayiş etdirərək TŞ qətnamələrinə istinadın yer almasında təkid ediblər. Bundan sonra həmsədr ölkələr rüsvayçılıqla bəyanat layihəsini geri çəkməyə məcbur olublar.

Xatırladaq ki, son 25 ildə ilk dəfə idi ki, Qarabağ məsələsi TŞ-də müzakirə olunurdu. Həmsədrlər tərəfindən hazırlanmış bəyanat layihəsi isə sırf onların üslubunda idi. Atəşkəsə nail olunması, danışıqların aparılması kimi şablon, çeynənmiş fikirlər. Dişsiz, məzmunsuz, ünvansız, işğalçı və işğala məruz qalan ölkə arasında fərqin qoyulmadığı bir mətn. Layihə ilə tanışlıq göstərir ki, həmsədr ölkələr öz xislətlərinə sadiq qalaraq erməni təəssübkeşliyindən əl çəkə bilmirlər. TŞ qətnamələrinə bu münasibət ilə onlar bir daha özlərini ifşa etdilər. Həmsədrlər ədalətli, bitərəf deyillər, onlar açıq-aşkar işğalçının tərəfini tuturlar.

## TŞ mənasız bir quruma çevrilib

Bəs nəyə görə həmsədr ölkələr TŞ-nin 1993-cü ildə qəbul olunmuş qətnamələrindən bu qədər qorxurlar? TŞ qətnamələrinin adı çəkiləndə nəyə görə narahat olurlar? Çünki həmin qətnamələrdə Ermənistan qoşunlarının işğal olunmuş Azərbaycan torpaqlarını dərhal və qeyd-şərtsiz tərk etmələrinə dair tələblər yer alıb. TŞ-nin 884 saylı qətnaməsində “822, 853, 874 saylı qətnamələrin icra edilməsi üçün təcili addımlara dair yenilənmiş vaxt cədvəli”nə uyğun olaraq işğalçı qoşunların Azərbaycanın işğal edilmiş digər ərazilərindən çıxarılması tələb edilir.

Həmin vaxt bu qətnamələrin qəbuluna indi Minsk qrupunun həmsədri olan dövlətlər də müsbət münasibət bildiriblər. Amma indi hazırlanan layihədə həmin qətnamələrə istinad edilməməsi özünün səsinə, imzasına hörmət etməmək, öz-özünü təhqir etmək deməkdir. Münaqişənin indiyə qədər həll olunmamasının günahkarı da Ermənistan və Minsk qrupunun həmsədr ölkələridir. Son baş verənlərdə həmsədrlərin Azərbaycan cəmiyyətində niyə qıcıq və qəzəb yaratdığını aydın surətdə izah edir.

Görünən başqa bir reallıq odur ki, TŞ-nin özü də tamamilə mənasız bir quruma çevrilib. Dünyada onun kimi antidemokratik bir qurum yoxdur. Çünki TŞ daimi üzvlərinin girovuna çevrilib. Daimi üzvləri isə ancaq çirkin siyasi konyuktura ilə məşğul olurlar. Nəyə görə Türkiyə, Pakistan, İndoneziya, Braziliya, Cənubi Afrika kimi ölkələr TŞ-nin daimi üzvü olmalıdır? Nəyə görə TŞ-nin daimi üzvləri arasında Afrikadan, Cənubi Amerikadan bir dənə ölkə yoxdur? Dünyanın taleyini nə vaxta qədər müstəmləkə keçmişinə malik, neokolonist düşüncəli ölkələr həll etməlidir?

## Azərbaycan Prezidentinin uğurlu xarici siyasətinin nəticəsi

Qeyd etdiyimiz kimi, Azərbaycanın maraqlarına uyğun olmayan bəyanat layihəsinin qəbul edilməməsində QH-yə üzv olan ölkələrin tarixi rolu olub. Onlar ədaləti, beynəlxalq hüququ dəstəkləməklə QH-nin prinsiplərinə, dəyərlərinə sadiq qaldıqlarını nümayiş etdirdilər. Bu həm də QH-nin bir daha beynəlxalq münasibətlər sistemində ciddi faktor olduğunu göstərdi.

Bəzən bir sıra müxalifət nümayəndələri “QH-yə qoşulmaq Azərbaycanın nəyinə lazımdır”, “Nəyə görə başqa ölkələrə humanitar və maliyyə yardımları edilir” kimi yanlış mühakimələr yürüdürdülər. Amma bu gün hər kəs gördü ki, Prezident İlham Əliyevin xarici siyasət xətti zərgər dəqiqliyi ilə ölçülüb-biçilib və uzunmüddətli hədəflərə hesablanıb. Azərbaycan qısa müddət ərzində qazandığı nüfuz və inama görə QH-nin sədri seçilib. Prezident İlham Əliyev QH ölkələri adından koronavirusa qarşı BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması təşəbbüsü ilə çıxış edib ki, dünyanın 130-dan çox ölkəsi bu təşəbbüsü dəstəkləyib. Azərbaycan yalnız COVID-19-la bağlı 30-dan çox ölkəyə maliyyə və humanitar yardımlar göstərib. Buna görə BMT TŞ-də ədalətsiz bəyanatın qəbul edilməməsi və QH-yə üzv ölkələrin dəstəyi Prezident İlham Əliyevin növbəti diplomatik qələbəsidir.

***Rəşad CƏFƏRLİ, “Azərbaycan”***

◆ Prezidentə yazırlar



# Bu haqlı mübarizədə qalib gələcəyimizə bütün varlığımızla inanırıq, çünki bizim Sizin kimi qüdrətli və müdrik Prezidentimiz var

Prezident, Ali Baş Komandan İlham Əliyevə vətəndaşlarımızdan, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyə və digər ölkələrin vətəndaşlarından məktublar gəlməkdə davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.

Türkiyənin Şanlı Urfa şəhərindən **Etem Bulut yazır:** "Möhtərəm cənab Prezident, Sizi ölkəmin bütün vətəndaşları adından salamlayır, qazandığınız uğurlara görə təbrik edir, şəhidlərinizə görə başsağlığı verirəm. Allah köməyiniz, qılıncınız düşmənə qarşı kəsərli olsun. İnşallah, sizlərlə bağlı xoş dualarımız qəbul olunar. Qəlbimiz sizlərlə - can Azərbaycanla bir yerdə vurur və daim Sizin yanınızdayıq. Mən Şanlı Urfada yaşayıram, sənətkaram. Özüm və övladlarım daim əmrinizə hazırdır. Sizlərdən Azərbaycanın tam qələbəsi ilə bağlı səbirsizliklə xəbərlər gözləyirik. O xəbərlə təkcə Azərbaycan deyil, bütün Türkiyə də xoşbəxt, məsud olacaq. Rəbbim yolunuzu açıq etsin, əsgərlərimizi qorusun, ayaqlarına daş belə dəyməsin və düşmənlərimizin hiylələrini pozsun! Sizi çox sevirik, Azərbaycanı sevirik, Qarabağ bizimdir!"

Ukrayna Makeevka şəhərindən **Qəribşah Feyzullayev** yazır: "Hörmətli cənab Prezident, Azərbaycan xalqına və bütün dünyaya çatdırdığınız şad xəbərlərə görə Sizə minnətdarıq. Allah Sizə cansağlığı, uzun ömür versin. Azərbaycan xalqının rifahı naminə yorulmaz fəaliyyətinizdə uğurlar arzulayırıq. Yaşasın Azərbaycan əsgəri! Yaşasın Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!"

Ukraynanın Jitomir şəhərindən **Rac Qasımovun** məktubunda deyilir: "Cənab Ali Baş Komandan, 2020-ci il sentyabrın 27-dən Qarabağ cəbhəsində başlayan erməni təxribatları bizləri - Ukraynanın Jitomir şəhərindəki azərbaycanlıları da çox narahat edir. Bu, Ermənistan silahlı qüvvələrinin cəbhəyanı ərazilərdə mülki əhalini və obyektlərini atəşə tutmasının qəsdən və hədəflənmiş növbəti təxribatıdır. Lakin Sizin rəhbərliyinizlə və göstərişinizlə Azərbaycan Ordusu cəbhəboyu zonada Ermənistan silahlı qüvvələrinə dağıdıcı zərbə vurur. Milli Ordumuz günü-gündən cəbhədə irəliləyərək erməni təxribatçılarını torpaqlarımızdan çıxmağa məcbur edir. Cənab Prezident, Siz daim dünya dövlətlərinə, beynəlxalq təşkilatlara çağırış edərək, regionda sülh və sabitliyin təmin olunması üçün Ermənistan dövlətindən işğal etdiyi Azərbaycan torpaqlarını dərhal azad etməsini tələb edirdiniz. Lakin Ermənistan hər zaman sülh danışıqlarına məhəl qoymayaraq qeyri-konstruktiv mövqe nümayiş etdirirdi. Bu gün isə Sizin düşünülmüş və qətiyyətli addımlarınızın nəticəsini görürük və bütün bunlar bizi hədsiz dərəcədə sevindirir. Möhtərəm Prezident, Sizin daxili və xarici siyasətinizi dəstəkləyir, əldə olunan uğurlara görə Sizi və xalqımızı təbrik edirik".

Türkiyənin Düzcə şəhərindən **Erkan Cin** yazır: "Hörmətli cənab Prezident, hər şeydən əvvəl Allahdan şəhid zirvəsinə yüksələn Azərbaycan əsgərlərinə və mülki insanlara rəhmət diləyirəm. Allah şəhidlərimizin kədərli ailələrinə, xüsusən də Sizə və bütün Azərbaycan xalqına səbir versin. Yaralılara isə tezliklə şəfa tapmalarını arzulayıram. Xalqınızın dərdini, kədərini qəlbimizdə hiss edirik. Əcdadlarım əsl türk olaraq Osmanlı İmperatorluğunun vaxtından bu günə qədər eyni yerdə ləyaqətlə yaşamışdır. Hazırda Türkiyə Respublikasına xidmət edən bir dövlət məmuruyam. Müxtəlif səbəblərdən iki dəfə Azərbaycana, yəni Bakıya gəlmişəm və bunun sayəsində Azərbaycan coğrafiyasını və xalqınızı yaxından tanımaq fürsəti tapmışam. Mən bir çox azərbaycanlı dost və qardaş qazanan xoşbəxt türklərdənəm. İstəyirəm ki, bu müharibədə Azərbaycan xalqının haqlı mübarizəsində sonacan yanınızda olduğumu biləsiniz. Həm də istəyirəm biləsiniz ki, razılığınız olduğu halda hər cür kömək üçün Azərbaycana gəlməyə və verəcəyiniz istənilən vəzifəni yerinə yetirməyə hazıram. Lazım gələrsə, cəbhədəki əsgər qardaşlarımız üçün yemək və su, ehtiyac olsa, kürəyimdə güllə daşıyaram və ya onlar üçün səngərlər qazaram. "Bir millət, iki dövlət" ifadəsi mənim üçün sonsuza qədərdir. Allah Azərbaycan xalqının yar və yardımçısı olsun".

Zaqatala sakini **Dilbər İsayeva:** "Hörmətli Ali Baş Komandan, əziz Prezidentimiz, şanlı ordumuz düşmən tapdağı altında olan torpaqlarımız uğrunda gedən döyüşlərdə şücaət göstərərək bir çox yaşayış məntəqəsini işğaldan azad etmişdir. Cəbrayıl, Füzuli və Zəngilan şəhərinin azad edilməsi Şuşaya və Xankəndiyə gedən yolları açıb. Dövlət və xalqımızın Qələbə sevinci ilə yaşadığı bu günlər bütövlükdə Azərbaycanımızın dövlətçilik tarixinə qızıl hərflərlə yazılan günlərdir. Qarabağ Azərbaycandır!"

Ağcabədi sakini **Mübariz Atakişiyev:** "Hörmətli cənab Prezident, mən 70 yaşlı idrakla dərk edən bir insan kimi Sizin siyasətinizi və qətiyyətli mövqeyinizi dəstəkləyirəm. Ordumuzda olan ruh yüksəkliyi, xalqımızın Sizi dəstəkləməsi məni sevindirir, yaşamaq eşqimi artırır. Bu yaşımda Ordumuza və Sizə dayaq oluram, bundan özümü xoşbəxt hiss edirəm. Cənab Prezident, iqtisadiyyatımızı gücləndirdiniz, nizami ordu yaratdınız, qətiyyətli mövqeyinizlə indi də dövlətimizin ərazi bütövlüyünü bərpa edirsiniz. Allahdan bu yolda Sizə və Ordumuza yardımçı olmasını diləyirəm. Cənab Ali Baş Komandan, bu gün Siz tarix yazırsınız. Tarix Ulu Öndərimiz və Sizin kimi şəxsiyyətləri 100 ildə bir dəfə yetirir. Qoy ölkəmizə qısqanclıqla yanaşan bütün dövlətlər, şəxslər baxıb utanc hissi keçirsin. Allahdan bir arzum var ki, Qələbədən sonra Siz Qarabağa gələndə Sizinlə görüşmək mənə nəsib olsun. Bir daha Sizə minnətdarlığımı bildirirəm".

Şabran sakini **Rəhimə Allahverdiyeva:** "Möhtərəm cənab Prezident, mən 76 yaşlı nənə kimi bu məktubu yazmaqla milli azlıqlar - tatların əsgər anaları və nənələri adından Azərbaycan xalqını, Ali Baş Komandanımızı, ordumuzu şanlı qələbələr münasibətilə ürəkdən təbrik edirəm. Nəhayət, Sizin əmrləriniz və komandanlığınızla torpaqlarımız işğaldan azad olunur. Fəxr edirəm ki, mənim də nəvəm qəhrəman Azərbaycan Ordusunun tərkibində Vətənin azadlığı uğrunda döyüşlərdə şücaət göstərir. Mən özümü bütün Azərbaycan Ordusunun əsgərlərinin nənəsi hesab edirəm. Allah əsgərlərimizi qorusun! Ali Baş Komandanımıza, əsgərlərimizə mərdlik, şücaət, Allahdan cansağlığı arzu edirəm. Bütün xalq Sizin və Ordumuzun arxasındadır. Uğurlar arzulayırıq, Allah Sizinlə olsun!"

Bakı şəhər sakini **Vüsal Nəbiyev:** "Möhtərəm cənab Prezident, ilk növbədə, Sizi öz adımdan və ailə üzvlərimiz adından salamlayıram. Mən də bütün Azərbaycan vətəndaşları kimi Sizə öz təşəkkürümü bildirmək istəyirəm. Mən özüm məcburi köçkün ailəsində doğulmuşam. Atam Xankəndi şəhərində, anam isə Laçın rayonunda anadan olub. Mən özüm Xəzər rayonu Binə qəsəbəsində məcburi köçkün məktəbi olan Laçın rayonunun Bəhmən Səfərəliyev adına tam orta məktəbinin şagirdiyəm. İnşallah, doğma torpaqlarımızı işğaldan tam azad edəcəyik. Qarabağ bizimdir! Qarabağ Azərbaycanındır!"

Tovuzdan **Rəşid Rəhimov** yazır: "Hörmətli cənab Prezident, Sizin rəhbərliyinizlə rəşadətli Ordumuz əzəli torpaqlarımızı işğaldan azad edir. Mətin, cəsarətli əsgər və zabitlərimiz düşmənin canlı qüvvəsini, hərbi texnikasını darmadağın edirlər. Qələbələrimizə görə Sizi və xalqımızı ürəkdən təbrik edirəm. Cənab Prezident, mən hazırda təqaüdçüyəm, lakin uzun müddət daxili işlər orqanlarında sabiq polis mayoru rütbəsində çalışmış biri, Qarabağ döyüşləri iştirakçısı kimi qətiyyətlə deyirəm ki, əmriniz olacağı təqdirdə, ön cəbhəyə gedib igid əsgərlərlə çiyin-çiyinə vuruşmağa hazıram. Yaşasın Azərbaycan! Qələbə bizimlədir! Qarabağ Azərbaycandır!"

Şəmkir sakini **Rəsul İbrahimov:** "Hörmətli cənab Prezident, Milli Ordumuzun qazandığı bu vacib uğurlar və döyüş meydanındakı qələbələr münasibətilə Sizi təbrik edirəm. Bundan sonra da yeni-yeni qələbələr, uzun ömür, cansağlığı arzulayıram. Siz Koroğlunun, Babəkin və Şah İsmayılın göstərdikləri qəhrəmanlıqları xalqımızın gözü qarşısında təkrar etdirdiniz. Xalqımız heç vaxt bu cəsur əməllərinizi unutmayacaq. Cənab Prezident, hələ Tovuz hadisələri baş verən zaman mən 86 yaşlı bir ahıl olmağıma baxmayaraq, Sizə müraciət edərək ermənilərə qarşı vuruşmağa hazır olduğumu bildirmişdim. Bu yaşımda yenə həmin fikirdə qalıram. Əmin ola bilərsiniz ki, bütün Azərbaycan xalqı, körpədən tutmuş yaşlı nəslə kimi hamı Sizin arxanızdadır və Sizi dəstəkləyirlər. Nəinki mən, mənim yaşda olan nəslimizin hamısı cəbhəyə gedərək düşmənlə döyüşməyə hazırdır. Biz Sizin əmrinizi gözləyirik! Hörmətli Prezident, hər bir kəndimizin düşməndən azad edilməsi bizim ömrümüzü uzadır, fərəhimizi artırır, başımızı ucaldır. Arzum budur ki, üçrəngli bayrağımız tezliklə Şuşada və Xankəndidə dalğalansın. Müharibə qələbə ilə başa çatandan sonra respublikamızın daha da çiçəklənməsini arzulayıram".

Kürdəmir sakini **Tehran Hüseynov:** "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, ordumuzun göstərdiyi şücaətə və Sizin qətiyyətli addımlarınıza görə öz adımdan və bütün neftçilər adından Sizə təşəkkürümüzü bildirir, uzun ömür və cansağlığı arzulayırıq. Apardığınız haqq siyasətində, Vətən savaşında qalib gələcəyimizə bütün qəlbimizlə inanırıq. İşğaldan azad olunacaq torpaqlarımızın hər bir guşəsində üçrəngli Azərbaycan bayrağının fəxarətlə dalğalanacağı günü səbirsizliklə gözləyirik. Qarabağ canda candır, Qarabağ Azərbaycandır!"

Goranboy sakini **Tərgül Ələsgərova:** "Cənab Prezidentim, mən bu məktubumu Sizə bütün Veyisli kənd camaatı adından yazıram. Biz Vətənimizin bu haqlı savaşda qalib gələcəyinə bütün varlığımızla inanırıq. Çünki bizim Sizin kimi qüdrətli və müdrik dövlət başçımız var. Sizə çox güvənirik və hər bir qərarınızı dəstəkləyirik. Əminik ki, uzaqgörən siyasətiniz sayəsində dövlətimiz bütün çətinliklərin öhdəsindən gələcək. İnşallah, tezliklə Sizdən tam Qələbə xəbərini də alarıq. Yaxşı ki, varsınız və bizim Prezidentimizsiniz. Allah şəhidlərimizə rəhmət eləsin, Sizi və əsgərlərimizi qorusun!"

Laçın sakini **Cəlil Hüseynov:** "Azərbaycan xalqının əbədi xilaskarı cənab Prezidentim, Siz müdrik siyasətinizlə Azərbaycan tarixində heç bir zaman silinməyəcək qəhrəmanlıq salnaməsi yazdınız. Sizin qatı düşmənə qarşı verdiyiniz qətiyyətli əmriniz Azərbaycan xalqının ürəyincə oldu. Hörmətli Prezident, hamı kimi mən də - 93 yaşlı Cəlil baba da çox sevindim. Sevindim ki, mən öz kəndimi yenidən görəcəyəm, orada həyatımın sonunu yaşayacağam. Arzum budur ki, tezliklə Laçının düşməndən azad edilməsi müjdəsini Sizdən eşidək. Əziz və sevimli Prezidentimiz, biz laçınlılar Sizinlə çox fəxr edirik. Laçın ağsaqqalları adından Sizə sonsuz təşəkkürümü bildirirəm. Sizin əzəmətli heykəlinizi Laçın rayonunun ən ucqar zirvəsində görmək biz laçınlıların böyük arzusudur. Allah Sizi qorusun!"

Astara sakini **Sərfinaz Bayramova:** "Əziz və hörmətli Prezidentimiz, mən bu məktubla nənəmin xahişi ilə həm onun adından, həm də öz adımdan Sizə minnətdarlığımı bildirirəm. 85 yaşlı nənəm Sizin televiziyadakı çıxışlarınızı görəndə sevinci yerə-göyə sığmır və israrla Sizi bağrına basıb, təşəkkürünü bildirmək üçün görmək istədiyini deyir. Nənəm öz təqaüdündən torpaqlarımız tam azad olandan sonra qurban kəsdirmək üçün pul toplayır. Bizim üçün çox əzizsiniz, dəyərlisiniz. Biz Sizinlə fəxr edirik, hər şeyə görə çox sağ olun, cənab Prezident. Allah Sizi qorusun və bizə çox görməsin. Amin".

Mingəçevir şəhərindən **Eynullah Abbasov:** "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizi Cəbrayıl, Füzuli, Zəngilan şəhərlərinin, həmçinin digər yaşayış məntəqələrimizin mənfur düşmənlərdən azad olunması münasibətilə Mingəçevir şəhər "Tekstil" MMC-nin kollektivinin üzvləri adından təbrik edirəm. Hər gün aldığımız xoş xəbərlər bizi sevindirir, kollektivimizdə yüksək əhvali-ruhiyyəyə səbəb olur. Biz daim Sizinləyik və xalqın sədaqətli oğulları kimi arxanızdayıq".

Bakı şəhər sakini **Əlizamin Sədiyarov:** "Hörmətli cənab Prezident, tarix boyu ölkəmizin azadlığı və qorunması uğrunda yüzlərlə, minlərlə cəsur Azərbaycan övladları şücaət göstərmişlər. Bu gün göstərilən qəhrəmanlıq salnaməsi məhz Sizin - Ali Baş Komandanımızın adı ilə bağlıdır. İşğal altında olan torpaqlarımızın azad olunması missiyasının bizim nəslin üzərinə düşməsi böyük xoşbəxtlikdir. Mən də bu torpağın oğluyam. Hazırda məhkum həyatı yaşasam da hər gün xəyalən müqəddəs torpaqlarımızın erməni daşnaklarından təmizlənməsi uğrunda gedən döyüşlərdə iştirak edirəm. Mənim dayım 1992-ci ildə Ağdərə döyüşlərində qəhrəmanlıq göstərərək şəhid olmuşdur. Bu gün mən həmin yerlərdə dayımın qəhrəmanlığını təkrar etmək arzusundayam. Bu arzum həyata keçsə canla, başla Vətənə oğul olar, torpaqlarımızın azad olunmasında iştirak edərəm. Qarabağ Azərbaycandır!"

# Milli Məclisin Sədri Fransa Milli Assambleyasının Sədrinə məktub ünvanlayıb

Milli Məclisin Sədri Sahibə Qafarova Fransa Milli Assambleyasının Sədri Rişar Ferrana məktub ünvanlayıb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, məktubda Milli Məclisin Sədri oktyabrın 16-da Fransa Milli Assambleyasının Rəyasətində qeydiyyatdan keçmiş "Artsax respublikasının tanınması" haqqında qətnamə təklifi ilə əlaqədar ciddi narahatlığını və narazılığını ifadə edib.



Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərində yaradılmış və heç bir dövlət, o cümlədən Fransa tərəfindən tanınmayan qanunsuz separatçı rejimin Fransa tərəfindən tanınması məqsədini daşıyan bu təklif Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün pozulmasına yönələn, heç bir hüquqi əsası olmayan akt kimi qiymətləndirilir. Belə bir təklif Fransanın beynəlxalq, Avropa və ikitərəfli öhdəliklərinə ziddir və ölkələrimiz arasında münasibətlərə ciddi zərər vura bilər.

Qeyd olunur ki, Fransa Minsk qrupunun həmsədr ölkəsi kimi ATƏT-in prinsipləri və BMT Nizamnaməsi əsasında öz üzərinə öhdəlik götürdüyü, həmçinin BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrinin qəbuluna səs verib. Həmin qətnamələr Dağlıq Qarabağ bölgəsinin Azərbaycanın bir hissəsi olduğunu təsdiqləyir, ərazilərimizin işğalını pisləyir, ölkəmizin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörməti bir daha təsdiq edir. Eyni zamanda, bu qətnamələr erməni işğalçı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir.

Eyni şəkildə, Avropa İttifaqı ölkələrin ərazi bütövlüyü, suverenliyi və müstəqilliyinə təhlükə və ya təhdid yaradan bütün addımları qadağan edir.

Sözügedən qətnamə təklifi, eyni zamanda, Fransanın "Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında "Dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Müqavilə" üzrə qarşılıqlı öhdəliklərinə ziddir.

Milli Məclisin Sədri Sahibə Qafarova xatırladır ki, Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə dəstək "Azərbaycan və Avropa İttifaqı arasında Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Saziş" (1996), eləcə də "2018-2020-ci illər üçün Azərbaycan-Avropa İttifaqı arasında Tərəfdaşlığın Prioritetləri"ndə də təsdiq olunub, Azərbaycanın ərazi bütövlüyünə dəstək prinsipinin Avropada sülh və sabitliyin qorunmasına töhfə verəcəyi təsbit edilib.

Məktubda bildirilir ki, Fransa vasitəçi kimi qərəzsizliyini və bitərəfliyini qorumalı, beynəlxalq hüququ pozan və münaqişənin danışıqlar yolu ilə həllinə mane olan bütün qanunsuz hərəkətlərin qarşısını almalıdır. Əks təqdirdə, bu, Fransa üçün Minsk qrupunun həmsədri kimi məsuliyyət doğuracaq. Belə ki, sözügedən qətnamə təklifi qəbul ediləcəyi təqdirdə, o, Minsk qrupu çərçivəsində danışıqlar prosesinə kobud və təhlükəli müdaxilə kimi münaqişənin sülh yolu ilə nizamlanmasına ciddi xələl gətirəcək.

Sonda Milli Məclisin Sədri Sahibə Qafarova bildirir ki, bu cür addım Azərbaycan-Fransa əlaqələrinə qarşı ciddi çağırışdır, eyni zamanda, ölkələrimiz arasında ikitərəfli münasibətlərə və əməkdaşlığa zərbə vurmaqla nəticələnə bilər.

# *Hikmət HACIYEV:* "Ermənistanın mülki Azərbaycan vətəndaşlarına, xüsusilə uşaqlara və yeniyetmələrə qarşı dövlət səviyyəsində terroru və müharibə cinayətləri davam edir"

"Ermənistanın mülki Azərbaycan vətəndaşlarına, xüsusilə uşaqlara və yeniyetmələrə qarşı dövlət səviyyəsində terroru və müharibə cinayətləri davam edir". AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev KİV-ə açıqlamasında bildirib.



Prezidentin köməkçisi deyib: "Baş Prokurorluq tərəfindən məlumat verildiyi kimi, bu gün Tərtər rayonunun və kəndlərinin "Smerç" raketlərindən atəşə tutulması nəticəsində 2004-cü il təvəllüdlü İsmayılzadə Orxan Rəhbər oğlu həlak olub.

Oktyabrın 17-də Gəncənin yaşayış məntəqələrinin "SCUD" tipli raketlərdən atəşə tutulması nəticəsində ağır yaralanmış Rusiya Federasiyası vətəndaşı, 2007-ci il təvəllüdlü Mayakov Artur Vladimiroviç həkimlərin səylərinə baxmayaraq, stasionar qaydada müalicə olunduğu xəstəxanada vəfat edib. Mayakov Artur Vladimiroviç Gəncəyə bibisigilə qonaq gəlmişdi.

Mərhum Gəncə Şəhər İcra Hakimiyyətinin və Gəncə şəhər Aleksandr Nevski kilsəsinin dəstəyi ilə pravoslav xristian dini ənənələrinə uyğun olaraq dəfn ediləcək. Xarici İşlər Nazirliyi vasitəsilə bu barədə Rusiya Federasiyasının Azərbaycandakı səfirliyinə məlumat verilib.

Cəbhə xəttində yerləşən Azərbaycan şəhərlərinin hazırda Ermənistan silahlı qüvvələri tərəfindən ağır artilleriya və digər silahlardan atəşə tutulması davam edir.

Ermənistandan fərqli olaraq Azərbaycan mülki insanları və mülki obyektləri hədəfə almır. Azərbaycan tərəfindən beynəlxalq humanitar hüquqda təsbit olunmuş hərbi zərurət, legitim hərbi hədəflər və cavab tədbirlərinin proporsionallığı kimi tələblər ciddi şəkildə nəzərə alınır. Xankəndidə olmuş xarici jurnalistlər tərəfindən də qeydə alındığı kimi, Ermənistan tərəfi atəş nöqtələrini mülki obyektlərin içərisində və yaxınlığında yerləşdirərək terrorçulara məxsus taktikadan istifadə edir. Azərbaycanın işğal olunmuş ərazilərində yaşayan mülki insanları hərbi obyektlərdən kənar durmağa çağırırıq. Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən qeyd olunduğu kimi, Azərbaycanın mülki erməni əhalisi ilə işi yoxdur. Azərbaycan tərəfə keçmək istəyən mülki şəxslərə və hərbçilərə bütün humanitar yardım və dəstəyi göstərməyə hazırıq. Mülki insanlara qarşı törədilmiş müharibə cinayətlərinə, hərbi avantüraya görə məsuliyyəti tam şəkildə Ermənistanın siyasi-hərbi rəhbərliyi daşıyır".

# *Prezidentin köməkçisi:* "Ermənistan ərazisindən Azərbaycanın ərazisinə hücumların edilməsi növbəti hərbi təcavüz aktıdır"



Ermənistanın öz ərazisindən Azərbaycan Ordusunun bölmələrini Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan, Qubadlı və Laçın rayonları istiqamətində atəşə tutması, Ermənistan ərazisindən Azərbaycanın ərazisinə hücumların edilməsi növbəti hərbi təcavüz aktıdır.

AZƏRTAC xəbər verir ki, bunu KİV-ə açıqlamasında Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib: "Bu hallar Ermənistan ərazisindən Azərbaycanın Gəncə, Mingəçevir, Kürdəmir, Siyəzən, Qəbələ, Xızı və digər şəhərlərinə, mülki insanlara və mülki obyektlərə ballistik və reaktiv raketlərlə olan təcavüzkar hücumların davamıdır. Bu il iyulun 12-də Ermənistanın dövlət sərhədinin Tovuz istiqamətində Azərbaycana qarşı hücumları da təcavüz aktı kimi qiymətləndirilmişdi.

Bu kimi təcavüzkar aktlar, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu və Azərbaycana qarşı gücdən istifadə etməsi Ermənistanın açıq-aşkar Azərbaycana qarşı müharibə apardığını bir daha nümayiş etdirir.

Hərbi təcavüz aktı olmaqla bərabər Ermənistanın bu kimi hərbi avantüraları siyasi təxribat və münaqişənin coğrafiyasının genişləndirilməsi məqsədini daşıyır.

Bununla Ermənistan üzv olduğu siyasi-hərbi təşkilat çərçivəsində digər ölkələrə qarşı güc tətbiq etmək və güc tətbiq edərək hədələməkdən çəkinmək barədə üzərinə götürdüyü öhdəliklərini kobud şəkildə pozur.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən bəyan edildiyi kimi, Azərbaycanın Ermənistan ərazisində heç bir hərbi hədəfləri yoxdur.

Azərbaycan Respublikasının BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə məqsədilə hərbi təcavüz və hücum hallarının qarşısını almaq üçün legitim hərbi hədəflərə qarşı atmağa məcbur ola biləcəyi addımların məsuliyyəti tam şəkildə Ermənistanın üzərinə düşür".

# Rusiya XİN Gəncədə Artur Mayakovun həlak olması ilə əlaqədar "Twitter"də paylaşım edib

Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi Gəncədə Artur Mayakovun həlak olması ilə əlaqədar rəsmi "Twitter" səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verib ki, məlumatda deyilir: "Oktyabrın 17-də raket hücumu nəticəsində yaralanaraq Gəncə şəhər xəstəxanasına gətirilmiş 2007-ci il təvəllüdlü Rusiya vətəndaşı Artur Vasilyeviç Mayakovun oktyabrın 24-də vəfat etməsi barədə Azərbaycanın hakimiyyət orqanları tərəfindən səfirliyə məlumat verilib. Səfirlik Gəncə Şəhər İcra Hakimiyyətinin nümayəndələri, mərhumun qohumları və yaxınları ilə əlaqə saxlayır, onlara lazım olan köməyi göstərir.

A.V.Mayakov oktyabrın 24-də Azərbaycan Respublikasının Gəncə şəhərində dəfn edilib. Dəfn mərasimində Gəncənin rus icması başçısının müavini İ.V.Kalaşnikova və Gəncədəki Aleksandr Nevski məbədinin keşişi Varfolomey Ata iştirak ediblər.

Səfirlik bu kədərli hadisə ilə əlaqədar mərhumun qohumlarına və yaxınlarına başsağlığı verir".

# Rusiyanın Azərbaycandakı səfirliyi Gəncədə Artur Mayakovun həlak olması ilə bağlı başsağlığı verib

Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı səfirliyi Gəncədə Artur Mayakovun həlak olması ilə bağlı özünün rəsmi "Twitter" səhifəsində başsağlığı verib.

AZƏRTAC xəbər verib ki, məlumatda deyilir: "Bu il oktyabrın 17-də raket hücumu nəticəsində yaralanmış 2007-ci il təvəllüdlü Rusiya vətəndaşı Artur Mayakov oktyabrın 24-də Gəncə şəhər xəstəxanasında vəfat edib. Səfirlik mərhumun qohumları və yaxınları ilə əlaqə saxlayır və onlara dərin hüznlə başsağlığı verir".

# Xarici İşlər naziri Ceyhun Bayramov ABŞ-ın Azərbaycan icması üzvləri ilə görüşüb

Oktyabrın 23-də Xarici İşlər naziri Ceyhun Bayramov ABŞ-a işgüzar səfərinin sonunda ABŞ-ın Azərbaycan icması fəalları ilə görüş keçirib.





Ölkəmizin Vaşinqtondakı səfirliyində təşkil olunmuş tədbirdə nazir Ceyhun Bayramov Ermənistanın Azərbaycana qarşı 30 ildən artıq davam edən təcavüzü, mövcud vəziyyət, azərbaycanlı mülki əhalinin, Gəncə, Mingəçevir, Tərtər və digər yaşayış məntəqələrinin hədəf alınması, dinc insanlar arasında çoxsaylı itkilərin olması haqqında söz açıb. Qeyd olunub ki, sülh danışıqları prosesində ciddi irəliləyiş əldə edilməyib və son iki ildə Nikol Paşinyan hökumətinin destruktiv siyasəti nəticəsində danışıqlar kifayət qədər pozulub. Nazir deyib ki, 2019-cu ilin avqust ayında Ermənistanın müdafiə naziri ABŞ-ın erməni icma üzvləri ilə görüşdə "yeni ərazilər üçün yeni müharibə" prinsipini təbliğ edərək rəsmi Yerevanın təcavüzkar davranışının davam etməsini aydın nümayiş etdirib.

Nazir Ermənistanın beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüququ kobud şəkildə pozmasını xüsusi vurğulayıb. Diqqətə çatdırıb ki, Ermənistanın işğalçı siyasəti nəinki Azərbaycan, bütün region üçün təhlükədir. Bölgədə davamlı sülhün və rifahın təmin olunması üçün işğal faktının aradan qaldırılması və dövlətlərin beynəlxalq tanınmış sərhədlərinə hörmətin təmin olunmasının vacibliyi vurğulanıb. ABŞ-ın Azərbaycan icmasının Qarabağ həqiqətlərinin yerli ictimaiyyətə çatdırılmasının vacibliyi qeyd olunub. Nazir icma üzvlərinin informasiya müharibəsində fəallıq göstərdiklərinə görə təşəkkürünü bildirib.

# Ceyhun BAYRAMOV: "Paşinyan tərəfindən son dəqiqələrdə edilən cəhd qaçılmaz olanı dayandırmaq idi"

Oktyabrın 16-na keçən gecə Azərbaycanın ikinci şəhəri olan Gəncəyə Ermənistan tərəfindən "Skud" raketləri atıldı. Gecə saatlarında və təxliyə ilə bağlı əvvəlcədən xəbərdarlıq edilmədən, hücum edilərək evlər və günahsız ailələr hədəf alındı. On dörd mülki şəxs həlak oldu; digər 40 nəfər ağır yaralandı.

Bu barədə Xarici İşlər naziri Ceyhun Bayramovun "The Washington Times" qəzetində dərc olunmuş "Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. Bu əsasda Ermənistanla müharibə bitirilə bilər" adlı məqaləsində deyilir. AZƏRTAC məqaləni təqdim edir.

Bu ikinci hücum üçüncü ola bilərdi. Hərbi kəşfiyyat keçən həftə Ermənistan tərəfindən bir raket batareyasının şəhəri vurmaq məqsədilə Azərbaycan ilə sərhədə doğru gətirildiyini bildirmişdi. Ermənistan Müdafiə Nazirliyindən xüsusi icazə tələb olunaraq planlaşdırılan hücum - əvvəlki kimi - yalnız ölkə rəhbərliyinin birbaşa əmri ilə həyata keçirilə bilər.

Raket batareyasını məhv etməkdən başqa bir seçim yox idi. Yalnız hərbi hədəfi vurmaq və məqsədyönlü şəkildə uzun mənzilli "Skud" raketi ilə günahsız mülki insanları hədəf almaq arasında böyük bir fərq var. Gəncə işğal altındakı Dağlıq Qarabağdan 60 km məsafədə yerləşir, bu, bizim müharibəyə qayıtmağımızın səbəbidir.

Bu münaqişənin necə təqdim edildiyi və reallıqda necə olduğu arasında da bir fərq var. Buna sərhəd mübahisəsi deyilir; hətta bəzilərinin görmək istədiyi kimi, rəqib dünya gücləri arasındakı proksi müharibə kimi qələmə verilir. Əslində isə bu, Azərbaycan ərazisində baş verən müharibədir. Bu müharibə Ermənistanın işğalı və iyirmi ildən çoxdur ki, Dağlıq Qarabağı və onun ətrafındakı yeddi ərazini işğal etməsindən qaynaqlanır. Gəncə şəhərinə davamlı şəkildə edilən hücumlar isə onu göstərir ki, bu müharibə artıq Azərbaycan ərazilərinə yayılır, hansı ki münaqişə zonası deyil və heç vaxt da olmayıb.

Azərbaycanın 20 faiz ərazisinin işğalı ilə nəticələnən 1988-94-cü illərin müharibəsindən bəri sülh yolu ilə geri qaytarılması üçün ölkəmiz 30 ilə yaxın danışıqlar apardı. Çox məyusedici haldır ki, beynəlxalq ictimaiyyət beynəlxalq hüququn aliliyinin tətbiq edilməsində uğursuzluq ilə nəticələnən işğalçı ölkəyə rahatlıq verən bir yanaşmanı qəbul edib.

Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ikinci bir Ermənistanın - qondarma "Dağlıq Qarabağ respublikası"nın heç bir gələcəyi yoxdur. Bu, fikir deyil, həqiqətdir: bu, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının ardıcıl şəkildə qəbul edilmiş dörd qətnaməsi vasitəsilə beynəlxalq hüquqda təsbit edilib.

ABŞ-dan Rusiyaya kimi, hətta Ermənistanın özü də - hər bir ölkə Azərbaycanın ərazi bütövlüyünün qanuniliyini və Dağlıq Qarabağı onun ayrılmaz tərkib hissəsi kimi tanıyır. Bundan əlavə olaraq, Azərbaycan sülh əldə edildiyi təqdirdə Dağlıq Qarabağa mümkün olan ən yüksək muxtariyyət verilməsi barədə öhdəliyini dəfələrlə bildirib.

Beləliklə, separatçılarla danışıqlar aparacaq heç bir məsələ yoxdur: legitim olaraq Dağlıq Qarabağı ev adlandıra bilən hər bir şəxsin ehtiyacı nəzərə alınmalı - istər erməni etnik mənsubiyyətinə, istərsə də 1988-94-cü illərin müharibəsi dövründə evlərindən didərgin düşmüş bir milyona yaxın azərbaycanlı qaçqın - və Azərbaycanın ayrılmaz hissəsi kimi eyni torpaqda və sülh şəraitində birlikdə yaşamaq üçün bir yol tapmalıdır.

Bu, mümkündür. Azərbaycanda, eyni zamanda, müsəlman, yəhudi və ortodoks xristian dini nümayəndələri, eləcə də azərbaycanlılar, ruslar, ləzgilər, avarlar, talışlar, gürcülər, saxurlar və digər millətlər yaşayır. İşğal olunmuş ərazilər istisna olmaqla 30 min erməni Azərbaycanı vətən adlandırır. Bu ölkə nə monolit bir etnos, nə də tək dinin olduğu bir məkan deyil.

Lakin indiki vaxtda, Ermənistanın hazırkı hökuməti destruktiv gündəliyini irəli sürməyə davam edir. Atəşkəs ilə bağlı Moskvada baş tutmuş son danışıqlar zamanı, onların diplomatları danışıqların on birinci saatında hər hansı bir razılaşma imzalanmadan əvvəl separatçıların danışıqlar masasına oturmalarını israr etdilər. Bu, Azərbaycan və evsahibliyi edən ölkə tərəfindən rədd edildi. Hər bir halda, maliyyələşdiriciləri artıq əks tərəfdə oturduğu halda proksilərlə danışmaq üçün heç bir səbəb yoxdur.

Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən son dəqiqələrdə edilən cəhd qaçılmaz olanı dayandırmaq idi. Bunun müxalifət liderləri və jurnalistlərin həbslərinin kəskin artması fonunda ölkəsindəki idarəetmədə olan uğursuzluğundan yayınma cəhdi olduğunu düşünürük. Münaqişədən əvvəl bu rəhbərliyin seçki vədlərini yerinə yetirməsi üçün çağırışlar sürətlə artmaqda idi.

Bu şahidi olduğumuz, onun qarşıdurmanı genişləndirmək motivasiyasıdır. Hazırda Paşinyan Amerikada, xüsusilə də Ermənistan-Amerika və dünya diasporasında bunu həqiqətə uyğun olmayan bir şəkildə həyati bir təhlükə kimi qələmə verməyə çalışır; yalnız Ermənistan dövlətinə deyil, hər yerdə olan bütün ermənilərə qarşı. Azərbaycan isə Ermənistanla qonşu olaraq sülh və firavanlıq içində yaşamaq istəyir. Bütün ümumi çətinliklərimiz Ermənistanın təcavüzü, işğalı və sülh üçün mümkün olan yeganə şərtə, qoşunlarını torpaqlarımızdan çıxarmağa riayət etməməsindən qaynaqlanır. Fərqli yaşamağı öyrənməliyik.

Yalnız biz əvvəldə də, yolun sonunda da doğru olanlardan başlayırıq: Dağlıq Qarabağ Azərbaycanın bir hissəsidir. Bu əsasda bu müharibəyə son qoya bilərik və barışıq yolunu tuta bilərik.

# Nazir Ceyhun Bayramov ABŞ-da bir sıra görüşlər keçirib

Oktyabrın 23-də Xarici İşlər naziri Ceyhun Bayramovun ABŞ-a işgüzar səfəri çərçivəsində ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Robert Obrayn ilə görüşü keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov ABŞ rəsmisinə bölgədə mövcud olan son vəziyyət, Ermənistanın Azərbaycana qarşı yeni təcavüzü, azərbaycanlı mülki əhalini və yaşayış məntəqələrinin hədəf alınması, dinc əhali arasında çoxsaylı itkilərin olması, Ermənistanın beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüququ kobud şəkildə pozması barədə ətraflı məlumat verib.

Bölgədə davamlı sülhün və rifahın təmin olunması üçün işğal faktının aradan qaldırılması və dövlətlərin beynəlxalq tanınmış sərhədlərinə hörmətin təmin olunmasının vacibliyi vurğulanıb.

Tərəflər, həmçinin ölkələr arasındakı əməkdaşlıq gündəliyinə daxil olan məsələlər üzrə fikir mübadiləsi apardılar.

* * *

Oktyabrın 23-də Xarici İşlər naziri Ceyhun Bayramovun ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosi ilə görüşü baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin son durumu, cəbhədəki vəziyyət, Ermənistan tərəfindən humanitar atəşkəs rejiminin pozulması, ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə danışıqların davam etdirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Ermənistan tərəfinin humanitar atəşkəs rejimini və beynəlxalq humanitar hüquq çərçivəsində öhdəliklərini kobud şəkildə pozaraq danışıqları məhv etdiyini, nəinki işğal altında olan Azərbaycan torpaqlarından, habelə Ermənistan ərazisindən münaqişə zonasından uzaq məsafədə yerləşən Azərbaycanın şəhərlərinə raket zərbələri endirdiyini və üçüncü tərəfləri münaqişəyə cəlb etməyə çalışdığını vurğulayıb.

Spiker Nensi Pelosi regionda tezliklə döyüş əməliyyatlarının dayandırılmasına və humanitar atəşkəs rejiminin bərpa edilməsinə ümid etdiyini bildirib. Spiker, həmçinin münaqişəyə digər dövlətlərin müdaxilə etməməsinin və münaqişənin daha geniş vüsət almamasının vacibliyini qeyd edib və danışıqların tezliklə bərpa edilərək ATƏT-in Minsk qrupu çərçivəsində davam etdiriləcəyinə inamını ifadə edib.

Görüşdə ikitərəfli münasibətlərin inkişaf dinamikası və narahatlıq doğuran digər məqamlar ətrafında da fikir mübadiləsi aparılıb.

* * *

Vaşinqtona səfəri çərçivəsində oktyabrın 23-də Xarici İşlər naziri Ceyhun Bayramov ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə nazir Ceyhun Bayramov Ermənistan tərəfinin iki dəfə humanitar atəşkəsi pozduğunu, azərbaycanlı mülki əhalini məqsədyönlü şəkildə davamlı atəşə tutduğunu və münaqişə zonasından kənarda yerləşən şəhərləri və yaşayış məskənlərini raket hücumuna məruz qoyduğunu qeyd edib. Nazir, Ermənistan rəhbərliyinin münaqişənin diplomatik həllinin olmaması barədə bəyanatını həmsədrlərin diqqətinə çatdırıb.

Vurğulanıb ki, bütün bu addımlar və bəyanatlar Ermənistan tərəfinin destruktiv siyasətini bir daha aydın şəkildə nümayiş etdirir.

# Biz hər zaman göstərmişik ki, Azərbaycan tərəfi konstruktivdir

"Rəsmi olaraq ABŞ-ın Dövlət katibi Mayk Pompeonun dəvəti ilə Birləşmiş Ştatlara həmkarlarımla birlikdə səfər etdim. ABŞ-ın Dövlət katibi Mayk Pompeo ilə görüş keçirdim. Təbii ki, əsas müzakirə mövzusu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi oldu. Hazırda mövcud vəziyyət, problemin həlli yolları ilə bağlı potensial fikir mübadiləsi aparıldı. ABŞ Minsk qrupunda həmsədr ölkələrdən biridir. ABŞ tərəfindən də bu məsələyə olan maraq, vasitəçilik təklifləri və məsələnin həlli istiqamətində addımlar müzakirə edildi. Sonra ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Robert Obrayn, ABŞ-ın Nümayəndələr Palatasının spikeri Nensi Pelosi, ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşlər keçirdim. Hesab edirəm ki, Azərbaycan reallıqlarının, Azərbaycanın haqlı mövqeyinin qarşı tərəfə çatdırılması, onun ətrafında faydalı müzakirələr həyata keçirilməsi baxımından görüşlərimiz faydalı oldu".

AZƏRTAC xəbər verir ki, bu sözləri Vaşinqtonda jurnalistlərə müsahibəsində Xarici İşlər naziri Ceyhun Bayramov söyləyib. Nazir deyib: "Təbii ki, biz realist olmalıyıq. Otuz illər ərzində yığılmış problemlərin bir görüş zamanı həlli mümkün deyil. Ancaq biz hər zaman göstərmişik ki, Azərbaycan tərəfi konstruktivdir. Azərbaycan tərəfi hər zaman məsələnin siyasi yolla həll olmasının tərəfdarıdır. Azərbaycan tərəfi, zərurət yoxdursa, hərbi əməliyyatların aparılmasını mütləq şərt kimi irəli sürmür. Hesab edirəm ki, bütün bu görüşləri keçirməyə, Azərbaycan həqiqətlərini çatdırmağa həm əsasımız var, həm deməyə sözümüz var. Mövqeyimiz də ədalətlidir. Bu baxımdan bu görüşləri faydalı hesab edirik. Böyük ehtimalla ABŞ Prezidentinə də görüşlər barədə məlumat verilib. Biz bir məsələni də nəzərə almalıyıq. Xüsusi olaraq, dövlətlər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə fikir bildirən zaman biz onu nəzərə almalıyıq ki, bu dövlətlərin bir çoxunda çox ciddi erməni lobbisi var. Erməni lobbisi bu dövlətlərin daxili siyasi prosesinə ciddi təsir edir. Bu dövlətlərin bir çoxunda seçki prosesi həyata keçirilir. Təbii ki, bu məsələlərə xüsusi diqqət verən siyasətçilər bu kimi amilləri, əfsuslar olsun ki, göz önünə gətirirlər. Onların qeyd etdiyi də məhz onlara xoş gəlmək, səslərini qazanmaqdır".

# Sergey MARKOV: "Azərbaycanın müharibədə qələbəsi yaxınlaşır"

Azərbaycan Dağlıq Qarabağ müharibəsində qələbəyə yaxınlaşır. AZƏRTAC xəbər verir ki, Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov bu sözləri özünün "Facebook" səhifəsində yazıb.

Politoloq qeyd edib ki, bəlkə də bir neçə saatdan sonra Azərbaycan Ordusunun tutacağı mövqelər Ermənistanla Dağlıq Qarabağı cənubdan əlaqələndirən Laçın dəhlizini atəşlə bloklamağa imkan verəcək.

S.Markov yazıb: "Şimal dəhlizi təqribən bir həftə bundan əvvəl bloklanıb. Orada hər şey atəş altındadır. Azərbaycan Ordusu havada tam üstünlüyə malikdir. Dağlıq Qarabağın cənub dəhlizi mühasirəyə alınandan sonra Ermənistan ordusu ümidsiz vəziyyətə düşəcək. O halda müharibənin davam etdirilməsi erməni ordusunun hərbi formasını geymiş insanları məhv etməyə bərabər olacaq. Bu, heç kimə gərək deyil. Ona görə də düşünürəm ki, bu qələbədən sonra Azərbaycan Prezidenti İlham Əliyev atəşi dayandırmağa və danışıqlara başlamağa hazır olduğunu bildirəcək".

Onun fikrincə, bu danışıqlar artıq atəşkəs barədə deyil, sülh haqqında olacaq. Rusiyalı politoloq vurğulayıb: "Danışıqlar sülhün şərtləri barədə, Ermənistan qoşunlarının Azərbaycanın bütün ərazisindən tamamilə çıxarılması şərtləri haqqında və erməni əhalinin vəziyyəti haqqında olacaq. Həmin danışıqlarda əsas təşkilatçı və vasitəçi Rusiya olacaq. Vladimir Putinin çıxışı məhz bu barədə idi, hərçənd o vaxt bunu hamı başa düşmədi. Putin isə artıq bilirdi ki, bir neçə saatdan sonra regionda geosiyasi vəziyyət əsaslı şəkildə dəyişəcək. Azərbaycanın müharibədə qələbəsi yaxınlaşır".

# Azərbaycan Vətən savaşında iradəsini və hökmünü göstərir

***Əvvəli 1-ci səh.***

Prezident İlham Əliyevin əzmlə həyata keçirdiyi strateji kurs sayəsində tarixinin ən parlaq mərhələsini yaşayan Azərbaycan dövlətinin humanitar, ictimai-siyasi, iqtisadi uğurları dünya ölkələri tərəfindən layiqincə dəyərləndirilir. Əhalinin sosial öhdəliklərinin yerinə yetirilməsi istiqamətində aparılan tədbirlər beynəlxalq qurumlar tərəfindən də müsbət qarşılanır. Dövlət başçısının taktiki gedişləri, operativ reaksiyası, aşkarlıq sayəsində istənilən təhlükə ilə mübarizədə ən vacib və ilkin resurs olan hakimiyyət və cəmiyyət arasında artıq güclü etimad təmin edilmişdir.

Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olmasını bütün beynəlxalq platformalarda dəfələrlə dünyaya çatdırmışdır. Mövzu ilə bağlı ortaya qoyduğu faktlar və qətiyyətli mövqeyi ilə bir daha böyük lider olduğunu hər kəsə nümayiş etdirmişdir. Qarabağda referendum oyunlarına birdəfəlik nida qoymuşdur.

Oktyabrın 21-də Azərbaycan Prezidentı Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsində ikinci atəşkəsin uğursuz olmasının səbəblərindən danışarkən bildirdi ki, Dağlıq Qarabağda heç bir referendum olmayacaq: "Biz bununla heç vaxt razılaşmayacağıq. Biz danışıqlar zamanı buna razılıq vermədik və indi ərazinin böyük bir hissəsini geri aldığımız bir vaxtda bundan söhbət gedə bilməz. Öz müqəddəratını təyinetməyə gəldikdə, ermənilər artıq öz müqəddəratlarını təyin ediblər. Onların müstəqil Ermənistan dövləti var. Təsəvvür edin, əgər ermənilər yaşadıqları hər yerdə öz müqəddəratlarını təyin etsələr nə baş verər, dünyada neçə kiçik Ermənistan olar? Bu, əks təsir verən yanaşmadır. Öz müqəddəratını təyinetmə beynəlxalq hüququn mühüm amilidir. Lakin o, Azərbaycanın ərazi bütövlüyünü pozmamalıdır... biz heç vaxt Azərbaycan ərazisində ikinci Ermənistan dövlətinin yaradılmasına icazə verməyəcəyik. Bundan söhbət gedə bilməz. Bir sözlə, referendum olmayacaq, heç vaxt". Uzun illər ərzində sülh danışıqlarının prinsiplərinə sadiq qalaraq münaqişənin müzakirələr yolu ilə həllini tapacağını ümidlə gözləyən, amma Ermənistanın davamlı təxribatları ilə üzləşərək sonda problemin hərbi yolla aradan qaldırılmasına qərar verən Azərbaycanın dövlət başçısı referendum oyunlarına sərt və birmənalı mövqeyi ilə cavab verdi. Biz dinc yolla almalı olduğumuz ərazilərimizi indi hərbi yolla, şəhid verərək alırıq. Buna görə də referendum məsələsi tam qüvvədən düşür.

## Ermənistan dünya üçün böyük təhlükədir

Azərbaycan Prezidenti öz çıxışlarında dönə-dönə hər bir vətəndaşın rifahının, təhlükəsizliyinin nə dərəcədə böyük əhəmiyyət daşıdığını vurğulayır. Bu, güclü dövlətin ilk zəruri şərtidir. Hər bir insanın qanuni hüquqlarının bərpası və öz doğma torpaqlarında rahat yaşamaq imkanıdır. İnkişaf azad torpaqlarda mümkündür.

Digər tərəfdən, məlumdur ki, Ermənistanın təcavüzkar siyasəti Cənubi Qafqaz regionunun təhlükəsizliyi üçün böyük təhdid yaradır. Zəngin iqtisadi potensiala malik bu regionun resurslarından yetərincə istifadə imkanlarının qarşısını alır, bölgəyə investisiya axınını zəiflədir, həyata keçirilən irimiqyaslı layihələr üçün böyük risklər doğurur.

Mülki əhalinin qətlə yetirilməsini öz döyüş hazırlığı taktikasına çevirmiş Ermənistan ordusu dünyanın əhəmiyyətli qlobal enerji layihələrindən olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərini raket atəşinə tutmaqla region üçün nə qədər böyük təhlükə mənbəyinə çevrildiyini bir daha nümayiş etdirdi. Hələ Səngəçal terminalına hücum edəcəklərini söyləyirlər. Bu da onların terrorçu xislətinin bir göstəricisidir. Prezident İlham Əliyev Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsində bu məsələyə də xüsusi toxunaraq qəti mövqeyini bildirdi: " TAP kəməri ilə bağlı hər şey qrafikə uyğun gedir. Bu, artıq edilib. TAP-ın rəsmi açılışı ola bilsin ki, ayların deyil, əlavə bir neçə həftənin işidir. Kəmərdə hər şey hazırdır. Bakıdan Avropaya tarixi kəmər tamamlanıb. Bizim digər kəmərlərimizə, xüsusilə neft-qaz kəmərlərinə gəlincə, Azərbaycan ərazisində bütün bu illər ərzində, Bakı-Tbilisi-Ceyhanın istismara verildiyi 2006-cı ildən bu yana bizdə heç bir hadisə baş verməyib. Bizim kəmərlərimiz bizim ərazimizdə lazımi qaydada qorunur. Lakin, əlbəttə, biz Ermənistanın rəsmi nümayəndələrindən hədələr eşitmişik ki, onlar bizim kəmərlərimizə hücum edəcəklər, neft-qaz nəqli üçün mühüm olan Səngəçal terminalına hücum edəcəklər. Lakin bu da onların terrorçu xislətinin bir hissəsidir. Çünki onlar açıq şəkildə bəyan edirlər ki, mülki infrastruktura hücum edəcəklər. Əlbəttə ki, əgər onlar bunu etsə, peşman olacaqlar. Çünki bizim tərəfimizdən və həmçinin enerji təhlükəsizliyinin bir hissəsini Azərbaycandan təmin edən ölkələr tərəfindən sərt şəkildə cəzalandırılacaqlar. Həmin ölkələrin reaksiyası necə olacaq? Bu kəmərlərə milyardlarla dollar investisiya yatırılıb".

XXI əsrin üçüncü onilliyi ərəfəsində, bəşəriyyətin gəlib çatdığı indiki inkişaf mərhələsində iki qonşu ölkədən birinin təcavüzkar siyasəti ucbatından belə bir regional münaqişənin baş verməsi, insan itkilərinin olması, mülki və sənaye obyektlərinə böyük ziyan dəyməsi, insanların rifahına, elmə, təhsilə, səhiyyəyə, innovasiyalara, insan kapitalına, mədəniyyətin inkişafına və digər bu kimi yüksək dəyərlərə sərf edilməli olan vəsaitin silahlara xərclənməsi, əlbəttə, adamı ağrıdır. Amma işğalçıya öz yerini göstərməkdən ötrü əfsuslar olsun ki, bəzən hərbdən başqa yol qalmır. Dünyada sülhün və təhlükəsizliyin təmin olunmasının beynəlxalq hüquqi vasitələri hələ ki, dövlətlər arasında dinc münasibətlərin tam təminatı rolunda çıxış edə bilmir.

## Beynəlxalq hüquq bizim tərəfimizdədir

İndiyə qədər beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı çox önəmli qərarlar qəbul olunub. BMT Təhlükəsizlik Şurasının 7 bəyanatında və 4 qətnaməsində (822, 853, 874, 884 nömrəli qətnamələr) Ermənistan dövlətinin işğalçı olduğu açıq şəkildə göstərilib. Torpaqların azad edilməsi, qaçqınların öz yurdlarına qayıtması tələb olunub. 1996-cı il dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən Zirvə toplantısında Ulu Öndər Heydər Əliyevin siyasi qətiyyəti və diplomatik prinsipiallığı nəticəsində, Ermənistan istisna olmaqla, 54 üzv dövlət tərəfindən Azərbaycanın haqlı mövqeyini müdafiə edən xüsusi sənəd imzalanıb.

Dağlıq Qarabağ münaqişəsinin başlandığı vaxtdan indiyədək müxtəlif beynəlxalq təşkilatlar - Avropa Şurası, ATƏT, İslam Konfransı Təşkilatı, digər nüfuzlu qurumlar münaqişə ilə bağlı çox tutarlı və həqiqəti əks etdirən qətnamələr, qərarlar qəbul ediblər. NATO-nun müvafiq sammitlərində də Azərbaycanın ərazi bütövlüyü birmənalı şəkildə dəstəklənib.

Uzun illər ərzində Ermənistanın bu beynəlxalq tələblərə məhəl qoymadığını, mövcud status-kvonu hər vəhclə uzatmağa çalışdığını və beynəlxalq ictimaiyyətin də buna göz yumduğunu, üstəlik, düşmənin yeni təxribatlara, xalqımıza qarşı təhqiramiz davranışlara əl atdığını görən Azərbaycan pozulmuş haqq-ədaləti indi məhz müzəffər ordusunun gücü ilə bərpa etməkdədir və bunu edir.

Prezident İlham Əliyev müsahibəsində bu prinsipial və mühüm məsələyə də münasibət bildirərək qeyd etdi ki, əfsuslar olsun, Ermənistanın bu hökuməti ilə münaqişənin sülh yolu üzrə nizamlanması perspektivləri çox uzaqdır: "Çünki Ermənistan rəhbərliyi tərəfindən verilmiş çox səmərəsiz və təhrikedici bəyanatlar, edilmiş hərəkətlər, əslində, danışıqları mənasız etmişdir. Çünki danışıqlar masasında əsas mövzu həmişə BMT Təhlükəsizlik Şurasının qətnamələrinə müvafiq olaraq Azərbaycanın işğal olunmuş ərazilərinin boşaldılması idi. Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" bəyan edəndə, Azərbaycanın qondarma "Dağlıq Qarabağ hökuməti" ilə danışıqlar aparmalı olduğunu deyəndə, dinc Gəncə şəhərinə ballistik raket zərbəsi vurmaq əmri verəndə və Azərbaycanın digər şəhərlərinə gündəlik olaraq hücum edəndə danışıqları aparmaq üçün o qədər də imkan qalmır. Buna görə də biz Ermənistan hökumətinə sübut etməli idik ki, artıq onlar bu cəzasız təcavüzkar addımları ata bilməzlər. Biz onların cəzasını yerində veririk, biz ərazilərimizi azad edirik, demək olar ki, hər gün mən Ermənistanın işğalından azad olunmuş yeni şəhər və kəndləri elan edirəm. Ermənistan döyüş meydanında çox acı məğlubiyyətlə üzləşir. Buna görə də, əlbəttə ki, onlar daha məntiqli davranmalıdırlar və birmənalı olaraq ərazilərin işğaldan azad edilməsi baş verir".

## Haqq davamızda qardaş dəstəyi

Regionda sülhün, sabitliyin, inkişaf mühitinin təmin edilməsinə dəstək verməli olan, bu münaqişənin həllini həqiqətən səmimi şəkildə istəyən beynəlxalq təşkilatların, vasitəçi ölkələrin üzərinə böyük vəzifələr düşür. Eyni zamanda sülh missiyasında ədalətin təmin olunması üçün bölgədə mühüm rola malik Türkiyənin də bu prosesdə iştirakı mütləq təmin edilməlidir. Azərbaycan Prezidenti bununla bağlı ölkəmizin mövqeyini müxtəlif müsahibələrində bəyan edib. Həm Azərbaycana dost, qardaş münasibətindən, həm də özünün strateji dövlət maraqlarından irəli gələrək regionda sabitliyin, davamlı inkişaf mühitinin olmasını arzulayan Türkiyə Cənubi Qafqazda sülh və təhlükəsizliyin əsas təminatçılarından biri rolunda çıxış edə bilər. Ümumən Azərbaycan xalqı hər zaman olduğu kimi, Türkiyənin son hadisələrdə tutduğu mövqeyi, bizə uzatdığı qardaş əlini, Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın və qardaş ölkənin digər rəsmilərinin işğalçı Ermənistana və onun havadarlarına qarşı sərt bəyanatlarını heç zaman unutmayacaq. Bu, Azərbaycan və Türkiyə arasında tarixin sınaqlarından çıxmış dostluq, qardaşlıq münasibətlərinin növbəti təntənəsidir. Dağlıq Qarabağ münaqişəsində ədalət, beynəlxalq hüquq normaları məhz Azərbaycanın tərəfindədir. Dünyaya sülh, insanlara rifah istəyən hər kəs bu gün münaqişənin həllində Azərbaycan və Türkiyəyə dəstək verməlidir. Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin NTV televiziyasına verdiyi müsahibəsində bəyan edir: "Artıq Türkiyə-Azərbaycan birliyi bir reallıqdır. Bununla hər kəs barışmalıdır. Nə qədər çox vaxt keçsə, bizim birliyimiz daha da güclənəcək. Çünki Türkiyənin potensialı, Azərbaycanın təbii resursları, bizim aramızda olan nəqliyyat layihələri, Türkiyə və Azərbaycan vasitəsilə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda Orta Asiyadan, Əfqanıstandan, Azərbaycan və Türkiyə ərazilərindən yeni nəqliyyat layihələrinin icra edilməsi - bütün bunlar yenilikdir... Çox şadıq ki, bizim Türkiyə kimi qardaş ölkəmiz var, güclü dövlət var, sözünü deyən, maraqlarını müdafiə edən, heç kimdən çəkinməyən və irəliyə gedən. Bu, bizim gücümüzü artırır. Türkiyə üçün Azərbaycan, Azərbaycan üçün Türkiyə bir nömrəli müttəfiqdir".

Yeni dünya nizamına sürətlə uyğunlaşan Türkiyə və Azərbaycan birliyi ən yaxın gələcəkdə regionu dünyanın rifah mərkəzinə çevirəcək.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Müdafiə Nazirliyi xəbər verir

## Anar EYVAZOV: “Erməni hərbçilərinin vaxt itirmədən silahı yerə qoyması və təslim olması tövsiyə edilir”

Oktyabrın 23-də gün ərzində və 24-nə keçən gecə cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut və Qubadlı istiqamətlərində döyüş əməliyyatları davam edib. Müdafiə mövqelərimizi atıcı silahlardan, minaatanlardan və toplardan atəşə tutan düşmən yaylım atəşli reaktiv sistemlərdən və digər artilleriya qurğularından istifadə edərək, həmçinin Tərtər, Bərdə, Goranboy və Naftalanı atəşə tutub.



AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 24-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov qeyd edib ki, Azərbaycan Ordusunun Laçın və Qubadlı istiqamətlərində həyata keçirdiyi əməliyyatlara qarşı mütəşəkkil müqavimət göstərə bilməyən və döyüş mövqelərini itirərək geri çəkilməyə məcbur edilən düşmən Ermənistanın Gorus və Qafan rayonları ərazisindən raket və artilleriya qurğuları ilə Laçın və Qubadlı ərazilərini güclü atəşə məruz qoyub. Ermənistan tərəfinin bu təxribatı törətməkdə məqsədi Azərbaycan Ordusunu cavab tədbirləri olaraq Ermənistan ərazisinə atəş açmağa təhrik etməkdir.

Bildirilib ki, Azərbaycan Ordusu əməliyyat planına uyğun olaraq cəbhənin müxtəlif istiqamətlərində əks-hücumu davam etdirir. Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinin bölmələrinə ciddi atəş zərbələri endirilib, onun silah-sursat və yanacaq anbarları sıradan çıxarılıb. Kommunikasiya xətləri nəzarətə götürülüb, dayaq məntəqələri dağıdılıb. Könüllülərdən ibarət dəstələri və döyüş texnikası məhv edilərək bir neçə vacib yüksəkliklər azad edilib. Sünik-Zəngilan yolunda hücum etməyə cəhd göstərən düşmən bölmələrimizin sərt müqaviməti ilə rastlaşaraq geri çəkilməyə məcbur edilib. Düşmən qüvvələrindən əsir götürülənlər var.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, bundan başqa, Qubadlı istiqamətində Ermənistan hərbi hava qüvvələrinə məxsus döyüş təyyarəsi və Ağdərə rayonu istiqamətində bir pilotsuz uçuş aparatı Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib. Cəbrayıl rayonu istiqamətində düşmənə məxsus “BZEZ” zərbə pilotsuz uçuş aparatı bölmələrimiz tərəfindən aşkarlanaraq xüsusi texniki vasitələrlə yerə endirilib və ələ keçirilib.

Hazırda bütün cəbhəboyu döyüşlər davam edir. Qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Ordusunun əkshəmlə əməliyyatı başlandıqdan sonra döyüş sahəsində aciz qalan düşmən bütün vasitə və resurslardan istifadə etməklə informasiya mühitində dezinformasiya və təxribat xarakterli məlumatlar yayır. Düşmən rəsmiləri guya ordumuzun texnika itirdiyi, xüsusi təyinatlı bölmələrimizə ziyan vurulduğu, bir pilotsuz uçuş aparatının Ermənistan ərazisində vurulması, digərinin isə İran ərazisinə keçdiyi və bu ölkə tərəfindən qoşunlarımıza qarşı atəş açılması kimi feyk məlumatlar verməklə vəziyyətin gedişatına təsir etməyə çalışır. Onlar çoxsaylı feyk foto və videolar yaymaqla beynəlxalq aləmdə Azərbaycan Ordusu barədə mənfi rəy formalaşdırmağa cəhd edirlər.

Anar Eyvazov deyib: Bildiririk ki, peşəkar Azərbaycan Ordusu yalnız düşmənin silahlı birləşmələrini və legitim hərbi obyektləri hədəfə alır. Bu hədəflər dəqiq atəş zərbələri ilə məhv edilir. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin ictimaiyyətə təqdim etdiyi foto və video görüntülər də buna əyani sübutlardır. Hər bir Azərbaycan əsgəri mülki şəxslərlə, hərbi əsirlərlə və düşmən meyitləri ilə davranış qaydalarını mükəmməl bilir. Onlara qarşı beynəlxalq humanitar hüququn prinsip və normalarına, eləcə də Cenevrə konvensiyalarına və ona əlavə olunmuş protokollara uyğun davranırlar. Buradan döyüşlər gedən istiqamətlərdə məskunlaşan dinc erməni əhalisinə və aldadılaraq Ermənistan ərazisindən işğal olunmuş ərazilərimizə gətirilən əsgər və könüllülərə Azərbaycanın Hərbi Komandanlığının müraciətini çatdırıram.

Azərbaycanın Hərbi Komandanlığı bir daha döyüşlər gedən istiqamətlərdəki dinc əhalini hərbi obyekt və infrastrukturdan uzaq durmağa çağırır. Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən aldadılaraq ölkəmizin işğal olunmuş ərazilərinə gətirilən əsgər və könüllülərə silahı yerə qoyaraq təslim olmağı təklif edir. Azərbaycan tərəfinə keçən mülki əhalinin təhlükəsizliyinin, qida, tibbi yardım və digər ehtiyaclarının təmin edilməsi üçün komandanlıq bütün müvafiq zəruri tədbirləri görməyə hazırdır. Bundan əlavə, beynəlxalq humanitar hüquqa uyğun olaraq hərbi əsirlərin, mülki şəxslərin bütün hüquqları qorunacaq və üçüncü dövlətlərə keçmək istəyən şəxslərə beynəlxalq təşkilatlar vasitəsilə lazımi şərait yaradılacaq.

“Azərbaycan əsgərlərinə qarşı döyüşən erməni hərbçilərinin vaxt itirmədən silahı yerə qoyması və təslim olması tövsiyə edilir. Qələbə bizimlədir!”, - deyə Anar Eyvazov vurğulayıb.

## Baş Prokurorluq sosial şəbəkə istifadəçilərinə və KİV nümayəndələrinə müraciət edib

Azərbaycan Respublikasının Baş Prokurorluğu sosial şəbəkə istifadəçilərinə və kütləvi informasiya vasitələrinin nümayəndələrinə müraciət edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan müraciətdə qeyd olunub ki, Azərbaycan Ordusu sentyabrın 27-dən başlayaraq cəbhənin bütün istiqamətlərində uğurlu əks-hücum əməliyyatlarını davam etdirərək düşmənə sarsıdıcı zərbələr endirir.

Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa televiziya ilə müraciətlərində və düşməndən azad edilmiş şəhər və kəndlərimiz, ələ keçirilmiş döyüş mövqeləri, hərbi texnika və silah-sursatlar barədə vətəndaşlarımıza dövlətimizin başçısının sosial şəbəkələrdəki rəsmi səhifələri vasitəsilə mütəmadi məlumatlar verilir.

Bununla yanaşı, vətəndaşlarımız Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar və ön xətdəki yerdəyişmələr barədə Müdafiə Nazirliyi tərəfindən gün ərzində mütəmadi olaraq rəsmi qaydada məlumatlandırılır.

Lakin bəzi sosial şəbəkə istifadəçiləri və kütləvi informasiya vasitələrinin nümayəndələri tərəfindən Azərbaycan Ordusunun bir sıra yaşayış məntəqələrini işğaldan azad etməsinə və digər əməliyyatlarına dair video, foto və informasiyaların yayılması, eləcə də döyüş əməliyyatlarının aparıldığı istiqamət və cari vəziyyətlə bağlı müxtəlif şəxsi fikirlərin paylaşılaraq hadisələri qabaqlamağa çalışma cəhdləri müşahidə edilir. Bu tipli hərəkətlər düşmənin informasiya əldə etməsinə şərait yaratmaqla yanaşı, hərbçilərimizin həyati təhlükəsinə səbəb olmaqdadır.

Azərbaycan Respublikası Baş Prokurorluğu ölkəmizdə mövcud müharibə vəziyyətini nəzərə alaraq sosial şəbəkə istifadəçilərini və kütləvi informasiya vasitələrinin nümayəndələrini bu tipli hərəkətlərə yol verməməyə çağırır.

Nəzərə çatdırırıq ki, bu kimi hərəkətlər qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

## Düşmənin yaşayış məntəqələrini atəşə tutması nəticəsində həlak olan mülki şəxslərin sayı 65-ə çatıb

Ermənistan ordusunun Azərbaycanın yaşayış məntəqələrini ağır artilleriya və raket atəşinə tutması nəticəsində həlak olan mülki şəxslərin sayı 65-ə çatıb. Onların 18-i qadın, 10-u uşaqdır.

Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Oktyabrın 4-də, 11-də və 17-də raket və ağır artilleriya hücumları nəticəsində Gəncədə 10-u qadın, 6-sı uşaq olmaqla 26 nəfər həlak olub, 138 nəfər yaralanıb. Şəhərdə mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

## Ermənistan terrorçuları və muzdlu əsgərləri ərazidən çıxarmalı, hücumlara və işğala son qoymalıdır

Sentyabrın 27-də Azərbaycana hücum edən Ermənistan oktyabrın 10-da və 18-də razılaşdırılmış humanitar atəşkəs qərarlarına məhəl qoymadan beynəlxalq hüquqa zidd olaraq Azərbaycanda dinc əhalini və mülki yaşayış yerlərini atəşə tutmaqda davam edir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Türkiyə Milli Müdafiə Nazirliyinin cəbhədəki mövcud vəziyyətlə bağlı növbəti açıqlamasında yer alıb.

Açıqlamada bu hücumlar nəticəsində dinc azərbaycanlı əhali arasında çox sayda ölən və yaralananın olduğu, dağıntıların meydana gəldiyi xatırladılır. Qeyd olunur ki, bölgədə sülh və sabitliyin təmin edilməsi üçün Ermənistan terrorçuları və muzdlu əsgərləri ərazidən çıxarmalı, hücumlara son qoymalı, Azərbaycanın işğal altındakı torpaqlarını tərk etməlidir.

## Erməni ordusu yaşayış məntəqələrimizi atəşə tutur

Ermənistan ordusunun bölmələri Azərbaycanın yaşayış məntəqələrini atəşə tutmaqda davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hazırda Tərtər və Bərdə rayonlarının ərazilərindəki yaşayış məntəqələrimiz düşmən tərəfindən atəşə tutulur.

* * *

Ermənistan ordusu Azərbaycanın yaşayış məntəqələrini raket atəşinə tutmağa başlayıb. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələri Ağdərə istiqamətindən Naftalan-Tərtər rayonlarının ərazisini yaylım atəşli reaktiv sistemlərdən (YARS) atəşə tutur.

* * *

Döyüş mövqelərini itirərək geri çəkilməyə məcbur edilən düşmən Ermənistanın Gorus rayonu istiqamətindən Azərbaycanın Qubadlı rayonunun ərazisini artilleriya atəşinə tutur. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan tərəfinin bu təxribatı törətməkdə məqsədi Azərbaycan Ordusunu cavab tədbirləri görməyə təhrik etməkdir.

* * *

Azərbaycan Ordusu bölmələrinin Laçın və Qubadlı istiqamətlərində həyata keçirdiyi əməliyyatların qarşısını almaq məqsədilə Ermənistan növbəti təxribata əl atıb. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hazırda Ermənistanın Gorus və Qafan rayonları ərazisində, dövlət sərhədinə yaxın yerdə döyüş mövqeyi tutan düşmənin raket və artilleriya qurğuları Laçın və Qubadlı ərazilərini güclü atəşə tutur.

Qarşı tərəfin məqsədi Azərbaycan Ordusunu Ermənistan ərazisinə atəş açmağa təhrik etməkdir.

## Düşmənin artilleriya bölmələri, komanda məntəqəsi, təyyarələri, döyüş texnikaları məhv edilib









Oktyabrın 23-də gündüz saatlarında Cəbrayıl rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus “BZEZ” zərbə pilotsuz uçuş aparatı (PUA) bölmələrimiz tərəfindən aşkarlanıb. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ordumuzun bölmələri düşmənin zərbə PUA-sını xüsusi texniki vasitələrlə yerə endirib.

* * *

Oktyabrın 24-də saat 15.25 radələrində Ağdərə istiqamətində uçuş keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilib. Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Xatırladaq ki, gün ərzində cəbhənin Qubadlı istiqamətində Ermənistan hərbi hava qüvvələrinə məxsus döyüş təyyarəsi də Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən vurulub.

* * *

Müdafiə Nazirliyi aviasiya zərbələri nəticəsində düşmənin artilleriya bölmələrinin və komanda məntəqəsinin məhv edilməsi ilə bağlı videogörüntülər yayıb.

* * *

Müdafiə Nazirliyi cəbhənin Xocavənd və Füzuli istiqamətlərində Ermənistan silahlı qüvvələrinin könüllülərdən ibarət dəstələrinin və döyüş texnikalarının məhv edilməsi ilə bağlı videogörüntülər yayıb.

* * *

Oktyabrın 24-də gündüz saatlarında cəbhənin Qubadlı istiqamətində Ermənistan hərbi hava qüvvələrinə məxsus döyüş təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

* * *

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi gecə ərzində düşmənin məhv edilən döyüş texnikalarının videogörüntülərini paylaşıb.

* * *

Azərbaycan Ordusunun artilleriya bölmələri düşmənin atəş nöqtələrinə dəqiq zərbələr endirməkdə davam edir. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan növbəti videoçarxda artilleriya bölmələrimizin düşmən mövqelərinə dəqiq və sarsıdıcı zərbələr vurmasını əks etdirən görüntülər yer alıb.

* * *

Oktyabrın 24-də günorta saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Sünik-Zəngilan yolu istiqamətindən bölmələrimizə hücum etməyə cəhd göstərib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bölmələrimizin sərt müqaviməti ilə rastlaşan düşmən geri çəkilməyə məcbur edilib. Düşmən qüvvələrindən əsir götürülənlər var.









* * *

Oktyabrın 24-də saat 13:00-dan 15:00-dək Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) döyüş aviasiyası cəbhənin Ağdərə və Ağdam istiqamətlərində Ermənistan silahlı qüvvələrinin 3 tankını, 2 sığınacağını və bölüyün 4 dayaq məntəqəsini dəqiq aviasiya zərbələri ilə məhv edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan HHQ-si düşmənin hərbi infrastrukturuna hava zərbələri endirməkdə davam edir.

## Ermənistan ordusunun Tərtər rayonunun Kəbirli kəndinə raket atması nəticəsində 16 yaşlı sakin həlak olub

Ermənistanın silahlı qüvvələri elan olunan humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı cinayət əməllərini davam etdirir.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 24-də səhər saatlarından başlayaraq Ermənistan ordusunun bölmələri tərəfindən Goranboy və Tərtər rayonları müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulub.

Saat 10 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər rayonunun Kəbirli kəndinə raket atılması nəticəsində 2004-cü il təvəllüdlü İsmayılzadə Orxan Rəhbər oğlu həlak olub.

Bundan başqa, saat 09 radələrində Goranboy rayonunun Tapqaraqoyunlu kəndinə top mərmilərinin düşməsi nəticəsində Yaqubov Qafqaz Bəhmən oğlu və Şirinov Bəylər Zahid oğluna məxsus fərdi evlərə külli miqdarda ziyan dəyib.

Həmçinin oktyabrın 17-də düşmən tərəfindən Gəncə şəhərinə raket atılması nəticəsində xəsarət almış Rusiya Federasiyasının vətəndaşı 2007-ci il təvəllüdlü Mayakov Artur Vladimiroviç göstərilmiş tibbi yardımlara baxmayaraq, oktyabrın 24-də stasionar qaydada müalicə olunduğu xəstəxanada vəfat edib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

## Tərtərin Kəbirli kəndinə atılan raket 16 yaşlı gəncin ölümünə səbəb oldu

Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. Oktyabrın 24-də səhər saatlarında erməni hərbçiləri tərəfindən Tərtər rayonunun Kəbirli kəndinə raket atılması nəticəsində bağda xurma dərən 2004-cü il təvəllüdlü İsmayılzadə Orxan Rəhbər oğlu həlak olub.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri Kəbirli kəndində raketin düşdüyü yerə gedərək kənd sakinləri ilə həmsöhbət olub.

Kənd sakini Nurlan Baratzadə hadisə barədə danışarkən deyib: “Raket atılan vaxt səsə evdən çıxdım. Uşaqların ağlamaq səsini eşitdim. Kömək istəyirdilər. Qaçaraq bağa gəldim. Gördüm iki uşaq Orxanın yanında durub. Orxan da üzüüstə yerə uzanmış halda idi, tərpənmirdi...”

Ermənilərin məqsədinin dinc azərbaycanlı əhalini qorxutmaq olduğunu söyləyən kənd sakini Xasay Məmmədov deyib: “Mənfur düşmən istəyir ki, dinc əhalini atəşə tutub təxribat yaratsın, camaatı qorxutsun. Amma bizim güclü ordumuz var, əsgərlərimizə güvənirik. Düşmən elə bilir ki, yenə də 1990-cı illərdi. O zaman bizim belə ordumuz yox idi. İndi isə qüdrətli dövlətimiz, güclü ordumuz var. İşğalda olan torpaqlarımız azad edilir. İnşallah qələbə bizim olacaq”.

## Azərbaycanın Hərbi Komandanlığı işğal olunmuş ərazilərdəki dinc əhaliyə hərbi obyektlərdən uzaq durmağı tövsiyə edir

Azərbaycanın Hərbi Komandanlığı döyüşlər gedən istiqamətlərdəki yaşayış məntəqələrində məskunlaşan dinc əhaliyə bir daha müraciət edərək onların xəsarət almaması üçün hərbi obyekt və infrastrukturdan uzaq durmağı tövsiyə edir.

Eyni zamanda, Azərbaycanın Hərbi Komandanlığı Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən aldadılaraq ölkəmizin işğal olunmuş ərazilərinə gətirilən əsgər və könüllülərə də müraciət edərək silahı yerə qoymağı və təslim olmağı təklif edir.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Hərbi Komandanlıq həmçinin bildirib ki, Azərbaycan tərəfinə keçən mülki əhalinin təhlükəsizliyinin, qida, tibbi yardım və digər ehtiyaclarının təmin edilməsi üçün bütün müvafiq zəruri tədbirləri görməyə hazırdır.

Bundan əlavə, beynəlxalq humanitar hüquqa uyğun olaraq hərbi əsirlərin, mülki şəxslərin bütün hüquqları qorunacaq və üçüncü dövlətlərə keçmək istəyən şəxslərə beynəlxalq təşkilatlar vasitəsilə lazımi şərait yaradılacaq.

## Azərbaycan əsgəri beynəlxalq hüquqla müəyyən edilmiş normalar çərçivəsində davranır

Azərbaycan Ordusu əks-həmlə əməliyyatlarına başladıqdan sonra Ermənistan bütün vasitə və resursları cəlb etməklə informasiya mühitində ölkəmizə qarşı hücuma keçməyə cəhd göstərir. Bununla da qarşı tərəf həqiqətləri əks etdirməyən məlumat, video və fotolar yaymaqla beynəlxalq aləmdə Azərbaycan barəsində mənfi rəy formalaşdırmağa çalışır.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yayılan saxta video və fotolarda guya Azərbaycan əsgərinin erməni əsir və meyitləri ilə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normalardan kənar, kobud davranması nümayiş etdirilir.

Bir daha bildiririk ki, Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrindən fərqli olaraq hərbi əsirlər, düşmənin yaralı hərbi qulluqçuları, mülki əhali, o cümlədən meyitləri ilə Cenevrə konvensiyaları və onlara əlavə olunan protokolların tələblərinə uyğun davranmaqla bərabər, mərhəmət və hörmət nümayiş etdirir.

Azərbaycan əsgərinin davranışı insan şəxsiyyətinə və onun ləyaqətinə hörmət etmək ideyasına əsaslanır və döyüş əməliyyatı zamanı erməni hərbçilərindən fərqli olaraq bizim hərbi qulluqçularımız dinc əhali, mülki və hərbi obyektlər arasında fərq qoyur.

# İlham Əliyev danışıqlar masasına qayıtmağın yeganə yolunu göstərdi

## Azərbaycan Prezidenti Dağlıq Qarabağın gələcəyi ilə bağlı planlarını da açıqladı

*Əvvəli 1-ci səh.*

Azərbaycanın haqlı mövqeyi nüfuzlu xarici KİV-də təbliğ olunur, dünyaya çatdırılır. Prezidentin böyük oxucu kütləsinə malik olan "Figaro" və "Nikkei" qəzetlərinə müsahibələrinin həm Avropa, həm də Asiyada geniş marağa səbəb olması bunu bir daha təsdiqləyir.

Dövlət başçısı bu müsahibələrində bir çox məsələlərə aydınlıq gətirdi və Ermənistanın düşdüyü acınacaqlı durumdan xilas yolunu göstərdi. Əgər İlham Əliyevin şərtləri yerinə yetirilərsə, Azərbaycan Ordusunun Qarabağdakı əməliyyatları dayanacaq və sülh danışıqlarına başlanacaq. Əks təqdirdə Azərbaycan dayanmayacaq.



### Ermənistanın yeganə çıxış yolu...

Bu gün dünya şahidlik edir ki, Azərbaycan əvvəlki dövrlərdə olduğu kimi bu savaşda da birinci və ikinci humanitar atəşkəsə sadiqlik göstərdiyi halda, Ermənistan mülki insanların yaşadığı ərazilərə ballistik raketlərlə hücum edir. Bu da bir daha təsdiq edir ki, terrorçu hakimiyyət öz xislətindən əl çəkmək fikrində deyil.

Prezident İlham Əliyev bir daha xatırlatdı ki, Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" sərsəm fikrini səsləndirəndə, Azərbaycanın qondarma "Dağlıq Qarabağ hökuməti" ilə danışıqlar aparmalı olduğunu iddia edəndə, Gəncə şəhərinə ballistik raket zərbəsi vurmaq əmri verəndə və Azərbaycanın digər şəhərlərinə gündəlik olaraq hücum edəndə danışıqları aparmaq üçün o qədər də imkan qalmır. Çünki atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əgər hücum olunursa, nəinki özünü müdafiə etməlisən, eyni zamanda, əks-hücuma da keçməlisən. Ermənistan silahlı bölmələrinin ikinci dəfə atəşkəsi pozmasından sonra Azərbaycan Ordusunun Zəngilan şəhərini və bir çox kəndləri azad etməsi işğalçıya dərs olmalı idi.

Bu baxımdan Ermənistan hökuməti davranışı haqqında ciddi düşünməlidir və əgər atəşkəsin səmərəli olmasını istəyirsə, birincisi, atəşkəsi pozmamaq, ikincisi, işğaldan azad edilmiş əraziləri geri götürməyə cəhd etməmək və işğal olunmuş Azərbaycan ərazilərini boşaltmaq barədə üzərinə ciddi öhdəlik götürməlidir. Əks təqdirdə Azərbaycan Ordusu öz missiyasını sonadək yerinə yetirəcək. İşğal altında olan torpaqlarımız son qarışınadək düşməndən təmizlənəcək və Ermənistan döyüş meydanında çox acı məğlubiyyətlə üzləşəcək.

Bu gün savaş meydanında Ermənistanın itkiləri getdikcə çoxalır, erməni əsgəri silahını, döyüş bayrağını, hərbi texnikasını ataraq qaçır, ya da ağ bayraq qaldıraraq təslim olur. Əsir götürülən erməni əsgəri, yüksək rütbəli zabitlər verdikləri açıqlamalarda Nikol Paşinyana lənət yağdırırlar. Onların zorla bu döyüşlərə cəlb edildiklərini vurğulamaları bir daha Ermənistanın hərbi-terrorçu rejiminin məkrli planlarını ifşa edir. Prezident İlham Əliyevin dediyi kimi, görünən odur ki, onlar neofaşist Ermənistan hakimiyyətinin əsirlərinə çevriliblər.

Əgər Ermənistan bu gün təxribatlarını dayandırsa, konstruktiv davransa, Fransa, Rusiya və ABŞ tərəfindən işlənib hazırlanmış və ölkəmizin sadiq olduğu əsas prinsipləri yerinə yetirsə, danışıqlar aparmaq olar. Yəni məsələnin siyasi həlli mümkündür. Eyni zamanda Ermənistan hakimiyyəti başa düşməlidir ki, indi onlar diktə etmək vəziyyətində deyillər. Çünki status-kvonu, təmas xəttini ləğv edən Azərbaycan yeni reallıq yaradıb və Ermənistan bununla razılaşmağa məcburdur.

### Dağlıq Qarabağda heç bir referendum olmayacaq

Dağlıq Qarabağı geri qaytarandan sonra Azərbaycan dövlətinin xalqların müqəddəratını təyinetmə hüququ və referendumun keçirilməsi ilə bağlı mövqeyinə gəlincə, Prezident birmənalı şəkildə Dağlıq Qarabağda heç bir referendumun olmayacağını və bununla heç vaxt razılaşmayacağını bəyan etdi.

Çünki İlham Əliyev bütün danışıqlar zamanı buna razılıq verməyib və indi torpaqlarımızın böyük bir hissəsini geri aldığımız vaxtda bundan söhbət belə gedə bilməz. Öz müqəddəratlarına gəlincə, onların dövləti var. N.Paşinyanın separatçı rejimin tanınması arzusu da ürəyində qalacaq. Çünki ATƏT-in Minsk qrupunun həmsədr ölkələri belə Qarabağ probleminin Yerevanın ssenarisi çərçivəsində həllinə dəstək vermir. Vaxtilə rəsmi Bakının Dağlıq Qarabağa muxtariyyət statusunun verilməsi təkliflərini qulaqardına vuran erməni tərəfinin bu gün dünyaya yalvarışları mənasız və məntiqsizdir.

"Figaro" qəzetinə müsahibəsində də Prezident Qarabağın gələcəyi ilə bağlı baxışlarını bölüşdü. Bəyan etdi ki, Azərbaycan dövləti Qarabağı insanların ləyaqət və sülh içində, azərbaycanlı və erməni icmalarının yanaşı yaşadığı ölkəmizin çiçəklənən, təhlükəsiz ərazisi kimi inkişaf etdirməyi planlaşdırılan ərazi kimi görür. İqtisadi qüdrəti getdikcə güclənən Azərbaycan Qarabağda yaşayan ermənilər və oraya qayıdacaq azərbaycanlılar üçün daha yaxşı həyat təmin edə bilər. "Ermənistan da daxil olmaqla indiyədək heç kim "Dağlıq Qarabağ respublikası"nı tanımayıb. Əminəm ki, heç kim onu tanımayacaq. Ona görə də Qarabağın gələcəyi üçün, təkcə Dağlıq Qarabağ üçün deyil, bütün Qarabağ üçün, - bu, Azərbaycanın böyük regionudur, - ermənilər və azərbaycanlılar üçün ən yaxşı yol sülh şəraitində, harmoniyada yaşamaq və yenidən yaxşı qonşu olmağa çalışmaqdır. Mənim planım bundan ibarətdir", - deyə dövlət başçısı bildirdi.

Bir sözlə, əgər Ermənistanın hərbi-siyasi rəhbərliyi İlham Əliyevin şərtlərini qəbul edib işğalçı ordusunun torpaqlarımızdan tam olaraq çıxmasını təmin edərsə, savaş dayanacaq. Əks təqdirdə, Ermənistan müharibə məğlubiyyətinə görə düşdüyü dərin kataklizmdən çıxa bilməyəcək. Çünki Azərbaycan Ordusu dayanmayacaq, sonuncu erməni əsgəri torpaqlarımızdan rədd olmayana qədər haqq savaşını davam etdirəcək. Bu gün Füzulidə, Cəbrayılda, Zəngilanda, Murovda, Suqovuşanda dalğalanan bayrağımız tezliklə Şuşada, Kəlbəcərdə, Ağdamda da düşmənə göz dağı verəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# İşğalçı Ermənistan ordusu əsgərlərini özgə torpağında urvatsız ölümə məhkum edir

Prezident İlham Əliyev son günlər dünyanın "CNN International", "CNN-Türk", "Sky News", "Euronews", "Əl-Cəzirə", "Əl-Ərəbiyə" kimi əsas televiziya kanallarına, o cümlədən Türkiyənin nüfuzlu "TPT Haber", Rusiyanın aparıcı "Rossiya-1", "Pervıy Kanal", RBK televiziya kanallarına, digər KİV-ə müsahibələrində və Azərbaycan xalqına müraciətlərində Ermənistanın hərbi-siyasi rəhbərliyinin işğalçılıq xislətini bir daha ifşa etdi. Dövlət başçısı 30 ildir erməni vandallarının törətdiyi vəhşilikləri xatırladaraq son hadisələr üzərində ətraflı dayandı.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev istər daxili, istərsə də xarici auditoriya qarşısında çıxışlarında vurğuladı ki, Ermənistan silahlı qüvvələri bu ilin iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi təxribatın müqabilində aldığı "dərs"dən nəticə çıxarmadı. Sentyabrın 27-də növbəti dəfə təmas xəttində yerləşən kəndlərimizə, hərbi mövqelərimizə hücum etdi. Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başladı.

Bütün dünya Azərbaycan xalqının əzmini, Azərbaycan Ordusunun döyüş qabiliyyətini aydın gördü. Bu günlər vətənpərvər xalqımızın öz Prezidentini necə dəstəklədiyi, onun ətrafında sıx birləşdiyi bir daha təsdiqləndi. "Ali Baş Komandanın bircə əmrinə müntəzirik" deyən Azərbaycan əsgər və zabitləri öz sözlərinin sahibi olduqlarını döyüşdə sübuta yetirdilər. Qısa müddətdə işğal altında olan torpaqlarımızın xeyli hissəsi yağı tapdağından azad edildi. Cəbrayıl şəhəri, Hadrut qəsəbəsi, Murovdağ zirvəsi, Suqovuşan, onlarca kənd və strateji yüksəklik geri alındı. Neçə illərdir yolumuzu intizarla gözləyən yaşayış məntəqələrimizdə Azərbaycan bayrağı dalğalandı.

Cəbhə xətti boyu ermənilərin müdafiə istehkamları yarıldı və ələ keçirildi. Azərbaycan Ordusu 10 gün ərzində Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusuna olmazın zərbələr endirdi. Düşmənin 16 komanda məntəqəsinin darmadağın, 190-dan artıq tankının, çoxsaylı artilleriya qurğularının, raket sistemlərinin məhv edilməsi faktının özü çox söz deyir. Erməni işğalçılarının eləcə də xeyli sayda hərbi texnikası, silah-sursatı ələ keçirildi.

Prezident İlham Əliyev oktyabrın 9-da xalqa müraciətində demişdir: "Düşmənin əlində Azərbaycan Silahlı Qüvvələrinə məxsus olan bir dənə də hərbi texnika yoxdur... Döyüşlərin obyektiv müşahidə mənzərəsi var və istənilən hərbi mütəxəssis görə bilər ki, bu gün Azərbaycan Ordusu döyüş meydanında qələbə əldə edibdir. Azərbaycan Ordusu öz üstünlüyünü göstərir, Azərbaycan əsgəri və zabiti yüksək mənəvi-psixoloji keyfiyyətlər göstərir, mənəvi ruh göstərir. Çünki biz öz torpağımızda vuruşuruq, öz torpaqlarımızı azad edirik. Ermənistanın əsgərləri işğalçılardır. Döyüş gedən torpaq onların torpağı deyil".

Ona görə də erməni əsgəri mövqelərini qoyub qaçır. Azərbaycan əsgəri isə öz torpağı uğrunda baş qoyur, canından keçir.

Ümumiyyətlə, son aylar Azərbaycanın əsgərindən ən yüksək rütbəli zabitinədək hərbçilərimizin hamısı bir daha sübuta yetirdi ki, torpaq əgər uğrunda ölən varsa, vətəndir. Bizim sıravi əsgərimiz düşmən üzərinə şığıyanda onun qarşısında daş da, qaya da, bütün istehkamlar da ram olur. Lazım gələndə generalımız da səngərdə vuruşub, sözün tam mənasında, əsgər kimi şəhid ola bilir. Və hər şəhidimizin xatirəsi bizim üçün əzizdir, müqəddəsdir. Hər biri anılır, xatırlanır, örnəyə, nümunəyə çevrilir.

İşğalçı Ermənistan ordusu isə əsgərlərini özgə torpağında urvatsız ölümə məhkum edir.

Torpaqlarımızı işğal edən (əlbəttə, bu, müvəqqətidir), nəqmələrimizi oğurlayan, mətbəximizə sahib çıxmağa can atan ermənilər çox güman ki, atalar sözlərimizi də eşitməmiş olmazlar. Belə isə, arığın nə işi var qoruqda... Erməni əsgəri əzəli-əbədi, ata-baba Azərbaycan torpağı olan Qarabağda nə axtarır? Onun Goranboyda, Tovuzda, digər bölgələrimizdə itirdiyi nə isə varmı? Yoxdur. İtirilən erməni siyasətçilərinin ağlıdır, müqabilində tapdıqları isə məğlubiyyət, rüsvayçılıq, biabırçılıq və ucuz ölümdür.

"Sky News" televiziya kanalına müsahibəsində dövlət başçısı bunu olduqca aydın və sərt şəkildə ifadə edərək vurğulamışdır: "Bizim əsgərlərimiz öz torpağımız uğrunda həlak olurlar. Bizim əsgərlərimiz tarixi və beynəlxalq səviyyədə tanınmış Azərbaycan torpağında həlak olurlar. Erməni əsgərləri hansı torpaqda ölürlər? Onlar Füzulidə ölürlər, Cəbrayılda ölürlər, onlar digər Azərbaycan ərazisində ölürlər. Onların orada nə işləri var? Siz Paşinyandan soruşmalısınız onun əsgəri orada nə edir?"

Ermənistanın baş naziri Nikol Paşinyan törətdiyi olmazın bədnam əməllərdən ar etməyərək bütün dünyadan imdad istəyir. Guya onun başçılıq etdiyi erməni faşistlərinin heç bir günahı yoxdur, guya onları haqsızcasına çapıb-talayırlar, öldürürlər. Belə olanda ata-babalarımız yaxşı deyib: "Oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı".

Amma, yox! Vəhşi düşmən nə qədər təxribat törətsə də, məğlubiyyətindən hiddətlənsə də, daha da azğınlaşıb dinc əhalini - körpəni, qadını, qocanı qətlə yetirsə də, Azərbaycan xalqının bağrı yarılan deyil. Çünki bunlar düşmənin acizliyini göstərən hərəkətlərdir və biz getdikcə mənən cılızlaşan, hər sahədə ondan güclü olduğumuz düşmənə qalib gələcəyik.

"Biz torpaqlarımızı azad edəcəyik, ərazi bütövlüyümüzü bərpa edəcəyik! Düşməni ondan sonra da qovacağıq", - deyir Prezidentimiz. Azərbaycan Ordusu buna qadirdir. Azərbaycan xalqı buna inanır. Azərbaycan bayrağının işğal edilmiş bütün torpaqlarımızda qaldırılacağı gün uzaqda deyil.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Erməni lobbisinin Fransanın "TF1" kanalına qarşı təhqir və təhdidləri ilə bağlı dünyanın aparıcı media qurumlarına, beynəlxalq təşkilatlara müraciət olunub

Azərbaycan Mətbuat Şurası Fransanın "TF1" telekanalının yerli erməni lobbisi tərəfindən təhqir və hədə-qorxularla üzləşməsi ilə bağlı dünyanın aparıcı media qurumlarına, insan hüquqları birliklərinə və beynəlxalq təşkilatlara müraciət edib. Mətbuat Şurasından AZƏRTAC-a daxil olan müraciətdə deyilir ki, 2020-ci il sentyabrın 27-dən aktiv hərbi əməliyyatlar mərhələsinə keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması olduqca vacibdir. Bu, həm Azərbaycan xalqının haqlı mövqeyinin təbliği, həm də ümumən dünyanın Qarabağ məsələsinə ədalətli münasibətinin formalaşması baxımından müstəsna əhəmiyyət daşımaqdadır.

Torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal edildiyi Azərbaycanın 1 milyondan çox qaçqın və köçkünü var. Onlar Dağlıq Qarabağı və işğal edilmiş yeddi rayondakı evlərini məcburi tərk etmiş vətəndaşlarımızdır. Bir insanın 30 il doğulduğu, boya-başa çatdığı torpağa, yaşadığı evə gedə bilməməsinin nə demək olduğunu təsəvvür edə bilməzsiniz. Xalqımız bu məhrumiyyətlərlə yaşamaqdadır.

Təəssüf ki, dünya ictimaiyyəti ötən 30 ildə sadaladığımız reallıqlara biganə qalıb. Bu, 1 milyon azərbaycanlının taleyinə biganəlikdir. Hərbi əməliyyatların intensivləşdiyi hazırkı şəraitdə Qərbin bir sıra kütləvi informasiya vasitələri Qarabağ həqiqətlərinə yenə ədalətsiz və qərəzli yanaşırlar. Bütün bunları görürük və Azərbaycanla bağlı ədalətli mövqe nümayiş etdirən KİV-in işinə dəyər verir, onların fəaliyyətini yüksək qiymətləndiririk. Fransanın "TF1" telekanalına rəğbətimiz də məhz bundan qaynaqlanır.

Telekanalın əməkdaşı xanım Liseron Budul Dağlıq Qarabağ münaqişəsindəki hazırkı durumu peşəkarlıqla diqqətə çatdırıb, özü şəxsən hərbi əməliyyatların getdiyi ərazidə, Ermənistanın Azərbaycanın mülki əhalisini kütləvi qırğın silahları ilə atəşə tutduğu Gəncə, Tərtər və digər bölgələrində olub. Onun hazırladığı material çalışdığı telekanalda yayımlanıb.

"Onu da təəssüflə bildirməliyik ki, "TF1" telekanalı bu reportajı yayımladıqdan sonra Fransadakı erməni lobbisinin üzvləri media orqanına və xanım Liseron Budula qarşı təzyiqlərə başlayıb. Onların açıq təhqirləri, ölüm hədə-qorxuları o həddə çatıb ki, telekanal həmin materialı sistemindən silmək məcburiyyətində qalıb.

Azərbaycan Mətbuat Şurası olaraq Fransa kimi bəşəri ənənələrə malik ölkədə demokratizmin mühüm göstəricisi sayılan söz azadlığına qarşı ağlagəlməz basqıdan hiddətlənir, faktı qətiyyətlə pisləyirik. İfadə etdiyimiz mövqe bütövlükdə Azərbaycan jurnalistlərinin məsələyə sərt yanaşmasıdır.

Erməni lobbisinin özbaşınalığını ümumilikdə Qərb dəyərlərinə münasibətdə ciddi təhdid kimi qiymətləndiririk. Bu təhdid, eyni zamanda, qitə üçün olduqca mənfi presedentdir və əgər qarşısı alınmasa, daha ciddi fəsadlar törədə bilər. Düşünmək mümkündür ki, Avropanın istənilən ölkəsinin media orqanları tərəfindən Azərbaycan, Dağlıq Qarabağ həqiqətləri ilə bağlı hazırlanmış obyektiv, qərəzsiz süjetlər, reportajlar erməni lobbisi tərəfindən təhdidlə qarşılanacaq. Sizlərdən belə bir acınacaqlı durumu yalnız təsəvvürə gətirməyinizi xahiş edirik. Biz Avropa cəmiyyətində söz və ifadə azadlığı üçün qorxunc mənzərə görürük. İstərdik ki, sizlər də görəsiniz və önləyici tədbirlərin həyata keçirilməsi üçün dəstəyinizi əsirgəməyəsiniz.

"TF1" telekanalının üzləşdiyi təzyiq nəinki Fransada, ümumilikdə Avropada qanunçuluğa təhdiddir. Bu təhdid söz və ifadə azadlığı kimi ali dəyərləri heçə saymağı, mediaya, jurnalistə qarşı təzyiqi, hədə-qorxunu normaya çevirə bilər. İstərdik ki, bunu da nəzərə alasınız.

Biz, Azərbaycan jurnalistləri Sizləri - dünyanın aparıcı media qurumlarını, insan hüquqları birliklərini və beynəlxalq təşkilatları Fransanın "TF1" telekanalına, onun əməkdaşı Liseron Budula qarşı Fransadakı erməni lobbisi tərəfindən həyata keçirilməkdə olan mənəvi təzyiqlərə, hədə-qorxulara biganə qalmamağa çağırırıq.

Biz Fransa hakimiyyəti orqanlarını "TF1" telekanalı ilə bağlı yaranmış durumu ciddi nəzarətə götürməyə səsləyirik. Arzu edərdik ki, Fransa hakimiyyəti hazırkı vəziyyətin həssaslığını nəzərə alaraq erməni lobbisi tərəfindən ölümlə hədələnən xanım Liseron Budulun həyatı üçün təhlükə yarandığını düşünsün.

İstərdik ki, "TF1" telekanalı vaxtilə Məhəmməd Peyğəmbərlə bağlı karikatura yayımladığı üçün təzyiqlərlə üzləşən "Charlie Hebdo" satirik jurnalı kimi Fransa hakimiyyəti tərəfindən təhlükəsizlik himayəsinə alınsın.

Bir daha sizləri "TF1" telekanalı ilə bağlı diqqətə çatdırdığımız məsələyə həssas yanaşmağa, söz və ifadə azadlığına qarşı açıq təhdidlərə susmamağa, məsələyə ciddi mövqe nümayiş etdirməyə çağırırıq. Qətiyyətinizə əminliyimizi bildiririk", - deyə müraciətdə bildirilir.



# Bielefelddə Gəncə terroruna qarşı etiraz yürüşü keçirilib

Almaniyanın Bielefeld şəhərində yaşayan soydaşlarımız Alman-Azərbaycan Mədəniyyət Cəmiyyətinin təşkilatçılığı ilə Bielefeld Hauptbahnhof stansiyasından Kundgebung meydanına doğru yürüş ediblər.

Diaspora Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan və türk icmalarının iştirak etdiyi yürüş Ermənistan ordusunun Azərbaycanın bir sıra rayon və şəhərlərini, o cümlədən Gəncə şəhərini raket atəşinə tutması nəticəsində mülki şəxslərin qətlə yetirilməsinə etiraz olaraq təşkil olunub.



Yürüş iştirakçıları Ermənistan silahlı qüvvələrinin dinc əhalini hədəf almasını insanlığa qarşı törədilən cinayət adlandırıb, işğalçı və terror siyasəti yürüdən Ermənistanın beynəlxalq hüquq normalarını kobud şəkildə pozduğunu bildiriblər.

Yürüş iştirakçıları müxtəlif dillərdə "Qarabağ Azərbaycandır!", "Gəncə üçün dua et!", "Erməni terrorçuluğuna son!", "Mülki insanlar toxunulmazdır!", "Uşaq ölümünə son!", "Biz terrora yox deyirik", "İşğalçı dövləti dəstəkləməyin!", "Ermənistan, BMT qətnamələrinə əməl et!" "Ermənistana inanma", "Ermənistanın işğalına son!" "Ermənistanın təcavüzünə son", "Erməni terroruna son" kimi şüarlar səsləndiriblər.

# Ermənistanın işğalçılıq siyasəti bu dəfə CNN televiziyasında ifşa edildi

Ermənistanın işğalçılıq siyasəti bu dəfə CNN televiziyasında ifşa olundu. Belə ki, Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan oktyabrın 23-də tanınmış xanım aparıcı Kristin Amanpura müsahibə verib.

AZƏRTAC xəbər verir ki, müsahibə başlamamışdan əvvəl qısa şərh verən aparıcı Dağlıq Qarabağın rəsmi şəkildə Azərbaycanın tərkib hissəsi olduğunu bildirir. Beləliklə, müsahibəyə başlamazdan əvvəl tamaşaçıları problemin mahiyyəti barədə məlumatlandırmış olur. Daha sonra Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun fikirlərindən sitat gətirərək ölkəmizin mövqeyini, BMT Təhlükəsizlik Şurasının mövcud qətnamələrini diqqətə çatdırır. Mnatsakanyan isə beynəlxalq hüquq müstəvisindən deyil, sadəcə, boş fikirlər səsləndirir və guya dinc ermənilərin müharibə zamanı qətlə yetirildiyini bildirir. Elə həmin anda Gəncədə mülki obyektlərə atılan atəş nəticəsində dağılmış evlərin görüntüsü yayımlanır. Bu, erməni nazirin uydurma iddialarına ən tutarlı cavab olur.

Aparıcı yenidən BMT Təhlükəsizlik Şurasının qətnamələrini xatırladır. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunması faktını səsləndirir və 2008-ci il martın 14-də BMT Baş Assambleyasının iclasında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamənin qəbul olunduğunu xatırladaraq, sənəddə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının və azərbaycanlı əhalinin öz evlərinə geri qayıtmasının tələb olunduğunu qeyd edir.

Kristin Amanpur daha sonra baş nazir Nikol Paşinyanın "Qarabağ Ermənistandır" kimi sərsəm bəyanatına istinad edərək bunun Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi niyyətindən xəbər verdiyini deyir və bu millətçi açıqlamanın nəyə hesablandığını soruşur. Erməni nazirin suala konkret cavab vermədiyini görən aparıcı xanım Amanpur bir daha "Bu açıqlama, Ermənistanın Qarabağı özünə birləşdirmək istəməsi kimi qəbul edilə bilərmi?" sualını verir. Müsahibə boyu cavablarında obyektiv yanaşma sərgiləməyi bacarmayan nazir bu suala cavabında da Paşinyanın fikirlərinin gah kontekstdən çıxarıldığını dedi, gah da dolayısı yolla bu açıqlamanın beynəlxalq hüquqa zidd olduğunu etiraf etmiş oldu. Bu müsahibə bir daha göstərdi ki, artıq beynəlxalq ictimaiyyət də Ermənistanın iddialarının heç bir hüquqi əsasının olmadığını qəbul edir və bu ölkənin işğalçılıq siyasətinə son qoymasını tələb edir. Xatırladaq ki, Ermənistanın baş naziri Nikol Paşinyan bir müddət əvvəl BBC telekanalında yayımlanan "HardTalk" verilişinə və BBC-nin müxbiri Conah Fişerə müsahibələrində də beynəlxalq hüququ tapdadıqlarını, aqressiv siyasət yürütdüklərini nümayiş etdirmişdi.

# Müharibə və koronavirus Paşinyanın sonunu gətirir

*Əvvəli 1-ci səh.*

Onun sözlərinə görə, ölkədəki həkimlər koronavirus xəstələrini və ya yaralı əsgərləri seçmək kimi çətin vəziyyətlə üzləşiblər. Abovyan onu da qeyd edib ki, yoluxma sayında kiçik artım gözlənilirmiş: "Birincisi, mövsümi kəskinləşməyə görə, ikincisi, məhdudiyyətlərin və fövqəladə vəziyyət rejiminin aradan qaldırılmasına görə. Ancaq belə şiddətli artımı heç kim proqnozlaşdırmırdı. Yoluxmada rekord saylar ilk növbədə üç sadə qaydaya riayət edilməməsi ilə bağlıdır: qoruyucu maska taxılmaması, sosial məsafəyə riayət olunmaması və əllərin dezinfeksiya edilməməsi. Vətəndaşlar yalnız arxa cəbhəni deyil, ön cəbhəni də zəiflətdiklərini anlamadan müharibə bəhanəsi ilə tibbi maska taxmaqdan imtina edirlər".

Xatırladaq ki, pandemiyada "İtalyan modeli" termini İtaliyada bir gündə on minlərlə insanın təhlükəli infeksiyaya yoluxması, bəzən sutkada minlərlə insanın koronavirusdan ölməsindən sonra yaranıb. İndi Ermənistan da eyni təhdidlə üz-üzədir. Özü də bütün bunlar cəbhə zonasında Ermənistanın çoxsaylı itkilərlə üzləşməsi fonunda baş verir. Bu hal Nikol Paşinyan iqtidarının Ermənistandakı dayaqlarını daha sürətlə sarsıdır.

Erməni politoloq Agasi Yenokyan da baş nazirin ermənilərin ümidlərini doğrultmadığını qeyd edir. O, əsasən mətbuat sahəsindəki vəziyyətdən danışaraq bildirib ki, Paşinyan hərbi vəziyyət bəhanəsi ilə tətbiq etdiyi senzuradan daha çox siyasi rəqiblərini susdurmaq məqsədilə istifadə edir: "Vətəndaşları polisə aparırlar və Nikol Paşinyanın ailəsi haqqında kifayət qədər günahsız qeydlərə görə cərimə edirlər. Eyni zamanda, hakimiyyətin himayədarlıq etdiyi jurnalistlər və KİV məhdudiyyətlər olmadan yalan yayırlar. Əslində medianın məhdudiyyətləri müharibə vəziyyəti haqqında deyil, müxalifətçiləri susdurmaq üçündür. Bu böhran vəziyyətində belə hakimlər üçün ən vacib olan kürsülərinə yapışmış vəziyyətdə qalmaqdır, milli birlik əvəzinə, səlahiyyətlilər tərəfindən müharibə vəziyyətində daxili siyasi təzyiqlər davam etdirilir və azad sözə qarşı kampaniya bu təzyiqlərin ən vacib komponentidir".

Ermənistan həm də başqa bir problemin məngənəsində sıxılır. Söhbət Dağlıq Qarabağı tərk edən on minlərlə ermənin ölkə üçün əlavə sosial problemlər yaratmasından gedir. Ölkənin xarici işlər naziri Zöhrab Mnatsakanyan deyib ki, 90 min Qarabağ ermənisi Ermənistana qaçıb. Dağlıq Qarabağın erməni əhalisi 146 min nəfər olub. Onların 55,2 mini Xankəndidə, 24,3 mini Xocavənddə, 19,9 mini Ağdərədə, 18,1 mini Əsgəranda, 13,6 mini Hadrutda, 9,3 mini Laçın, Qubadlı və Zəngilanda, 5,4 mini Şuşada, 3,1 mini Kəlbəcərdə yaşayırmış. İndi onların böyük qisminin Ermənistana üz tutması ölkədə ciddi sosial problemlərə yol açıb.

Hazırda Paşinyana olan təzyiqlərin biri də ordudakı problemlərlə bağlıdır. Ermənistanın müdafiə nazirliyinin rəsmisi Artsrun Ovannisyan medianın "biz müharibəyə hazır idikmi" sualına cavab olaraq qeyd edib ki, ordudakı mövcud çatışmazlıqların aradan qaldırılması uzun və çoxillik prosesdir. Azərbaycan Ordusunun ən müasir döyüş texnikası və silahlardan istifadə etdiyini bildirən Ovannisyan bildirib ki, onlar uzun illər ərzində hərbi xərclərdə çox geri qalıblar: "Onlar çoxlu pul xərcləyiblər, biz isə çox az. Beləliklə, bugünkü problemin səbəbi çoxillik prosesin nəticəsidir. Azərbaycan dronlarının tam ram edilməsi hələ dünyanın heç bir ordusuna nəsib olmayıb. Kiçik ölçülü və çoxsaylı PUA onunla mübarizə aparmaq imkanını qat-qat azaldır. Hətta onlarla HHM sistemi ilə müdafiə olunan müasir ordular belə PUA hücumunun öhdəsindən gələ bilmir".

Ermənistanda çörək, süd, ət və digər zəruri qida məhsullarının qiymətləri gündən-günə artır, inflyasiya həddi, işsizlik göstəriciləri yüksəlir. Cari ilə nəzərdə tutulan 4 milyard dollarlıq büdcəni 2,3 faiz kəsirlə proqnozlaşdıran Ermənistanda hazırda büdcə kəsiri 5,4 faizə çatıb, xarici borclarının ÜDM-də payı 60 faizi ötüb. Ölkədə rəsmi işsizlik səviyyəsi 20 faizin üzərindədir, bu səbəbdən gənclərin miqrasiyası artır.

Beləliklə, görünən budur ki, Paşinyan getdikcə ölkəni daha dərin uçuruma aparır. Ermənistan əhalisi isə onlar üçün mənasız müharibədə döyüşmək istəmir. Hətta Qarabağda erməni icmasının gəncləri bölgəni tərk edib. Ermənistan hakimiyyəti düşdüyü məğlub vəziyyətdən çıxmaq üçün yol axtarır. Ancaq daxili kin, hikkə və nifrət onlara reallığı dərk etməyə imkan vermir. Bu da işğalçı ölkənin məğlubiyyətini daha qaçılmaz hala gətirir. Bundan istifadə edən Paşinyanın rəqibləri onu devirməyə can atır. Xüsusən keçmişdə iqtidarda olmuş hərbi xunta bu istiqamətdə aktiv fəaliyyətdədir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



# Arxa cəbhə



## Gənclər balaca Xədicəyə dəstək olublar



**Sentyabrın 27-də cəbhədə döyüşlərin başladığı vaxtdan YAP Gəncə şəhər təşkilatının fəal fəalları, könüllüləri arxa cəbhədə Vətən qarşısında borclarını yerinə yetirməyə çalışır, əllərindən gələn köməkləri əsirgəmirlər.**

Şəhər sakinləri arasında təbliğat və maarifləndirici tədbirlərin həyata keçirilməsində, düşmənin informasiya təxribatlarının qarşısının alınmasında, Vətən uğrunda canlarından keçən şəhidlərin dəfnində, ağır raket atəşinə tutulmuş, yaşayış yerlərini müvəqqəti tərk etmək məcburiyyətində qalmış və təhlükəsiz yerlərdə yerləşdirilmiş uşaq, qadın və qocalara humanitar kömək göstərilməsində, o cümlədən dərman, gigiyenik vasitələrin paylanmasında, ərzaqla təmin edilməsində gənclər böyük ruh yüksəkliyi ilə iştirak edirlər.

İşğalçı Ermənistan ordusunun raket zərbələri nəticəsində Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarının yerlə-yeksan edildiyi, dinc sakinlərin qətlə yetirildiyi, yaralandığı hər terror aktında YAP Gəncə şəhər təşkilatının gəncləri ziyan görmüş mülki vətəndaşların, gözüyaşlı sakinlərin yanında olub, onlara dəstək olmağa çalışıblar. Növbəti dəfə gənclər oktyabrın 17-də erməni silahlılarının Gəncəyə atdığı raket zərbəsindən həlak olan Şahnəzərovlar ailəsindən yeganə sağ qalan balaca Xədicəyə baş çəkiblər. Gənclər gördükləri dəhşətdən hələ də özünə gələ bilməyən balaca Xədicəyə müxtəlif oyuncaqlar, gəlinciklər hədiyyə edib, maddi və mənəvi dəstək göstəriblər.

Qeyd edək ki, həmin gecə Xədicə Şahnəzərovanın atası, anası və yaşyarımlıq bacısı Mədinə erməni vandalizminin qurbanı olublar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## "SOCAR Turkey" sosial media mükafatı alıb

"SOCAR Turkey" bu il onlayn formada keçirilən "Social Media Awards Turkey" mükafatının enerji şirkətləri kateqoriyasında sosial medianı ən yaxşı istifadə edən marka kimi qızıl mükafat alıb.

AZƏRTAC şirkətə istinadla xəbər verir ki, "Marketing Türkiye" və "Tick Tock Boom"un 4 ildir təşkil etdiyi və 55 min şirkətin qiymətləndirildiyi Türkiyənin ən prestijli və etibarlı sosial media yarışması olan "Social Media Awards"da "SOCAR Turkey" 4-cü dəfə öz kateqoriyasında zirvədə yer alıb.

Qeyd edək ki, SOCAR 2008-ci ilin mayından etibarən Türkiyədəki fəaliyyətini STEAŞ adı ilə davam etdirir. "SOCAR Turkey" TANAP-ın səhmlərinin 7 faizinə sahibdir.



## Qəbələdə əsas kapitala yönəldilən investisiyanın həcmi 2,3 dəfə artıb

Bu ilin yanvar-sentyabr aylarında Qəbələ rayonunda iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələri hesabına əsas kapitala 74 milyon 929,5 min manat investisiya yönəldilib.

Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 2,3 dəfə çoxdur. İnvestisiyaların 74 milyon 443,5 min manatı və ya 99,3 faizi tikinti işlərinə sərf edilib.

Bu barədə AZƏRTAC-a Qəbələ Rayon Statistika İdarəsindən məlumat verilib.

Bildirilib ki, əsas kapitala yönəldilən investisiyaların 71 milyon 74,7 min manatı və ya 94,8 faizi dövlət, 3 milyon 854,8 min manatı və ya 5,2 faizi qeyri-dövlət sektorunun payına düşüb.

Doqquz ayda rayonda vətəndaşlar tərəfindən ümumi sahəsi 5 min 870 kvadratmetr, dəyəri 8 milyon 640 min manat olan 55 fərdi yaşayış evi inşa edilib.

**1990-cı illərin sonundan fəaliyyət göstərən Bakı-Novorossiysk və Bakı-Supsa xətləri, 2006-cı ildən istifadəyə verilən Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz Boru Kəməri marşrutları Azərbaycandan karbohidrogenləri indiyədək fasiləsiz, təhlükəsiz şəkildə dünya bazarlarına ixrac edir. Erməni terrorçuları və vandalları son günlər Yevlax rayonunun Aran qəsəbəsinə və Xızı rayonuna - Sitalçay ərazisinə raketlər tuşlayaraq məhz həmin mühüm əhəmiyyətli obyektləri hədəfə alıblar. Raketlər ölkəmizin hava hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilib və xoşbəxtlikdən, yaxınlıqda yaşayan əhaliyə, eləcə də neft-qaz kəmərlərinə ziyan dəyməyib.**



## Tərəfdaşlarımızla yeni layihələr gerçəkləşdirəcəyik - həm də işğaldan azad etdiyimiz torpaqlarda!

### Bu fikir dövlət başçısının Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsində də vurğulandı

Erməni faşistləri Azərbaycanı bu kəmərlərə, həmçinin Səngəçal terminalına hücum edəcəkləri ilə hədələyirlər. Bu da onların qan tökmək, odla oynamaq xislətindən qaynaqlanır. .

Prezident İlham Əliyev Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsində bu məsələyə də toxunmuşdur: "Bizim kəmərlərimiz bizim ərazimizdə lazımi qaydada qorunur. Lakin, əlbəttə, biz Ermənistanın rəsmi nümayəndələrindən hədələr eşitmişik ki, onlar bizim kəmərlərimizə hücum edəcəklər, neft-qaz nəqli üçün mühüm olan Səngəçal terminalına hücum edəcəklər. Lakin bu da onların terrorçu xislətinin bir hissəsidir. Çünki onlar açıq şəkildə bəyan edirlər ki, mülki infrastruktura hücum edəcəklər. Əlbəttə ki, əgər onlar bunu etsə, peşman olacaqlar. Çünki bizim tərəfimizdən və həmçinin enerji təhlükəsizliyinin bir hissəsini Azərbaycandan təmin edən ölkələr tərəfindən sərt şəkildə cəzalandırılacaqlar. Həmin ölkələrin reaksiyası necə olacaq? Bu kəmərlərə milyardlarla dollar investisiya yatırılıb. Beynəlxalq banklar, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və başqaları kimi bütün aparıcı beynəlxalq banklar investisiya yatırıb. Ona görə də, Ermənistan rəhbərliyi bu cür variant barədə yaxşı düşünməlidir. Əlbəttə, qeyd etdiyim kimi, Azərbaycan özü onları sərt şəkildə cəzalandıracaq və mən düşünmürəm ki, onlar bunu, daha bir müharibə cinayətini etməyə cürət göstərəcəklər".

TAP-la (Trans-Adriatik Qaz Boru Kəməri) əlaqədar sualı cavablandırarkən dövlət başçısı bildirib ki, bu kəmərlə bağlı bütün işlər qrafikə uyğun gedir. Belə ki, TAP-ın tikintisi artıq tamamlanıb və yaxın vaxtlarda kəmərin rəsmi açılışı gözlənilir.

Azərbaycanın iri neft-qaz və ixrac layihələrində Yaponiyanın "İtoçu","İnpeks" kimi tanınmış şirkətləri də iştirak edir və sözügedən müsahibədə müharibə mövzusu ilə yanaşı, bu məsələlərdən də bəhs olunması təsadüfi deyil. Ümumiyyətlə isə Azərbaycanın dünyada sənaye üsulu ilə neft istehsal edən ilk ölkə kimi bir çox jurnalistlər, o cümlədən "Nikkei"nin əməkdaşları üçün maraqlı olması da təbiidir.

Ölkəmizin karbohidrogen ehtiyatları hələ çoxdur. Artıq böyük həcmdə təbii qaz ixrac etməyə başlamışıq. Qarşıdakı onilliklərdə neft istehsalı da sabit qalacaq. Azərbaycan dövləti düzgün və uzaqgörən siyasət yeridərək bununla yanaşı, qeyri-neft sektorunun inkişafına xüsusi önəm verir. Odur ki, sözügedən müsahibədə ölkəmizin postneft dövrünə necə keçəcəyi və həmin vaxt Yaponiya şirkətlərindən hansı gözləntilərimiz olacağı barədə də sual səsləndirilib.

Yaponiya şirkətləri Azərbaycanda, həmçinin elektrik enerjisi sahəsində fəaliyyət göstərir. Yaponiya banklarından alınan kreditlərlə Bakıda iki böyük elektrik stansiyası tikilmişdir. Onların gücü 800 meqavata yaxındır. Bu stansiyalar elektrik enerjisi istehlakımızın və ixracımızın əhəmiyyətli hissəsini təmin edir. Gələcək əməkdaşlıq üçün də perspektivlər var və dövlət başçısı bu barədə demişdir: "Yaponiya şirkətlərini hazırda prioritetlərdən biri olan bərpaedilən enerji sahəsində görmək istəyirik. Biz artıq bəzi investorlarla ilkin razılaşmalar imzalamışıq. Beləliklə, əminik ki, çox ümidverici olan və xüsusilə Abşeron yarımadasında günəş və çoxlu külək sayəsində potensialı olan bu sahədə və bir çox başqa sahələrdə əməkdaşlıq olacaq. Bu gün Yaponiya şirkətləri ilə avadanlıq, maşınqayırma, texnologiya, eləcə də kənd təsərrüfatı sahələrində əməkdaşlığımız var. Biz Yaponiya ilə Azərbaycan arasındakı iqtisadi əməkdaşlığın səviyyəsindən məmnunuq".

Prezidentimiz Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı gündəliyi olduğunu və bu prosesin uğurla davam etdiyini də vurğulayıb. Doğrudur, son aylarda dünyanı sınağa çəkən koronavirus pandemiyasının mənfi təsiri ölkəmizdən də yan keçməyib. Bu il ümumi daxili məhsul aşağı düşür, lakin geriləmə o qədər də ciddi deyil - 4 faizdən aşağıdır . Bəzi başqa ölkələrlə müqayisə bunun pis nəticə olmadığını göstərir. Qeyri-neft sənayesində hətta artıma nail olunub. Bu, şaxələndirmə proqramının uğurla icra olunduğunun daha bir göstəricisidir. Sənayenin, biznes imkanlarının, turizmin, innovasiya sektorunun və kənd təsərrüfatının pandemiyadan əvvəl sürətlə inkişaf etdiyi bildirilib. Əsas məsələ kimi isə indi Azərbaycanın öz ərazilərini işğaldan azad etdiyi qeyd olunub: "Biz, ilk olaraq, on minlərlə hektar torpağı su ilə təchiz edəcək çox mühüm su anbarını azad etdik. Ermənistan faktiki olaraq bizə qarşı ekoloji terror törədib. Onlar Tərtər çayının qabağını bağlayırdılar və beləliklə, yüz minlərlə hektar torpaq su ilə təchiz olunmurdu. Onlar bunu yayda, insanların ehtiyacı olanda bağlayırdılar və qışda açırdılar, bu isə daşqına səbəb olurdu. Beləliklə, Ermənistanın terrorçu xisləti hər addımdadır".

Düşmən tapdağından xilas etdiyimiz ərazilərdə həyat yenidən qaynayacaq. Bu yerlərin müxtəlif məhsullar becərmək, mal-qara saxlamaq üçün çox münbit torpaqları var. Əlbəttə, bu, kənd təsərrüfatının inkişafına yeni təkan verəcək. Ərazilərimizin azad edilməsi ilə əlaqədar aqrar sahənin gələcək inkişafına artıq başlanıb.

Xatırladaq ki, Azərbaycan son illər mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması yaradıb. Bu, bir çox digər ölkələrlə birlikdə qlobal layihələr gerçəkləşdirməyimizə imkan verib. Yaponiyanın "Nikkei" qəzetinə dövlət başçısının müsahibəsi də göstərdi ki, tərəfdaşlarımızla münasibətlərimiz uğurla davam edir. Biz yeni-yeni layihələr gerçəkləşdirəcəyik. Həm də təkcə neft-qaz sektorunda deyil, iqtisadiyyatın bir çox sahələrində. Həm də işğaldan azad etdiyimiz torpaqlarda!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## İndi bütün Azərbaycan hünər meydanıdır

30 ilə yaxın idi ki, Qarabağ erməni işğalçılarının tapdağı altındaydı. Münaqişənin sülh yolu ilə həll edilməsi üçün ATƏT-in Minsk qrupu yaradılsa da, onun həllində heç bir irəliləyişə nail olunmamışdı. Doğrusu, məsələnin həlli bu üçlüyün səlahiyyətləri və iradələri çərçivəsində də deyildi, çünki onların işi "vasitəçilik" etmək olub.



Lakin səbrin də həddi var. Ermənistanın baş naziri Nikol Paşinyanın "Dağlıq Qarabağ Ermənistandır, nöqtə" deməsi məsələnin danışıqlar yolu ilə həll edilməsinə nöqtə qoydu. İndi söz rəşadətli Ordumuzundur. Əsgərlərimizlə birlikdə bütün xalqımız qanımıza susamış yağı düşmənlə mübarizə yox, artıq müharibə aparır və bu ölüm-dirim savaşında biz heç vaxt olmadığı kimi bir və həmrəyik.

Bu gün hər kəs ordumuz, əsgərlərimiz, qələbəmiz haqqında fikirləşir. Gənclərimiz qələbəmizi təmin etmək üçün könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli rayon şöbələrinə müraciət edirlər. Təkcə gənclər deyil, ahıllar belə, döyüşə atılmağa hazır olduqlarını bildirirlər. Hamı istəyir ki, bacardığı qədər ordumuza kömək etsin. Analar haqq savaşında qələbə çalmağımız üçün dualar edir, qurbanlar deyirlər.

Cəbhədən gələn xoş xəbərlər isə ürəkləri sevindirir. İşğaldan azad olunan şəhər, qəsəbə və kəndlərimizdə, strateji yüksəkliklərdə dalğalanan bayrağımız hər birimizi qürurlandırır. Uzun illərdən bəri suya həsrət qalmış rayonlarımızda Suqovuşanın azad edilməsi sayəsində əkin sahələri cana gəlir.

Haqq-ədalət savaşında bizə inam, güc-qüvvət verən Ali Baş Komandanımız İlham Əliyevlə həm də Türkiyə və onun Prezidenti Rəcəb Tayyib Ərdoğanın, qardaş türk xalqının hər an yanımızda olması, bizi siyasi-mənəvi baxımdan dəstəkləməsidir. Bu birlik, bu qardaşlıq azğın düşmənin, onun havadarlarının istər siyasi-diplomatik, istərsə də savaş yoluna basılmaz sədd çəkib.

İnam başladığın işi sona çatdırmağa stimul verən əsas şərt olsa da, öz-özünə yaranmır, bunun üçün ölçülüb-biçilmiş siyasət, strategiya və taktika lazımdır. Qarabağın 30 ildən çox düşmən tapdağı altında qalması hər birimizə ruhən əzab verirdi və o üzdən xalqımız bu əzabdan xilas olmağa tələsirdi. Güclü dövlətlərin qoltuğuna qısılan düşmən isə hiyləgərliyindən qalmırdı.

Amma hər şeyin öz vaxtı vardı. Nəyi nə zaman etməyi yaxşı bilən Ali Baş Komandan bu dəfə də nə qədər praqmatik və eyni zamanda qətiyyətli lider olduğunu göstərdi. Özü də təkcə göstərmədi, həm də eyni vaxtda bir neçə cəbhədə gedən mübarizənin sərkərdə kimi önündə oldu.

Bu gün qələbə müjdəli xəbərlər hər kəsin ürəyini qürur hissi ilə doldurur, sevincdən hər kəsin gözləri yaşarır. Bu hissləri bizə yaşadansa ordumuzdur. Ordumuzun güclü olması isə ölkəmizin iqtisadi gücü ilə bağlıdır. Bunu yaxşı bilən hər bir vətəndaşımız qələbəyə öz işi, əməli ilə kömək etməyə çalışır. Arxa cəbhədəki əmək coşqusu göz qabağındadır. Pambıq tarlaları, meyvə bağları, çay plantasiyaları da bu gün hünər meydanıdır. Çətin pandemiya şəraiti olmasına baxmayaraq, hər kəs çalışır ki, alın təri və min bir zəhmətlə yetişdirdii nemətləri tez, itkisiz yığıb təhvil versin. Eyni zamanda fermerlər, torpaq mülkiyyətçiləri gələn ilin məhsulu üçün toxum səpirlər, heyvandarlar mal-qaranın qışdan gümrah çıxarılması, ət-süd məhsullarının azalmaması üçün işlərini sahmana salırlar.

Biləsuvarlı fermer Lətif Cəfərov ömrünün 85 payızında da yorulmaq bilmədən çalışır. Bu il taxıl əkdiyi sahələrin hər hektarından 45 sentnerdən çox məhsul götürüb. O həm də təcrübəli pambıqçıdır. Hazırda əkib-becərdiyi pambığın yığılması ilə məşğuldur. İlin çətin gəlməsinə baxmayaraq, hər hektardan 50 sentner məhsul götürmək fikrindədir. Qabaqcıl fermer əkinçiliklə yanaşı, heyvandarlıqla da məşğuldur. Təsərrüfatında 50 başdan çox iri, 200 başdan artıq xırda mal-qarası var. Deyir ki, əsgərlərimizə ət lazım olsa, kömək etməyə hazıram, bunun üçün rayon rəhbərliyinə müraciət etmişəm.

Salyanlı iş adamı Elşad Mehdiyev, neftçalalı fermer Əlihüseyn Hacıyev, cəlilabadlı torpaq mülkiyyətçisi Rüstəm Rüstəmov, lənkəranlı çayçı-fermer Araz Yaqubov və yüzlərlə başqaları da ordumuza, əsgərlərimizə ərzaq göndərməyə hazır olduqlarını bildiriblər. Bütün bunlar sübut edir ki, belə günlərdə xalqımız bir olmağı, bir məslək, əqidə ətrafında birləşməyi bacarır. Birlik olan yerdə isə uğur, qələbə olur.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Azərbaycan məhsullarının Çinə ixracı müzakirə edilib

**Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Çinin "Sino-Foreign" şirkəti arasında onlayn formatda işgüzar görüş keçirilib.**

AZPROMO-dan AZƏRTAC-a bildirilib ki, Azərbaycanın Çindəki ticarət nümayəndəsi Teymur Nadiroğlu biznes dairələri arasında əməkdaşlığın inkişaf istiqamətləri barədə fikirlərini bölüşüb, keçirilən görüşlər və aparılan danışıqların iki qurum arasında əlaqələrin genişlənməsindəki rolunu vurğulayıb.

AZPROMO-nun rəhbəri vəzifələrini icra edən Yusif Abdullayev "Made in Azerbaijan" brendinin təşviqi, Azərbaycan məhsullarının xarici bazarlarda tanıdılması və satışının genişləndirilməsi istiqamətində görülən işlər barədə məlumat verib.

"Sino-Foreign" şirkətinin direktoru Van Veivei təmsil etdiyi qurumun fəaliyyətindən bəhs edib, iki qurum arasında əlaqələrin qurulmasının əhəmiyyətini, bu sahədə görüləcək işləri diqqətə çatdırıb.

İşgüzar görüşdə AZPROMO ilə "Sino-Foreign" şirkəti arasında əlaqələrin genişləndirilməsi və Azərbaycan məhsullarının Çinə ixracı məsələləri müzakirə olunub.

## Naxçıvan MR-də aztəminatlı ailələrin problemləri həll olunur

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və müvafiq rayon və şəhər icra hakimiyyətlərinin təşkilatçılığı ilə mütəmadi olaraq aztəminatlı ailələrə baş çəkilir, onların problemləri öyrənilir, həlli ilə əlaqədar tədbirlər görülür.

AZƏRTAC xəbər verir ki, həmin tədbirlərin davamı olaraq Şərur rayon Düdəngə kəndində və Kəngərli rayon Qıvraq qəsəbəsində yaşayan aztəminatlı Qurbanovlar və Məmmədovlar ailələrinə baş çəkilib. Tədbirdə iştirak edən təşkilatların əməkdaşları əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, aztəminatlı, çoxuşaqlı, xüsusi qayğıya ehtiyacı olan ailələrin sosial təminatlarının gücləndirilməsi, yoxsulluğun azaldılması istiqamətində muxtar respublikada ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirildiyini vurğulayıblar.

Sonda ailələrə ehtiyaclarına uyğun kömək göstərilib. Aztəminatlı ailələrin üzvləri dövlətimiz tərəfindən onlara göstərilən dəstəyi yüksək qiymətləndirərək minnətdarlıqlarını bildiriblər.

## Şəkidə 14,6 min hektar sahədə payızlıq səpin aparılıb

Respublikanın ən iri taxılçılıq rayonlarından olan Şəkidə gələn ilin məhsulu üçün payızlıq dən bitkilərinin səpini davam edir.

Torpaq mülkiyyətçiləri indiyədək 8 min 145 hektarı arpa, 6 min 485 hektarı buğda olmaqla, 14 min 630 hektar sahəyə toxum səpiblər.

Cari mövsümdə rayonda 65 min hektar sahədə payızlıq dənlilərin səpini proqnozlaşdırılır.

Bu barədə AZƏRTAC-a Şəki Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Sahib Abdulhəmidov məlumat verib. Sektor müdiri bildirib ki, rayonda növbəti ilin məhsulu üçün 43,5 min hektar sahəyə buğda, 21,5 min hektara isə arpa səpilməsi nəzərdə tutulur. Bu məqsədlə indiyədək təsərrüfatlarda 48 min 320 hektar sahədə şum qaldırılıb. Səpin kampaniyasına 133 ədəd şum traktoru, 92 ədəd toxumsəpən aqreqat və digər texnikalar cəlb edilib.

# Biz birlikdə güclüyük!

## Epidemiya vəziyyəti məhdudlaşdırıcı tədbirlər görməyi zəruri edir

### Virusu nəzarətolunan həddə salmaq vətəndaşların nizam-intizamı və məsuliyyətindən asılıdır



*Əvvəli 1-ci səh.*

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəhbəri Tedros Adanom Qebreyesus koronavirus pandemiyası ilə bağlı vəziyyəti şərh edərkən xəbərdarlıq edib ki, növbəti bir neçə ay çox çətin olacaq: "Biz COVID-19 pandemiyasının kritik vacib kəsişməsindəyik, xüsusilə şimal yarımkürəsində. Növbəti bir neçə ay çox çətin olacaq və bəzi ölkələr təhlükəli trayektoriyadadır".

ÜST rəhbəri dünya ölkələrinin liderlərini ölüm hallarının artması, səhiyyə sistemlərinin çökməsi və məktəblərin bağlanmasının qarşısının alınması istiqamətində dərhal addımlar atmağa çağırıb.

### Tibb işçilərimizi iki cəbhəyə bölməyək

Bir müddət əvvələ qədər Azərbaycanda COVID-19-a qarşı aparılan mübarizədə müsbət dinamika əldə olunsa da, təəssüf ki, son günlər bunun əksi ilə qarşılaşırıq. Ölkəmizdə koronavirusa yoluxma sayının pik həddə çatması ciddi narahatlıq yaratmaya bilməz. İndi cəbhə bölgəsində şiddətli döyüşlərin getdiyi bir məqamda xəstəxanalarda COVID -19-a yoluxanların sayının artması yolverilməzdir. Belə arzuolunmaz hal tibb işçilərimizin iki cəbhəyə bölünməsinə rəvac verə bilər ki, buna heç birimiz razı olmamalıyıq.

Buna görə də mövcud sanitar-epidemioloji vəziyyət, koronavirusa yoluxmuş aktiv xəstə sayı və yoluxma sürəti əsas götürülməklə, xüsusi karantin rejimi çərçivəsində bir sıra məhdudiyyətlərin tətbiq olunmasına qərar verilib. Belə ki, oktyabrın 19-dan noyabrın 2-dək ölkə üzrə bütün təhsil müəssisələrində tətil elan olunub.

Nazirlər Kabinetinin müvafiq tapşırığına əsasən, dövlət qurumlarında çalışan işçilərin say həddi 30 faizədək azaldılıb, digər əməkdaşlar məsafədən iş rejiminə keçirilib. Özəl sektorda və digər sahələrdə fəaliyyət göstərən qurum və təşkilatlara eyni qaydanın tətbiq edilməsi tövsiyə olunub. Yüksək risk qrupuna daxil olan 65 yaşdan yuxarı şəxslərin ən zəruri hallarda yaşayış yerlərini tərk etmələri tövsiyə edilib. Eyni zamanda Nazirlər Kabinetinin qərarına əsasən, noyabrın 2-dək Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti də dayandırılıb.

### Bəzi yerlərdə yüksək yoluxma faktları aşkarlanıb

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, ötən gündən karantin qaydaları yenidən sərtləşdirilib. Belə ki, ölkə ərazisində mövcud sanitar-epidemioloji vəziyyətin təhlilinə əsasən, son günlər Ağstafa, Biləsuvar, Xaçmaz, İsmayıllı, Qax, Zaqatala rayonlarında və Mingəçevir şəhərində yüksək yoluxma faktları qeydə alınıb.

COVID-19 virusunun yayılma sürətinin azaldılması, eləcə də onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə oktyabrın 24-dən Ağstafa, Biləsuvar, Xaçmaz, İsmayıllı, Qax, Zaqatala rayonlarına və Mingəçevir şəhərinə operativ və xüsusi təyinatlı nəqliyyat vasitələrinin, eləcə də yükdaşıyan avtomobillərin hərəkəti istisna olmaqla giriş-çıxış dayandırılıb. Eyni zamanda, adıçəkilən rayonlarda və şəhərdə həftəsonları ictimai nəqliyyatın hərəkəti də dayandırılıb.

Qurum vətəndaşları COVID-19 virusu ilə mübarizə sahəsində mövcud karantin tələblərinə riayət etməyə, eləcə də qoruyucu maskalardan və digər zəruri tibbi-profilaktik vasitələrdən istifadə etməyə, ictimai yerlərdə kənar şəxslərlə minimum kontaktda olmağa çağırıb.

### "İnsanların məsuliyyət hissinin azalması bizi daha çox narahat etməlidir"

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, insanlarda bu məsələ ilə bağlı məsuliyyət hissinin azalması daha çox narahatlıq yaradıb. Müşahidələr göstərir ki, aprel, may, iyun, iyul aylarında insanlar virusa yanaşmada daha ciddi idi, həm bir-birini, həm də özünü qoruma vərdişləri kifayət qədər yüksək idi. Avqust-sentyabr aylarında yoluxma sayında azalma başlayan kimi elə düşündülər ki, daha koronavirus ölkədə bitdi: "Düzdür, indi müharibə dövrüdür, insanlarımızın müəyyən hissəsinin əhvali-ruhiyyəsi ön cəbhəyə köklənib. Amma bu bizə əsas vermir ki, arxa cəbhədə düşmən olan koronavirusla mübarizəni də zəiflədək".

COVID-19-dan birdəfəlik qurtuluş yolu olan peyvəndlərlə bağlı hələlik proqnozlar ümidverici deyil. TƏBİB-in İnfeksion xəstəliklər üzrə işçi qrupunun həkim-infeksionisti Nəzrin Mustafayeva bildirib ki, koronavirusla bağlı hazırda təsdiqlənmiş, öz effektivliyini dəqiq sübuta yetirmiş bir peyvənd növü çox təəssüf ki, yoxdur. O, məlumat verib ki, peyvənd hər hansı bir müddətdə təsdiqlənsə belə, bu, müəyyən qrup insanlara vurulacaq. "Bunlar da yaşlı şəxslər, xroniki xəstəliyi olanlar, ürək-damar sistemi xəstəliyi, şəkərli diabeti olanlar, xroniki böyrək, qaraciyər xəstəlikləri olan şəxslər, ağciyərlərin xroniki xəstəliyindən əziyyət çəkənlərdir. Biz ölüm statistikalarını araşdırdığımız zaman görürük ki, onlarda ağırlaşma və ölüm riski çox yüksək olur", -deyə o bildirib.

Göründüyü kimi, hazırda bu qorxulu bəladan qorunmaq yalnız profilaktik tədbirlər görməklə, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əməl etməklə mümkündür. COVID-19-la bağlı hazırkı vəziyyətdə mövcud karantin rejiminə ciddi əməl etmək, maska taxmaq, mümkün qədər ictimai yerlərdə olmamaq, evdən yalnız zəruri hallarda çıxmaq, şəxsi gigiyenaya riayət etmək həyati əhəmiyyət daşıyır. Eyni zamanda, müvafiq pandemiya qaydalarına riayət etməklə həm sağlamlığımızı qoruya bilmək, həm də dövlətimizə və ordumuza böyük dəstək vermiş olarıq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Koronavirusa 792 nəfər yoluxub, daha 220 nəfər isə sağalıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasına 792 yeni yoluxma faktı qeydə alınıb, daha 220 nəfər sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 49 min 13 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 41 min 51 nəfər müalicə olunaraq sağalıb, 664 nəfər vəfat edib. Aktiv xəstə sayı 7298 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 281 min 997 test aparılıb. Dünənki test sayı isə 11353-dür.

## Mədəniyyət Nazirliyi Zəngilandakı məscidin ermənilər tərəfindən təhqir olunması ilə bağlı bəyanat yayıb

Mədəniyyət Nazirliyi Zəngilandakı məscidin ermənilər tərəfindən təhqir olunması ilə bağlı bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir: "30 ilə yaxın Ermənistan silahlı qüvvələrinin zəbt etdiyi Azərbaycan Respublikasının tarixi ərazisi - Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı rayonlar bu günlər müzəffər Azərbaycan Ordusu tərəfindən qarış-qarış işğaldan azad edilir. Silahlı Qüvvələrimizin şəxsi heyətinin şücaəti nəticəsində Cəbrayıl, Füzuli, Zəngilan rayon mərkəzləri, habelə bu rayonların, eləcə də Xocavənd, Tərtər rayonlarının bir sıra yaşayış məntəqələri işğaldan azad olunmuşdur. Azad olunan ərazilərimizdə yerləşən tarix-mədəniyyət abidələri də düşmən tapdağından xilas edilib. Bununla yanaşı, təəssüf hissi ilə qeyd olunmalıdır ki, illərlə davam etmiş bu işğal zamanı Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycan xalqına məxsus daşınmaz tarix və mədəniyyət abidələri dağıdılmış, mənimsənilmiş, tarixi-mədəni təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq vandalizmə məruz qalıb. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri islam dini abidələri - məscidlər, türbələr və digər inanc yerləri olub. Ermənilər məscidlərin içərisində ev heyvanları saxlamaqla azərbaycanlılara qarşı öz nifrətlərini nümayiş etdiriblər. İşğal olunmuş ərazilərdə yerləşən mədəni irsə, o cümlədən xüsusi əhəmiyyətə malik unikal abidələrə bu cür barbarcasına münasibət dünya irsinə qarşı yönəlmiş təhdiddir. Azad olunmuş ərazilərdə yerləşən abidələrin bir çoxu, gözlənildiyi kimi, acınacaqlı vəziyyətdədir. Zəngilan rayonunda yerləşən, daşınmaz tarix-mədəniyyət abidəsi kimi dövlət qeydiyyatında olan tarixi məscid binasından donuzların saxlanıldığı yer kimi istifadə olunması erməni vandalizminin daha bir bariz nümunəsidir və bu fakt təkcə Azərbaycanın deyil, ümumilikdə dünyanın mədəni irsinə barbar münasibət kimi beynəlxalq təşkilatların, tərəqqipərvər dünya birliyinin kəskin qınağına səbəb olmalıdır. Bu hal Ermənistan Respublikasının digər dinlərə münasibətini və həqiqi simasını əks etdirir. Müsəlmanların ibadət yeri olan məsciddə heyvanların saxlanılması Ermənistan Respublikasının bəşəri dəyərlərə olan mənfi münasibəti ilə yanaşı, xalqımızın, bütövlükdə müsəlman dünyasının dini dəyərlərinə hörmətsizlikdir və bu, beynəlxalq səviyyədə hüquqi qiymətini almalıdır. Sivil dünya dövlətlərini və xalqlarını Ermənistanın bəşəri dəyərlərə qarşı bu cür mənfur əməllərini pisləməyə çağırırıq. Diqqətə çatdırırıq ki, 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya"ya əsasən, işğalçı dövlət mədəni sərvətlərin dağılmasına, talan edilməsinə, qeyri-qanuni mənimsənilməsi hərəkətlərinə yol verməməli, bu sərvətlərə qarşı yönəlmiş düşmənçilik hərəkətlərindən çəkinməlidir".

## Fotomüxbirin növbəti uğuru

Hindistan Milli Fotoqrafiya Akademiyası fotoqrafiyanın ixtira olunmasının 181-ci ildönümü münasibətilə Beynəlxalq Foto Sənəti Federasiyasının (FIAP) himayəsi ilə "İlham" adlı beynəlxalq fotomüsabiqə keçirilib.

AZƏRTAC xəbər verir ki, FIAP-ın prezidenti Rikardo Bussinin sədrlik etdiyi münsiflər heyətinin üzvləri fotomüsabiqəyə yekun vurub və qalibləri müəyyən ediblər.

Sevindirici haldır ki, AZƏRTAC-ın fotomüxbiri İlqar Cəfərov fotomüsabiqədə dünyanın müxtəlif ölkələrini təmsil edən çoxsaylı iştirakçılar arasında "NAP-PI" qızıl medalına - Hindistan Milli Fotoqrafiya Akademiyasının "PERSONA International" mükafatına layiq görülüb. AZƏRTAC-ın fotoqrafına qələbə qazandıran fotoşəkil 2015-ci ilin fevral ayında Bakıda keçirilən stolüstü tennis üzrə beynəlxalq turnirdə çəkilmiş "Tennisdə qarşıdurma" adlı işdir.

Əsgərə məktub

## Hünərinə alqış!

Azərbaycanın mərd əsgər və zabitləri, əziz oğullarım ! Siz Azərbaycan tarixinin yeni şanlı səhifələrini yazırsınız. Torpaqlarımızın mənfur düşmənin işğalından azad edilməsində qətiyyətli, qorxmaz, döyüşkən, nikbin ruhlu olmağınız bir ana kimi mənim də ürəyimi dağa döndərir.

Bilin ki, düşmən sizdən çox qorxur. Onu öz faşist yuvasına kimi qovun. Ona elə bir tarixi dərs verin ki, bizim Vətənimizin, Azərbaycanın adını çəkməyə, bu tərəflərə baxmağa belə cürət etməsin.

Bilin ki, bütün analar kimi mən də sizə hər gün dua edirəm. Sizə Allahdan cansağlığı, dözüm, mərdlik, mətinlik diləyirəm, mənəvi dayaq olmağıma sevinirəm. Çünki siz düşmənə aman vermirsiniz, düz də edirsiniz. Qaniçən, kəmfürsət yağıya heç bir güzəşt ola bilməz!

Mən xalqımıza, ayrı-ayrılıqda sizin hər birinizə Qələbə sevinci arzu edirəm.

Əziz əsgər balam! Əgər evlisənsə, isti ocağına, körpələrinin yanına sağ-salamat, zəfərlə qayıdasan. Əgər subaysansa, sənə "Vağzalı" ilə gəlin gətirmək qismət olsun bizlərə.

Sənin hünərinlə neçə illərdir yağı tapdağında inləyən torpaqlarımız və narahat şəhid ruhları dinclik tapacaq, həsrətlilər yurd-yuvasına qovuşacaq.

Başda Prezidentimiz, Ali Baş Komandan, möhtərəm İlham Əliyev olmaqla yaşasın Azərbaycan xalqı! Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!

***Gülxanım KAZIMOVA,***
***Bakı şəhər sakini***

## "Müzəffər Ali Baş Komandanımız, Şanlı Ordumuz sayəsində arzumuz gerçəkləşir"

İyirmi səkkiz ildən sonra doğma yurdlarının işğaldan azad olunmasının sevincini Xocavənd rayonunun Günəşli kəndinin sakinləri də yaşayırlar. Günəşli sakinləri indi uzun illərdir həsrətində olduqları kəndlərinə qayıdacaqları günü gözləyirlər.



Sevinc hisslərini bölüşən kənd sakini Şakir Balakişiyev Xocavənd rayonunda keçən gənclik illərinin ən gözəl xatirələr kimi yaddaşına həkk olunduğunu deyib: "Kəndimiz işğal olunanda 28 yaşım var idi. Gəncliyim o gözəl yerlərdə keçib. Həmin illər yaddaşımda ən gözəl xatirələrlə qalıb. 28 ildir doğma yurdumuzun həstəri ilə yaşayırıq. Artıq bu həsrətə son qoyulur. Bizim kəndimiz də düşmən tapdağından azad edilib. Uzun illər gözlədiyimiz bu xəbəri eşidəndə bayram elədik. Sevinirəm ki, övladlarımla ata yurduma qayıdacağıq, nəvələrim o torpaqlarda böyüyəcək. Bu sevinci bizə bəxş edən Prezidentimizə minnətdaram".

Ailənin xanımı Nuriyə Balakişiyeva dövlətimizin məcburi köçkünlər üçün yaratdığı şəraitdən razılıqla danışsa da, hər zaman ən böyük istəklərinin doğma yurdlarına qayıtmaq olduğunu bildirib: "Dövlətimiz bizim üçün gözəl şərait yaradıb. Lakin biz hər zaman öz yurdumuza qayıtmaq istəmişik. Bu gün çox sevinirik. Müzəffər Ali Baş Komandanımız, Şanlı Ordumuz sayəsində arzumuz gerçəkləşir. Oğlum da hazırda cəbhədə torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərdədir. Ən böyük arzum odur ki, oğluma doğma kəndimizdə toy edək. Bundan sonrakı həyatımızı kəndimizdə keçirək".

Ailənin qızı Türkanə Sadıqova köçkünlük illərində doğulub. Ata-baba yurdlarını görməsə də, o yerlərə sevgi ruhunda böyüyüb. "Ata yurdumuzu heç zaman görməmişəm, lakin həmişə ora getməyi istəmişəm. Çünki atamın doğulduğu kənd mənim də vətənimdir. İndi çox sevinirəm, artıq kəndimiz işğaldan azad edilib və biz o yerləri görəcəyik", - deyə o bildirib.

***AZƏRTAC***

# Beynəlxalq aləm



## ABŞ Hərbi Dəniz Qüvvələrinin təyyarəsi qəzaya uğrayıb

ABŞ Hərbi Dəniz Qüvvələrinin T-6B təlim-məşq təyyarəsi Alabama ştatı ərazisində qəzaya uğrayıb. Təyyarə Mobil şəhərində yaşayış evinin üstünə düşüb. Nəticədə hər iki pilot həlak olub.

ABŞ Hərbi Dəniz Qüvvələrinin mətbuat katibi mayor Zak Harrelin verdiyi məlumata görə, hadisə yerli vaxtla saat 17:00-da baş verib. Ölən pilotların şəxsiyyəti hələlik açıqlanmır. Mülki əhali arasında xəsarət alanlar barədə isə məlumat verilmir.

## Pakistanın qərbində 4 terrorçu zərərsizləşdirilib



Pakistanın təhlükəsizlik qüvvələri ölkənin qərbindəki Belucistan əyalətində dörd terrorçunu zərərsizləşdirib.

Pakistan Radio xəbər verir ki, toqquşmalar Mastung rayonunda baş verib. Sığınacağında çoxlu sayda silah və partlayıcı maddələr, həmçinin kamikadze jiletləri aşkar edilən terrorçuların hansı təşkilata üzv olması barədə məlumat verilmir.

## Türkiyə S-400 komplekslərini sınaqdan keçirdi



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiyadan alınan S-400 zenit raket sistemlərinin sınaqdan keçirildiyini bildirib. Sınaqlar oktyabrın 16-da Sinop şəhərinin yaxınlığında Qara dəniz sahilində keçirilib. Bu barədə "Rosbalt" agentliyi xəbər verir.

Məlumata görə, Ərdoğan Türkiyənin ABŞ-ın bu məsələ ilə bağlı mövqeyini nəzərə almayacağını və sınaqları davam etdirəcəyini vurğulayıb. "Testlər haqqında məlumat düzgündür. ABŞ-ın yanaşması bizə aid deyil, biz onlardan soruşmayacağıq. Yunanıstanda S-300 var, ABŞ Yunanıstandan bunu soruşurmu? Yox", - deyə Türkiyə Prezidenti bildirib.

Bu arada NATO-nun Baş katibi Yens Stoltenberq Ankaranın S-400 Rusiya sistemlərini əldə etməsi və sınaqdan keçirməsi ilə bağlı narahatlığını bildirib.

## Polşa Prezidenti koronavirusa yoluxub



Polşa Prezidenti Andjey Dudada koronavirus infeksiyası aşkar edilmişdir. Bu barədə onun mətbuat katibi Blajey Spihalski bildirib.

"Dünən Prezident Andjey Duda koronavirus testini verdi. Nəticə müsbətdir", - deyə Spihalski Tvitter-də yazıb. "Duda özünü yaxşı hiss edir və o, həkimlərin nəzarətindədir" deyə mətbuat katibi əlavə edib.

Bir neçə gün əvvəl Duda Kiyevdə olmuşdur. O, oktyabrın 11-13-də Ukrayna paytaxtına səfəri zamanı həmkarı Vladimir Zelenski ilə görüşmüşdür.

Son məlumata görə, dünyada 42 milyondan çox insan koronavirusa yoluxmuş, 1,1 milyondan çox xəstə vəfat etmişdir.



## BMT: "Liviyada tam atəşkəs haqqında razılıq əldə edilib"

Liviya Hərbi Komitəsinin "5+5" formatında apardığı danışıqların dördüncü mərhələsi çərçivəsində münaqişə tərəfləri ölkə ərazisində davamlı atəşkəs haqqında razılığa gəliblər.

BMT Baş Katibinin Liviya üzrə xüsusi elçisi səlahiyyətlərini icra edən Stefani Vilyams BMT-nin Cenevrə ofisində sazişin imzalanması mərasimində çıxış edib. Vilyams qarşı-qarşıya duran tərəflər arasında razılaşmanı ərəb dilində alqışlayıb. Onun dediyinə görə, Liviyanın bütün ərazisində atəşkəs haqqında saziş dərhal qüvvəyə minir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

"Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi
Dərman, sarğı ləvazimatlarının və materiallarının alınması kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar +994125698289 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 26.10.2020-ci il saat 09:00-dan 30.10.2020-ci il saat 15:00-dək qəbul olunur.

*Tender komissiyası*

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Ünvan

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7475
Sifariş 2453
Qiyməti 40 qəpik